RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 290 (8313) ŞƏNBƏ, 28 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Qafqazın ən böyük büdcəsi

### Azərbaycanın 2020-ci il dövlət büdcəsi Ermənistandan 4, Gürcüstandan isə 3,7 dəfə böyükdür

Dünya iqtisadiyyatında yeni təlatümlər müşahidə olunduğu bir vaxtda Azərbaycanda qeydə alınan sosial-iqtisadi tərəqqi ölkənin inkişaf uğurunun daha bir real təsdiqidir.
Ölkəmiz davamlı olaraq siyasi, sosial-iqtisadi qüdrətini artırır, mövqelərini möhkəmləndirir. Gələn il ərzində Azərbaycanın yeni nailiyyətlərin müəllifinə çevriləcəyinə də heç bir şübhə yoxdur.
Eyni zamanda atılan addımlar Azərbaycanın regionda lider ölkə statusunu daha da möhkəmlədəcəyini tam qətiyyətlə deməyə əsas verir. Bunu region ölkələrinin büdcələrinə nəzər salmaqla da aydın görmək olar.

### Regionda ən az büdcə Ermənistana məxsusdur

Ölkəmizdə gələn il üçün dövlət büdcəsi artıq Prezident İlham Əliyev tərəfindən təsdiqlənib. Azərbaycanın 2020-ci il dövlət büdcəsinin gəlirləri 24 milyard 134,5 milyon manat, xərcləri isə 26 milyard 913,7 milyon manat proqnozlaşdırılır. Qeyd olunan göstəricilər cari illə müqayisədə kifayət qədər yüksəkdir. Amma 2020-ci ilin büdcəsi cari ilin büdcəsindən təkcə gəlir və xərclərinin daha böyük olması ilə fərqlənmir, həm də növbəti ilin büdcəsində keyfiyyət dəyişikliklərini ehtiva edən mühüm məqamları görmək olar. İlk növbədə, qeyd etmək lazımdır ki, gələn ilin dövlət büdcəsi yeni yanaşmalara və yeni büdcə qaydasına uyğun olaraq tərtib edilib.

Bu qaydalar ilk növbədə, neft qiymətlərindəki dəyişkənliyin büdcə gəlirlərinə təsirini minimuma endirməyi nəzərdə tutur. Gələn ildən başlayaraq dövlət büdcəsinin Orta Müddətli Xərclər Çərçivəsi əsasında qurulması da mühüm yenilik sayılır. Xüsusilə də gələn ilin büdcəsində neftin baza qiymətinin 55 dollardan götürülməsi və qeyri-neft gəlirlərinin neft transfertlərini üstələməsi olduqca vacibdir.

Büdcədə qeyri-neft gəlirlərinin payındakı artım Dövlət Neft Fondundan artan transfertlərdən 2,5 dəfə çoxdur. Neft Fondundan transfert təxminən 400 milyon manat, yəni 3 faiz artır, halbuki qeyri-neft gəlirlərinin artım tempi 11,3 faizdir, yəni cari illə nisbətdə 1 milyard 68 milyon manat nəzərdə tutulur. Ümumilikdə gələn ilin büdcə gəlirlərinin tərkibində qeyri-neft gəlirləri 10 milyard 536,5 milyon manat olmaqla payını 43 faizə çatdırmış olacaq.

Cənubi Qafqazın ikinci ən böyük iqtisadiyyatı sayılan Gürcüstanın büdcəsi gələn il üçün 14,55 milyard lari və ya 8 milyard 669 milyon manat təşkil edəcək. Bu, cari ilin dövlət büdcəsinə bərabərdir. Qonşu ölkədə büdcə gəlirləri 10,120 milyard lari və ya təxminən 6 milyard 447 milyon manat təşkil edəcək. Bu, Azərbaycan büdcəsindən təxminən 3,7 dəfə azdır.

Regionda həmişəki kimi, ən aşağı büdcə Ermənistana məxsusdur. Gələn il üçün işğalçı ölkənin büdcə xərcləri 1 trilyon 822 milyard dram təşkil edəcək. Bu, 6 milyard 455 milyon manata bərabərdir. Bu isə o deməkdir ki, işğalçı ölkənin büdcəsi Azərbaycandan 4 dəfədən də çox azdır. Ermənistanda büdcə gəlirləri isə 1 trilyon 697 milyard dram və ya 6 milyard manat təşkil edəcək. Bu da onu göstərir ki, Ermənistanın gələn il dövlət büdcəsinin kəsiri artacaq. Belə vəziyyətdə Ermənistanın daha böyük miqyasda sosial-iqtisadi problemlərlə üzləşməsi qaçılmaz sayılır.

### Azərbaycanın hərbi büdcəsi Ermənistandan 3, Gürcüstandan isə 6 dəfə çoxdur

Cənubi Qafqaz ölkələrinin büdcələrində maraq doğuran məqamlardan biri də hərbi xərclərlə bağlıdır. Azərbaycanda 2020-ci ilin dövlət büdcəsi xərclərinin 3 milyard 853,6 milyon manatı müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə yönələcək.

Ardı 9-cu səh.

## "Şahdağ" Turizm Mərkəzi dünyadakı oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar



**Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, "Şahdağ" Turizm Mərkəzinə gələn dövlət başçısı burada xizək sürdü.

Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə yerləşən "Şahdağ" Turizm Mərkəzinin təməli 2009-cu ilin sentyabrında Prezident İlham Əliyevin iştirakı ilə qoyulub. Azərbaycanda və ümumiyyətlə dünyada ən mükəmməl layihələrdən olan "Şahdağ" Turizm Mərkəzi oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir və ilboyu fəaliyyət göstərmək iqtidarındadır. Bu layihənin reallaşdırılması Azərbaycanda dağxizək və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açır.

Son illərdə burada xeyli iş görülüb. Dövlət başçısı ən hündür nöqtədə tikilən "Shahdag 2351" kafesinin qarşısında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, burada baxış meydançası yaradılıb, ərazidə ehtiyat helikopter meydançası inşa edilib, hündürlüyü 30 metr olan bayraq dirəyi quraşdırılıb.

Prezident İlham Əliyev yerli və xarici turistlərlə söhbət etdi. Turistlər "Şahdağ" Turizm Mərkəzində yaradılan şəraitdən razılıqlarını bildirdilər.

Qeyd edək ki, "Welcome Shahdag" ərazisinin giriş hissəsi abadlaşdırılıb, burada yaşıllıq zolağı salınıb. "Welcome Shahdag" turistlərin mərkəzdə qarşılaşacaqları ilk nöqtədir. Bu ərazidə 363 yerlik yeni avtomobil dayanacağı inşa edilib. Qonaqların qarşılanması, məlumatlandırılması və istiqamətləndirilməsi üçün "Welcome Plaza" binası da tikilib. Turist avtomobillərinin rahatlığı üçün isə uzunluğu 1 kilometrə yaxın olan yeni alternativ Zirvə yolu inşa edilib.

Baş Nazirin birinci müavini Yaqub Eyyubov və "Şahdağ" Turizm Mərkəzi QSC-nin sədri Rodderix Leffler bildirdilər ki, 2018-ci ilin martından bu ilin dekabrına qədərki dövrü əhatə edən ikinci faza çərçivəsində "Şahdağ" Turizm Kompleksində ümumi uzunluğu 7,9 kilometr olan 7 eniş zolağı inşa edilib. Bu eniş zolaqlarında 81 yeni qaryaratma avadanlığı quraşdırılıb və qaryaratma üçün lazım olan kommunikasiya xətləri inşa edilib. Şahdağ ərazisində quraşdırılan müasir qaryaratma avadanlıqları ən çox qaryaratma gücünə malikdir.

Ardı 2-ci səh.

## TANAP Azərbaycanın bütün qaz ehtiyatlarını işə salmağa imkan verəcək

### Prezident İlham Əliyev bu kəmərin istismara verilməsini bir daha böyük tarixi hadisə kimi dəyərləndirib




2019-cu il Azərbaycan iqtisadiyyatının enerji sektorunda mühüm hadisələrlə zəngin olub. Bunların sırasında TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) tam istifadəyə verilməsinin özünəməxsus yeri var. Belə ki, bu layihənin başa çatması "Cənub qaz dəhlizi"nin reallaşmasında önəmli əhəmiyyət daşıyır.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində TANAP layihəsi ilə bağlı sual ətraflı cavablandırılıb. Dövlət başçısı bu barədə deyib: "TANAP layihəsinin istismara verilməsi, əlbəttə ki, böyük hadisədir, tarixi hadisədir. Demək olar ki, "Cənub qaz dəhlizi"nin əsas hissəsini təşkil edən bu layihə uğurla başa çatdırıldı və əvvəlcədən nəzərdə tutulmuş daha aşağı qiymətlə.

Yəni, bu layihəyə bəri başdan daha böyük vəsait nəzərdə tutulurdu. Ancaq inşaat zamanı böyük qənaətlə bu layihə icra edildi və artıq Azərbaycan qazı Avropa İttifaqının sərhədinə gətirilib çıxarıldı. Ona görə Türkiyə-Yunanıstan sərhədində bu ilin noyabrında keçirilmiş mərasim xüsusi əhəmiyyət daşıyırdı".

Ardı 9-cu səh.

◆ İlə yekun vurulur

## Azərbaycan kəndinin bolluq, bar-bərəkət ili



Aqrar sektor ölkə iqtisadiyyatında xüsusi çəkiyə malikdir. Bu sahə həm əhatə dairəsinə, həm də burada çalışanların sayına görə ilk yerdədir. Digər tərəfdən, ölkənin strateji məsələlərindən olan ərzaq təhlükəsizliyində mühüm yer tutur. Kənd təsərrüfatı həmçinin sənaye və emal sahələrinin inkişafında xammal bazası rolunu oynayır. Belə ki, toxuculuq sənayesi üçün pambıq, yun aqrar sektorda yetişdirilir. Ərzaq emalı sahəsində də kənd təsərrüfatı məhsullarından istifadə olunur.

Ümummilli Lider Heydər Əliyev keçmiş SSRİ məkanında ilk dəfə aqrar islahatlar keçirdi. Həmin dövr üçün bu, çox riskli idi. Buna baxmayaraq, ölkəmiz dünya təcrübəsinə əsaslanaraq aqrar islahatların keçirilməsinə qərar verdi. Lakin 70 ildən sonra ilk dəfə torpaq sahibi olan kəndlinin onu əkib-becərməyə vəsait və texnikası yox idi. Odur ki, müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə bazar və supermarketlərdəki kənd təsərrüfatı məhsullarının çox hissəsi xaricdən gətirilirdi.

Prezident İlham Əliyev belə vəziyyətdən çıxmaq üçün aqrar sektorun inkişafına xüsusi önəm verdi. Kəndliyə maddi kömək məqsədilə güzəştli kreditlərin verilməsinə başlandı. Eyni zamanda kəndliyə əkin zamanı istifadə etdiyi yanacaq və sürtkü yağlarına görə subsidiyalar ödənildi. Digər tərəfdən, kəndliyə güzəştli şərtlərlə gübrə və kənd təsərrüfatı texnikası satıldı. Həmçinin damazlıq üçün daha məhsuldar heyvan və bitki sortları da, demək olar ki, kəndlilərə pulsuz verildi. Prezident İlham Əliyev dövlətin fermerlərə göstərdiyi qayğının yüksək olduğunu bildirərək demişdir ki, dünyanın heç bir ölkəsində Azərbaycanda olduğu qədər kəndliyə dəstək verilmir.

Bütün bunların nəticəsi olaraq aqrar sektorda məhsul istehsalı ildənilə artır. Hazırda bazar və marketlərdə satılan kənd təsərrüfatı məhsullarında yerli istehsal üstünlük təşkil edir. Son dövrlərin statistikasına diqqət yetirdikdə görürük ki, məhsul ixracında da aqrar sektorun çəkisi və malların çeşidi artıb.

Cari il də kənd təsərrüfatı üçün uğurlu olub. Bu sahə üzrə yanvar-noyabr aylarının statistikasında göstərilir ki, ümumi kənd təsərrüfatı məhsullarının istehsalı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,1 faiz artıb. Heyvandarlıqda artım 3,2, bitkiçilikdə 11,3 faizdir. Eyni zamanda kənd təsərrüfatının ümumi daxili məhsuldakı payı ötənilki 5,4 faizdən artaraq 6 faizə çatıb.

Ardı 9-cu səh.

# “Şahdağ” Turizm Mərkəzi dünyadakı oxşar istirahət məkanlarından bənzərsizliyi ilə fərqlənir














*Əvvəli 1-ci səh.*

Hazırda kompleksdəki eniş zolaqlarının ümumi uzunluğu 22,8 kilometrə çatır və burada yeni quraşdırılan kanat yolları 1,4 kilometr uzunluğundadır. 5 saylı kanat yolunun yuxarı operator məntəqəsi dəniz səviyyəsindən 2351 metr hündürlükdə inşa edilib. Bu, 1 saylı kanat yolunun yuxarı stansiyasından 250 metr daha hündürdə yerləşir. 600 metrlik 20 saylı kanat yolu “Welcome Shahdag” ərazisi ilə Zirvə lift bazasını, 5 saylı kanat yolu isə 1 saylı kanat yolunun davamı olaraq MTG zonasını 5 saylı eniş zolağının başlanğıcı və ya “Shahdag 2351” kafesi ilə birləşdirir. O da qeyd olundu ki, təbii göl və onun ətrafında tikinti quraşdırma işləri də tamamlanıb. Ərazinin abadlaşdırılması işləri indi də davam edir və 2020-ci ilin yaz aylarında göl ətrafında yeni park zonası istifadəyə veriləcək.

Dövlət başçısına və birinci xanıma məlumat verildi ki, “Şahdağ” Turizm Mərkəzinin “Main Plaza” adlanan ərazisində 2 zalı olan yeni kinoteatr inşa edilib. Zalların biri 36, digəri 72 yerlikdir. Buraya gələn yerli və xarici turistlərin xizək sürdükdən sonrakı asudə vaxtlarının səmərəli təşkilində, onların müasir kino sənayesinin yeni məhsulları ilə tanış olmasında kinoteatr mühüm rol oynayacaq. Kinoteatrın Yeni il bayramında turistlərin istifadəsinə verilməsi planlaşdırılır. Bundan əlavə, dördxətli boulinq, uşaq boulinqi, bilyard və avtomat oyunlardan ibarət oyun zalı yaradılıb, “Music Hall” inşa edilib.

“Şahdağ” Turizm Mərkəzində görülən işləri yüksək qiymətləndirən dövlət başçısı dedi ki, bura indi dünya səviyyəli xizək kurortudur. Burada həm peşəkarlar, həm də yeni başlayanlar üçün çox rahat enişlər var. Gələcəkdə kompleksin genişləndirilməsi ilə bağlı əlavə planlar olacaq.

Prezident İlham Əliyev “Şahdağ” Turizm Mərkəzinin üçüncü mərhələsi üzrə layihə işləri ilə bağlı tapşırıqlarını verdi.

Dövlət başçısı və xanımı turistlərlə, kompleksin işçiləri ilə xatirə şəkilləri çəkdirdilər.

Azərbaycanda sürətlə inkişaf edən turizm sektoruna böyük töhfə olan “Şahdağ” Turizm Mərkəzində inşa edilən hotellər bu istirahət məkanına marağı daha da artırır. Qonaqların istirahətinin yüksək səviyyədə təmin olunduğu bu hotellərdə yaradılan şərait bir daha təsdiqləyir ki, bu gün ölkəmizdə turizm sektorunun inkişafına xüsusi fikir verilir. Paytaxtla yanaşı, regionlarda da müasir turizm və istirahət obyektlərinin, mehmanxana komplekslərinin tikilib istifadəyə verilməsi Azərbaycanda bu sahənin inkişafına diqqətin göstəricisidir. Bu çərçivədə “Şahdağ” Turizm Mərkəzində inşa edilən hotellərdə təqdim edilən yüksək şərait Azərbaycanda mehmanxana biznesinin inkişafını bir daha təsdiqləyir və qeyri-neft sektorunda bu sahənin xüsusi çəkisinin getdikcə artdığını göstərir. Ölkəmizdə qeyri-neft sektoruna mühüm töhfə olan “Şahdağ” Turizm Kompleksi Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bu möhtəşəm obyektin inşasını daim diqqət mərkəzində saxlayan dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə əraziyə gələrək tikintinin gedişi ilə tanış olub, bir neçə obyektin və hotelin açılışında iştirak ediblər.

## Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli cənab Prezident!

Almatı şəhəri yaxınlığında təyyarə qəzası nəticəsində insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, şəxsən öz adımdan və Azərbaycan xalqı adından başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 dekabr 2019-cu il*

## Azərbaycanın Baş Naziri qazaxıstanlı həmkarına başsağlığı verib

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov Qazaxıstan Respublikasının Baş Naziri Əskər Maminə başsağlığı məktubu göndərib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazir Əli Əsədov Almatı şəhəri yaxınlığında insan tələfatı ilə nəticələnmiş təyyarə qəzası haqqında xəbərdən olduqca kədərləndiyini bildirib.

Azərbaycanın Baş Naziri faciə ilə əlaqədar qazaxıstanlı həmkarına, həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralananlara və xəsarət alanlara şəfa diləyib.

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

Dekabrın 27-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib.

YAP-ın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iclasda 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Yeni Azərbaycan Partiyasının namizədləri müzakirə edilib və təsdiq olunub.

## Daxili İşlər naziri polis nəfəri vəzifələrində xidmət etmək istəyən gənclərin sıra baxışını keçirib

Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, dekabrın 27-də Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Abşeron, Salyan, İsmayıllı, Ucar, Kürdəmir, Şabran, Siyəzən, Xızı, Masallı, Şəmkir, Lənkəran şəhər və rayon polis orqanlarında, Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək istəyən gənclərin sıra baxışını keçirib.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti baş idarə və idarə rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Sıra baxışında iştirak edən 301 iddiaçının arasından daha hazırlıqlı olan 245 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Namizədlərlə görüşdə çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini vurğulayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq gənclərdən asılı olduğunu dəfələrlə vurğuladığını xatırladıb. O, belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların daxili işlər orqanlarında xidmətə qəbul üçün hər zaman əhəmiyyətli addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

General-polkovnik Vilayət Eyvazov gəncləri qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, hər zaman polis adını və şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini artırmalarını, öz üzərlərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, vətəndaş məmnunluğunun təmininə layiqli töhfələrini verməyi tövsiyə edib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli Prezident.

Sizi doğum gününüz münasibətilə təbrik edir, xoş günlər arzulayıram. Ümidvaram ki, Siz hələ bundan sonra uzun illər ölkənizin inkişafına töhfələr verəcəksiniz.

Bu xoş fürsətdən istifadə edərək öz fəaliyyəti ilə dünya miqyasında getdikcə nüfuz qazanan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə verdiyiniz dəstəyə görə Sizə təşəkkür edirəm.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar və ailə səadəti arzulayıram.

Doğum gününüz münasibətilə Sizi bir daha təbrik edirəm.

*Səmimiyyətlə,*

***Petar STOYANOV,***
***Bolqarıstan Respublikasının sabiq Prezidenti (1997-2002),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Cənab Prezident.

Sizi ad gününüz münasibətilə təbrik edir və ən xoş arzularımı çatdırıram.

Doğum gününüzü qeyd edərkən Sizə ölkənizin və ailənizin rifahı üçün həyatınızın tükənməz enerji, hikmət, iltifat ilə dolu olmasını arzulayır, Zati-alinizə cansağlığı diləyirəm.

Cənab Prezident, artıq dünyada nüfuzlu təşkilata çevrilmiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

*Ən xoş arzularla,*

***Buyar NİŞANİ,***
***Albaniyanın sabiq Prezidenti (2012-2017),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırıram. Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram. Əminəm ki, xalqınız və ölkəniz üçün gördüyünüz möhtəşəm işləri uğurla davam etdirəcəksiniz.

Mən dünyada böyük nüfuz qazanmış və Sizin strategiyanıza sadiq olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyi yüksək qiymətləndirirəm.

Hörmətli cənab Prezident, Sizi doğum gününüz münasibətilə bir daha təbrik edirəm.

*Dərin ehtiramla,*

***Mladen İVANİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sabiq üzvü (2014-2018)***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizə cansağlığı, xoş əhvali-ruhiyyə və ölkənizin rifahı üçün ən səmimi arzularımı çatdırıram.

Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü kimi 2020-ci ilin mart ayında Bakıda təkrarən Sizinlə görüşümüzü səbirsizliklə gözləyirəm. Bu, yaşadığımız dünyanın mövcud problemləri və üzləşdiyimiz çağırışları açıq şəkildə müzakirə etməyimiz üçün bizə - sabiq və fəaliyyətdə olan dövlət və hökumət başçılarına yeni bir imkan açacaqdır. Əvvəlki üç ildə keçirilən tədbirlərlə bağlı təcrübəm onu deməyə əsas verir ki, burada səmərəli müzakirələr aparılır və tədbir iştirakçıları tərəfindən daim konstruktiv təkliflər irəli sürülür. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünyada təşkil etdiyi çoxsaylı görüşlər iştirakçılarla daha yaxından tanış olmaq, həmçinin insanlar və xalqlar arasında daim yeni dostluq əlaqələri qurmaq baxımından çox gözəl bir fürsətdir.

Zati-aliləri, bizi anlaşma, tolerantlıq və təhsil ideyaları ətrafında birləşdirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə öz minnətdarlığımı bildirirəm. Cənab Prezident, bizi bir araya toplayan və irəliyə aparan hərəkətverici qüvvə katibliyimizin gənc və bacarıqlı əməkdaşlarıdır. Onlar Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri üçün yaxşı dost və bir ailənin üzvü kimidirlər, burada hər kəs bir-birinin qayğısına qalır. Buna görə də biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzini dostlarımızın qarşılıqlı dəstəyinin mövcud olduğu ümumi evimiz hesab edirik. Bizə belə bir imkan yaratdığınız üçün Sizə təşəkkür edirəm.

Cənab Prezident, doğum gününüz münasibətilə Sizi bir daha təbrik edir, bütün arzularınızın həyata keçməsini diləyirəm. Həmçinin fürsətdən istifadə edib, 2020-ci ilin Sizin üçün xoş və uğurlu keçməsini arzulayıram.

Sizinlə tezliklə Azərbaycanda görüşmək ümidindəyəm.

*Dərin hörmətlə,*

***Yadranka KOSOR,***
***Xorvatiyanın sabiq Baş naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik etmək mənim üçün həqiqətən böyük şərəfdir.

Fürsətdən istifadə edib xalqlarımız və dövlətlərimiz arasında qardaşlıq əlaqələrini qeyd etmək, xüsusilə də bu münasibətləri daha da yaxşılaşdırmaq və möhkəmləndirmək istiqamətində Sizin xüsusi rolunuzu vurğulamaq istərdim. Dəfələrlə qeyd etdiyiniz kimi, Azərbaycan və Qırğızıstan xalqlarını bir-birinə ortaq tarix, dil, din və ortaq mədəniyyətə əsaslanan xüsusi bağlar birləşdirir. Hazırda Qırğızıstanda öz adət-ənənələrini və dillərini qoruyub saxlayan 20 mindən çox azərbaycanlı yaşayır və burada onlar özlərini evlərindəki kimi hiss edirlər.

Biz həm Sizin, həm də himayənizlə qlobal səhnəyə çıxan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə yüksək dəyər veririk.

Əminəm ki, Sizin rəhbərliyinizlə ölkələrimiz arasında münasibətlər daha da inkişaf edəcək və möhkəmlənəcək.

***Comart OTORBAYEV,***
***Qırğızıstanın sabiq Baş naziri (2014-2015),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi təbrik edirəm. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəaliyyətinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

***Noelin HEYZER,***
***Birləşmiş Millətlər Təşkilatının Baş Katibinin müavini (2007-2014),***
***BMT Baş Katibinin sabiq xüsusi müşaviri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizi böyük məmnuniyyətlə təbrik edirəm. Öz ölkənizə ləyaqətlə xidmət etməyiniz, dünyada sülhün, sabitliyin və tərəqqinin möhkəmlənməsi, mədəni irsin qorunub saxlanılması və ətraf mühitin mühafizəsi fəaliyyətində liderliyiniz bizim hamımız üçün ilham mənbəyidir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstək bu təşkilatın təşəbbüslərinin beynəlxalq səviyyədə yayılmasında, eləcə də Azərbaycanın dünyanın liderləri arasında aktual qlobal çağırışlarla bağlı strateji müzakirələrin aparılması üçün koordinasiya mərkəzi kimi çıxış etməsində həlledici rol oynayır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə isə sülh və rifah arzulayıram.

*Hörmətlə,*

***Eka TKEŞELAŞVİLİ,***
***Gürcüstanın sabiq Baş nazir müavini, sabiq xarici işlər naziri (2010-2012),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edir, Zati-alinizə ailənizlə birgə cansağlığı, uzun ömür, xoşbəxtlik arzu edirəm. Zati-alinizin humanist, müdrik siyasəti sayəsində Azərbaycan Respublikası dünyada öz mövqeyini gündən-günə gücləndirməkdədir.

Möhtərəm cənab Prezident, Prezidentimiz Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Türkiyə və Azərbaycan arasındakı irimiqyaslı layihələrin həyata keçirilməsini təmin etdiyinizə görə Sizə təşəkkür edirəm.

*Dərin hörmət və ehtiramla,*

***Şamil AYRIM,***
***Türkiyə Böyük Millət Məclisinin İstanbuldan deputatı,***
***Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri***

❖ ❖ ❖

Zati-aliləri cənab Prezident.

Xarici İşlər üzrə Çin Xalq İnstitutu adından və şəxsən öz adımdan Sizə doğum gününüz münasibətilə ən səmimi təbriklərimi çatdırmaq istəyirəm. Zati-alinizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik arzularımı qəbul etməyinizi xahiş edirəm.

Çin xalqının dostu kimi zati-aliniz Çin-Azərbaycan münasibətlərinin inkişafına daim sadiqliyini göstərib. Son iki ildə Xarici İşlər üzrə Çin Xalq İnstitutu ilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi arasında sıx əməkdaşlığa verdiyiniz böyük dəstəyə görə Sizə xüsusi minnətdarlığımı bildirirəm. İnstitutumuz xalqlarımız arasında ənənəvi dostluq münasibətlərini daha da möhkəmləndirmək, dünyada sülh və tərəqqini təşviq etmək üçün Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə birlikdə çalışmağa davam edəcəkdir.

Mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dəvəti ilə gələn ilin martında Azərbaycanda keçiriləcək VIII Qlobal Bakı Forumunda iştirak etməyi planlaşdırır və zati-alinizi Bakıda görəcəyimə ümidvaram.

Sizi qarşıdan gələn Yeni il münasibətilə də təbrik edirəm.

*Hörmətlə,*

***Vanq ÇAO,***
***Xarici İşlər üzrə Çin Xalq İnstitutunun prezidenti***

❖ ❖ ❖

Zati-aliləri.

Doğum gününüz münasibətilə Sizi Çin İctimai Diplomatiya Assosiasiyasının adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Bu ilin mart ayında Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə Bakıda keçirilən VII Qlobal Forumunda iştirakımı və Sizin tərəfinizdən qəbul olunmağımı böyük məmnuniyyət hissilə xatırlayıram. Bu, Çin nümayəndə heyətinin həmin tədbirdə iştirakına Sizin böyük önəm verdiyinizin təsdiqidir. Sizinlə ölkələrimizin qarşılıqlı münasibətləri, “Bir kəmər, bir yol” təşəbbüsü və xalqlarımız arasında dostluq əlaqələri ilə bağlı geniş müzakirələr apardıq. Zati-alinizlə görüş məndə dərin və unudulmaz təəssüratlar yaratdı.

Cənab Prezident, ali diqqətinizə çatdırmaq istərdim ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi prezidentlik səlahiyyətlərinə yenicə başladığım Çin İctimai Diplomatiya Assosiasiyası da daxil olmaqla bir çox qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq əlaqələri saxlayır. Əminəm ki, xalqlarımız arasında ünsiyyəti və mədəni əlaqələri inkişaf etdirməklə ölkələrimiz qarşılıqlı anlaşma və etimadı daha da möhkəmləndirəcək. Sizi əmin edirəm ki, mən Çin İctimai Diplomatiya Assosiasiyasının prezidenti kimi xalqlarımız arasında dostluğun təşviqi və ikitərəfli əlaqələrin inkişafı istiqamətində səylərimi əsirgəməyəcəm.

Zati-aliləri, mən səmimi-qəlbdən inanıram ki, Azərbaycan xalqı Sizin rəhbərliyinizlə daha da xoşbəxt və firavan yaşayacaq. Çin-Azərbaycan dostluğunun əbədi olmasını arzulayıram.

*Dərin hörmətlə,*

***Vu HAYLONQ,***
***Çin İctimai Diplomatiya Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə təbriklərimi qəbul edin.

Sizin yüksək peşəkarlığınız, vətəndaş məsuliyyəti hissiniz və öz işinizə sədaqətiniz Azərbaycan Respublikasına inamla rəhbərlik etməyinizə imkan verir. Doğma diyara səmimi sevginiz və əməksevərliyiniz Sizə cəmiyyətdə hörmət və haqlı nüfuz qazandırıb. İnanıram ki, bu keyfiyyətləriniz sayəsində Siz öz vəzifənizdə mütləq daha böyük uğurlar əldə edəcəksiniz.

Bu əlamətdar gündə respublikanız, bütövlükdə vətəniniz naminə mürəkkəb və çoxşaxəli fəaliyyətinizdə, yeni hədəflərə, nailiyyətlərə, qələbələrə gedən yolda Sizə səmimi-qəlbdən uğurlar, nəzərdə tutduğunuz bütün planların həyata keçməsini arzu edirəm.

Sizə və ailənizə xoşbəxtlik və əmin-amanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Əlişir USMANOV,***
***Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik və uzun ömür arzulayır, ali dövləti vəzifənizin həyata keçirilməsində uğurlar diləyirəm.

Siz Prezident seçiləndən indiyədək ölkənizdə sabitliyin və rifahın qorunub saxlanılmasına müvəffəq olmusunuz. Azərbaycan xalqının Sizə və hökumətinizə böyük dəstəyi və etimadı bunu bir daha təsdiq edir. Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycanda firavanlıq, inkişaf və demokratik idarəçiliyin yeni mərhələsi də rəğbətlə qarşılanacaqdır.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2020-ci ilin martında keçiriləcək VIII Qlobal Bakı Forumunda zati-alinizlə görüşməyi səbirsizliklə gözləyirəm.

Hörmətli Prezident və əziz dostum, bu xoş fürsətdən istifadə edib Sizə Yeni il münasibətilə xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Dora BAKOYANNİS,***
***Yunanıstan parlamentinin “Yeni demokratiya” partiyasından olan üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İcazə verin, ad gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim. Böyük ölkənizin bəxti gətirib ki, əsası Sizin atanız, haqlı olaraq hamının hörmətini və ehtiramını qazanmış müdrik siyasi xadim Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş quruculuq və yaradıcılıq ənənələrini şərəflə davam etdirən belə bir lideri var. Bu ənənələrdən biri də ölkələrimizin və xalqlarımızın möhkəm dostluğudur. Bu dostluğun inkişaf etdirilməsi və möhkəmləndirilməsi bizim daha yaxşı, daha güclü olmağımıza kömək edir.

Sizə və ailənizə cansağlığı və firavanlıq arzulayıram. Ən xoş diləklərimi qəbul edin.

*Dərin hörmətlə,*

***Tedo CAPARİDZE,***
***Gürcüstanın ABŞ-da və Kanadada sabiq səfiri***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli İlham Heydər oğlu.

İcazə verin, doğum gününüz münasibətilə Sizi təbrik edim, Azərbaycanın rifahı naminə fəaliyyətinizdə böyük uğurlar və qələbələr arzulayım.

Sizin ailənizə də böyük ehtiramla bol sevinc, cansağlığı, xoşbəxtlik arzu etmək istəyirəm.

Sizin Prezidentliyiniz dövründə Gürcüstanın Azərbaycandakı səfiri vəzifəsində işləmək mənim üçün böyük şərəf idi. Dövlətlərimiz arasında yaranmış və indi də inkişaf etməkdə olan səmərəli əməkdaşlığı qürur hissi ilə xatırlayıram.

İcazənizlə vurğulayım ki, məhz Sizin rəhbərliyinizlə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı bütün sahələrdə yeni, pozitiv məcrada inkişaf edib və bu tərəfdaşlığın xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcəyinə əminəm.

Sizi bir daha təbrik edir və ən xoş arzularımı çatdırıram.

*Dərin hörmətlə,*

***Zurab QUMBERİDZE,***
***Gürcüstanın Azərbaycandakı sabiq səfiri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

Azərbaycan ilə Gürcüstan arasında bütün sahələri əhatə edən strateji tərəfdaşlıq Ulu Öndərimizdən gələn siyasi-iqtisadi və mədəni əlaqələrimizin davamı kimi, Sizin yürütdüyünüz qardaşlıq və dostluq, yaxın qonşuluq siyasəti sayəsində soydaşlarımızın bugünkü həyatında mühüm dəyişikliklərə səbəb olmuşdur. Əminliklə deyə bilərəm ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə qazandığı uğurlar sayəsində Qafqazın ən nüfuzlu lider dövlətinə çevrilib. İki qonşu dövlət arasında reallaşdırılmış böyük layihələr, geriyə dönüşü olmayan razılaşmalar bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafeyi naminə Sizin qətiyyətinizə söykənərək, dostluq münasibətlərinin durmadan möhkəmlənməsinin etibarlı əsası olacaqdır.

Hörmətli cənab Prezident, Sizi Gürcüstanda yaşayan soydaşlarımız adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir və ən xoş arzularımızı çatdırıram. Həmçinin qarşıdan gələn 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə də Sizə və ailənizə möhkəm cansağlığı, bütün niyyət və istəklərinizin çin olmasını arzulayıram. İnanırıq ki, yaxın zamanda Siz Azərbaycanımızın ərazi bütövlüyünü bərqərar edəcək, xalqımıza əbədi sülh, əmin-amanlıq və daha yüksək firavanlıq gətirəcəksiniz.

*Hörmətlə,*

***Azər SÜLEYMANOV,***
***Gürcüstan parlamentinin deputatı***

# Məhərrəm ƏLİYEV: “Ordu quruculuğu məsələləri Prezident, Ali Baş Komandan İlham Əliyevin ciddi nəzarətindədir”



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Administrasiyanın Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyev son illərdə ordu quruculuğu, ölkəmizin müdafiə qabiliyyətinin, şəxsi heyətinin peşəkarlığının və mənəvi-psixoloji hazırlığının gücləndirilməsi istiqamətində görülən işlər barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

*- Əvvəlcə, Sizi yeni vəzifəyə təyin olunmağınız münasibətilə təbrik edirik. Zəhmət olmasa, əmək fəaliyyətiniz barədə qısaca məlumat verərdiniz.*

- Xoş sözlərə görə Sizə təşəkkür edirəm. Xidməti fəaliyyətim haqqında geniş danışmağa ehtiyac görmürəm. Lakin oxucuların marağını nəzərə alaraq, məlumat vermək istərdim ki, 1973-cü ildən 2007-ci ilədək polis orqanlarında xidmət etmişəm, Bakı şəhərinin Nizami, Sabunçu, Xətai, Səbail rayon polis idarələrində rəhbər vəzifələrdə çalışmışam.

1993-cü ildən 2007-ci ilədək Daxili İşlər Nazirliyinin Bakı Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsində fəaliyyət göstərmişəm. 2007-2011-ci illərdə Azərbaycan Respublikasının Tacikistan Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsində çalışmışam. 2012-ci ildə Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin müdafiə məsələləri şöbəsinin müdiri, 2017-ci ildə Azərbaycan Respublikasının Ədliyyə nazirinin müavini vəzifələrinə təyin edilmişəm.

Cari il noyabrın 29-da Azərbaycan Respublikasının Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşam və mənə “general-polkovnik” ali hərbi rütbəsi verilib.

Onu da qeyd etmək istərdim ki, bu illər ərzində hansı sahədə çalışmağımdan asılı olmayaraq, dövlətçiliyimizin möhkəmlənməsi üçün bilik və bacarığımı əsirgəməmiş, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında xidmət etməkdən hər zaman qürur duymuşam.

*- Bu vəzifəyə təyin edilərkən Silahlı Qüvvələrin Ali Baş Komandanı qarşınızda hansı tapşırıqları qoyub?*

- Öncə qeyd etdiyim kimi, Ali Baş Komandanın mənə göstərdiyi etimadı doğrultmağı özüm üçün ən vacib vəzifə hesab edirəm.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi qulluqçularla son görüşlərinin birində qeyd etdiyi kimi, “Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bizim ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı artır... Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək”. Ali Baş Komandanın bu sözləri Silahlı Qüvvələrimizin inkişafının və möhkəmlənməsinin əsas istiqamətlərini və hədəflərini tam ifadə edib.

Bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, qüdrətli ordu quruculuğunun həyata keçirilməsi, müdafiə sənayesinin genişləndirilməsi, daha effektiv silahların və döyüş texnikalarının istehsal edilməsi, Azərbaycan Ordusu ilə digər hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yüksəldilməsi kimi tapşırıqlar durur.

Son illər ərzində Silahlı Qüvvələrdə bu istiqamətdə çox ciddi və əhəmiyyətli işlər görülüb, müdafiə qabiliyyətimizin artırılması, şəxsi heyətin peşəkarlığının və mənəvi-psixoloji hazırlığın gücləndirilməsi, yeni hərbi hissə komplekslərinin istifadəyə verilməsi, hərbi qulluqçuların mənzil təminatının yaxşılaşdırılması sahəsində böyük nailiyyətlər əldə olunub.

2016-cı ilin aprel döyüşləri zamanı düşmənə sarsıdıcı zərbələrin endirilməsi nəticəsində Ermənistan tərəfinin atəşkəs rejiminin bərpası üçün israrlı müraciətlər etmək məcburiyyətində qalması, 2018-ci ildə Naxçıvan Muxtar Respublikası istiqamətində əldə olunmuş Günnüt zəfəri, həmçinin Azərbaycan sərhədçilərinin 2019-cu ildə Qazax rayonunda Babakar istiqamətində əldə etdikləri ciddi uğurlar Silahlı Qüvvələrimizin real qüdrətinin mühüm nümayişi olubdur.

Hesab edirəm ki, bundan sonra da bu işlər daha yüksək müstəvidə davam etdiriləcək, Ali Baş Komandanımızın hər bir əmrini icra etmək üçün Silahlı Qüvvələrimizin daimi döyüş hazırlığı tam təmin olunacaqdır.

*- Xidməti fəaliyyətinizə başladıqdan sonra hansı qurumlarla görüş keçirmisiniz?*

- Dekabrın 13-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin illik hesabat müşavirəsində iştirak etmişəm. Hesabat müşavirəsində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının, Çevik Hərəkət Qüvvələrinin, Sahil Mühafizəsinin və Sərhəd Nəzarətini komandanlarının məruzələri dinlənilib, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev geniş məzmunlu hesabat məruzəsi ilə çıxış edib.

Müşavirədə dövlət sərhədlərinin etibarlı mühafizəsi, dəniz sərhədlərinin təhlükəsizliyinin və sərhəd sularında sərhədboyu rejimin təmin edilməsi, dövlət sərhədindən buraxılış məntəqələrində effektiv sərhəd nəzarətinin həyata keçirilməsi, hərbi hissə və birləşmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində görülmüş işlər təhlil olunub, xidməti-döyüş fəaliyyətinin daha da yüksəldilməsi tədbirləri geniş müzakirə edilib.

Qeyd etmək istərdim ki, son illər ərzində Azərbaycan Ordusu ilə bərabər Dövlət Sərhəd Xidmətində ciddi inkişaf prosesləri həyata keçirilib, struktur islahatları aparılıb, peşəkar sərhədçi kadrların hazırlanması, dövlət sərhədinin əməliyyat və texniki yolla mühafizə imkanlarının genişləndirilməsi, dənizdə sərhəd təhlükəsizliyinin təminatı və karbohidrogen ehtiyatlarının hasilatı və daşınması infrastrukturun mühafizəsi, çevik qüvvələrin döyüş qabiliyyətinin yüksəldilməsi, ən müasir silah və döyüş texnikası ilə təmin edilməsi, sərhəd keçid məntəqələrində sərhədkeçmə prosedurlarının sürətləndirilməsi istiqamətlərində önəmli nailiyyətlər əldə olunub.

Eyni zamanda hesab edirəm ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq, Ermənistan Respublikası ilə dövlət sərhəd xəttinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsinin müdafiə və mühafizə altına götürülməsi hesabat ili ərzində Azərbaycan sərhədçilərinin xidməti-döyüş fəaliyyəti üçün ən vacib hadisə olub. Azərbaycan sərhədçiləri Ali Baş Komandanın bu tapşırığını böyük ruh yüksəkliyi ilə icra etmiş və təmas xəttində ciddi uğurlar əldə ediblər.

*- Dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının inzibati ərazilərindən keçən hissəsinin mühafizəsinin Müdafiə Nazirliyindən Dövlət Sərhəd Xidmətinə təhvil verilməsi məsələsinə münasibətinizi bilmək maraqlı olardı.*

- Qeyd etdiyiniz istiqamətdə dövlət sərhədinin keçdiyi təmas xəttində xidməti-döyüş fəaliyyətinin həyata keçirilməsi vəzifəsinin Dövlət Sərhəd Xidmətinə həvalə edilməsi barədə qərar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən qəbul olunub. Ali Baş Komandanın qərarı isə müzakirə edilmir, mütləq qaydada icra olunur. Hesab edirəm ki, bu qərarın qəbul edilməsi ilə Azərbaycan sərhədlərinin tam mühafizə altına götürülməsinin, yəni, işğaldan azad edəcəyimiz Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan rayonlarının ərazisindən keçən Azərbaycan-Ermənistan dövlət sərhəd xəttində, həmçinin Füzuli, Cəbrayıl və Zəngilan rayonları ərazisindən keçən Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsində üçrəngli dövlət bayrağımızın ucaldılması prosesinə başlanılıb. Həmçinin bu qərar Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi hissə və bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsinə, yeni ehtiyat qüvvələrin yaradılmasına, şəxsi heyətin döyüş hazırlığının gücləndirilməsinə yönəlib.

Bu istiqamətdə görülən bütün işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ciddi nəzarətindədir. Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının tərkibində “Qazax” əlahiddə sərhəd diviziyasının yaradılması isə bu sahəyə verilən önəmin daha bir göstəricisidir.

Hazırda Qazax və Ağstafa rayonları ərazisində dövlət sərhədinin müdafiəsi və mühafizəsinin təşkili, müasir sərhəd mühafizə infrastrukturunun formalaşdırılması istiqamətində mühüm işlər görülür. Hesabat müşavirəsində bu işlər ətraflı müzakirə olunub, həmçinin ictimaiyyətə bu barədə geniş məlumat verilib.

Təkcə onu qeyd etmək kifayətdir ki, çox qısa müddət ərzində bütün sərhəd döyüş məntəqələri tam yenidən inşa olunub, 3 yeni hərbi hissə kompleksi xidməti istifadəyə verilib, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üçün yeni təhlükəsiz sədlər və yollar salınıb, şəxsi heyətin xidməti və yaşayış şəraitinin yaxşılaşdırılması üzrə ciddi işlər görülüb.

Düşmən təxribatlarının qarşısının alınması məqsədilə sərhəd döyüş məntəqələrinin döyüş mövqelərinin 1,5-1,7 kilometr məsafədə irəli çəkilməsinə, nəticədə Gürcüstandan Ermənistana gedən qaz xəttinin, həmçinin qaz kompressor stansiyasının tam nəzarətdə saxlanılmasına nail olunub.

Həmçinin qeyd etməliyəm ki, “Qazax” əlahiddə sərhəd diviziyasında həyata keçirilən təmir-tikinti işlərinə baxış keçirmək, şəxsi heyət üçün yaradılan şərait və xidmətin xüsusiyyətləri ilə tanış olmaq məqsədilə Hərbi məsələlər şöbəsinin bir qrup əməkdaşları dəfələrlə həmin əraziyə ezam olunublar. Bütün bu istiqamətdə görülən müsbət işlər Silahlı Qüvvələrin Ali Baş Komandanına məruzə olunub.

*- Sonda bir hərbi qulluqçu kimi Silahlı Qüvvələrə nə arzu edərdiniz?*

- Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin şəxsin heyətini, onların ailə üzvlərini və yaxınlarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə təbrik edir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında böyük qələbə sevincini yaşamalarını arzulayıram.

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Vergi Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590; № 5, maddələr 796, 801, 804, 812, 814; № 8, maddələr 1364, 1373, 1378) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.4-cü maddəyə "haqqı" sözündən sonra ", icbari tibbi sığorta haqqı" sözləri əlavə edilsin;

**1.2.** 2-ci maddə üzrə:

**1.2.1.** 2.4-1-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Sahibkarlıq və investisiya fəaliyyətini təşviq edən vergi azadolmaları və güzəştləri fərdi xarakter daşımamalıdır.";

**1.2.2.** 2.8-ci maddəyə "layihələri" sözündən sonra "və layihələrdə nəzərdə tutulan vergi azadolmalarının və güzəştlərinin qiymətləndirilməsi" sözləri əlavə edilsin;

**1.3.** 3.6-cı maddənin üçüncü abzası ləğv edilsin;

**1.4.** 11-ci maddəyə "şəklində" sözündən sonra ", bu Məcəllədə başqa hal nəzərdə tutulmamışdırsa," sözləri əlavə edilsin;

**1.5.** 13.2-ci maddə üzrə:

**1.5.1.** 13.2.10-cu maddə aşağıdakı redaksiyada verilsin:

"13.2.10. Malların təqdim edilməsi - mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, habelə bunlarla məhdudlaşdırılmayan, malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əməkhaqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin notarial qaydada təsdiq edilməklə, habelə notarial qaydada təsdiq edilmədən bağlanmış müqavilələr üzrə, həmçinin mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı ilə özgəninkiləşdirilməsi. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə alqı-satqı müqavilələrinin sonradan eyni şəxslə notarial qaydada təsdiq edilməsi bu maddənin məqsədləri üçün vergi tutulan təqdimetmə hesab edilmir.";

**1.5.2.** 13.2.12-ci maddənin birinci abzasına aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binalardan dövlətə yaşayış və qeyri-yaşayış sahələri ayrıldıqda, dövlətə ayrılan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə dövriyyələr vergiyə cəlb olunan gəlir hesab edilmir.";

**1.5.3.** 13.2.49-2-ci maddədə "vergi açıqlaması" sözləri "açıqlama" sözü ilə əvəz edilsin və həmin maddəyə "öhdəliyinin" sözündən sonra ", habelə məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə öhdəliyin" sözləri əlavə edilsin;

**1.5.4.** 13.2.50-ci maddə ləğv edilsin;

**1.5.5.** 13.2.62-ci maddədən "və ya elektron vergi hesab-fakturası" sözləri çıxarılsın;

**1.5.6.** 13.2.63-cü maddədən "və ya elektron vergi hesab-faktura" sözləri çıxarılsın;

**1.5.7.** 13.2.80-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 13.2.81 - 13.2.83-cü maddələr əlavə edilsin:

"13.2.81. əmtəəsiz əməliyyat - vergi nəzarəti tədbiri zamanı aşkarlanan, başqa əməliyyatı pərdələmək məqsədilə aparılan və faktiki olaraq mallar, işlər və xidmətlər təqdim edilmədən mənfəət əldə etmək məqsədilə rəsmiləşdirilən əməliyyatlar;

13.2.82. riskli vergi ödəyicisi - müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi meyarlara cavab verən, o cümlədən əmtəəsiz və (və ya) riskli əməliyyatlar aparan şəxsdir. Vergi ödəyicisinin riskli vergi ödəyicisi olması, habelə riskli vergi ödəyiciləri siyahısından çıxarılması barədə qərar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən qəbul edilir;

13.2.83. transmilli şirkətlər qrupu - müxtəlif ölkələrdə rezident olan iki və ya daha çox müəssisənin daxil olduğu və ya bir ölkədə rezident olan və başqa ölkədə daimi nümayəndəlik vasitəsilə fəaliyyət göstərən müəssisənin daxil olduğu şirkətlər qrupu. Transmilli şirkətlər qrupuna daxil olan müəssisə dedikdə həmin müəssisə, həmin müəssisənin törəmə və asılı müəssisələri, habelə filial və nümayəndəlikləri nəzərdə tutulur.";

**1.6.** aşağıdakı məzmunda 15.1.15-3-cü maddə əlavə edilsin:

"15.1.15-3. hesablanmış, yenidən hesablanmış, ödənilmiş və artıq ödənilmiş vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələrlə bağlı vergi orqanlarından elektron və (və ya) kağız daşıyıcılarda üzləşmə aktı tələb etmək;";

**1.7.** 16.1.7-1-ci, 24.0.6-1-ci, 50.1.10-cu, 58.12-ci, 221.8.5-ci (hər iki halda), 221.8.6-cı (hər iki halda), 221.8.7-ci (hər iki halda) və 221.8.10-cu maddələrdə ismin müvafiq hallarında "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" sözləri ismin müvafiq hallarında "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" sözləri ilə əvəz edilsin;

**1.8.** 16-cı maddə üzrə:

**1.8.1.** 16.1-ci maddə üzrə:

**1.8.1.1.** aşağıdakı məzmunda 16.1.7-2-ci maddə əlavə edilsin:

"16.1.7-2. vergi orqanında uçotda olan sifarişçi tərəfindən bu Məcəllənin 220.10-cu maddəsinə uyğun olaraq fərdi qaydada fəaliyyət göstərən şəxslərin həmin dövr üzrə vergi öhdəliyinin yerinə yetirilməsini təsdiq edən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" təqdim etməklə işlərə cəlb edilməsini təmin etmək;";

**1.8.1.2.** 16.1.11-6-cı maddə (16.1.11-6.1 - 16.1.11-6.3-cü maddələr istisna olmaqla) aşağıdakı redaksiyada verilsin:

"16.1.11-6. aşağıdakı şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən vergi ödəyicisi kimi uçotda olan şəxslərə mal, iş və xidmətlərlə bağlı bu Məcəllədə nəzərdə tutulmuş qaydada elektron qaimə-faktura göndərmək:";

**1.8.1.3.** 16.1.11-7-ci maddədən "və ya elektron vergi hesab-faktura" sözləri çıxarılsın;

**1.8.1.4.** aşağıdakı məzmunda 16.1.11-10-cu maddə əlavə edilsin:

"16.1.11-10. vergi orqanında uçotda olmayan fiziki şəxslərdən alınmış mallara görə alış aktını tərtib etmək;";

**1.8.2.** aşağıdakı məzmunda 16.8-ci və 16.9-cu maddələr əlavə edilsin:

"16.8. Bina tikintisi fəaliyyəti ilə məşğul olan aşağıdakı şəxslər yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumat formasını hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edir:

16.8.1. 2020-ci il 1 yanvar tarixindən sonra tikinti-quraşdırma işlərinə başlamış;

16.8.2. sadələşdirilmiş verginin ödəyicisi olmayan, 2020-ci il 1 yanvar tarixinədək tikinti-quraşdırma işlərinə başlamış, lakin tikintisi başa çatmayan, habelə bina üzrə təqdim edilməmiş yaşayış və qeyri-yaşayış sahələri olan şəxslər.

16.9. Transmilli şirkətlər qrupunun maliyyə ilində məcmu gəliri 750 milyon avronun manat ekvivalentindən çox olduqda, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər dövlətlərin səlahiyyətli orqanları ilə avtomatlaşdırılmış məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş müddətdə, formada və qaydada hesabatı vergi orqanına təqdim edir. Bu maddə ilə müəyyən edilmiş hesabatın verilməsini şərtləndirən məbləğ həddi transmilli şirkətlər qrupunun maliyyə hesabatları əsasında müəyyən edilir.";

**1.9.** aşağıdakı məzmunda 22-1.4-cü maddə əlavə edilsin:

"22-1.4. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulmasına görə vergi orqanları tərəfindən tətbiq edilən və həmin Qanunun 15-21-ci maddəsində nəzərdə tutulan fonda daxil olan maliyyə sanksiyası məbləğinin 50 faizi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) hesablarına köçürülür. Bu vəsaitlərin bölgüsü və onlardan istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.";

**1.10.** aşağıdakı məzmunda 24.0.4-1-ci maddə əlavə edilsin:

"24.0.4-1. vergi ödəyicisinin müraciəti əsasında hesablanmış, yenidən hesablanmış, ödənilmiş və artıq ödənilmiş vergilərə, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarına, faizlərə, maliyyə sanksiyalarına və inzibati cərimələrə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi formada üzləşmə aktını "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə təqdim etməyə;";

**1.11.** 30.2.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 30.2.7 - 30.2.9-cu maddələr əlavə edilsin:

"30.2.7. vergi ödəyicisinin ƏDV-nin məqsədləri üçün qeydiyyatda olub-olmaması haqqında;

30.2.8. bu Məcəllənin 16.3-cü maddəsinə uyğun olaraq vergi ödəyicisinin sahibkarlıq fəaliyyətinin və ya digər vergi tutulan əməliyyatlarının dayandırılıb-dayandırılmaması haqqında;

30.2.9. vergi ödəyicisinin riskli vergi ödəyicisi olub-olmaması haqqında.";

**1.12.** 32.4-cü maddəyə "yoxlamaqla," sözündən sonra "əlaqəli məlumatları təhlil etməklə," sözləri və "keçirməklə" sözündən sonra ", yaxud həmin obyektlərin fəaliyyəti barədə məlumat toplamaqla" sözləri əlavə edilsin;

**1.13.** 33-cü maddə üzrə:

**1.13.1.** 33.7-ci maddə (33.7.1 - 33.7.9-cu maddələr istisna olmaqla) aşağıdakı redaksiyada verilsin:

"33.7. Bu Məcəllənin 33.7.1-ci maddəsində göstərilən vergi ödəyicilərinin mərkəzləşdirilmiş qaydada uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.";

**1.13.2.** 33.7.1 - 33.7.9-cu maddələr aşağıdakı redaksiyada verilsin:

"33.7.1. Aşağıdakı vergi ödəyiciləri mərkəzləşdirilmiş qaydada uçota alınırlar:

33.7.1.1. təbii inhisar subyektləri;

33.7.1.2. xüsusi vergi rejimli müəssisələr;

33.7.1.3. aşağıdakı tələblərdən birinə cavab verən vergi ödəyiciləri:

33.7.1.3.1. işçilərin orta siyahı sayı 251 və ondan yuxarı olan;

33.7.1.3.2. balansında olan əsas vəsaitlərin orta illik qalıq dəyəri 5.000.000 manatdan yuxarı olan.

33.7.2. Bu Məcəllənin 33.7.1-ci maddəsində göstərilən vergi ödəyicilərinə eyniləşdirmə nömrələrinin verilməsi bu Məcəlləyə uyğun olaraq həyata keçirilir.

33.7.3. Olduqları yer üzrə vergi uçotuna alınmış şəxslər sonradan bu Məcəllənin 33.7.1.3-cü maddəsində göstərilən vergi ödəyicilərinə və ya xüsusi vergi rejimli müəssisələrə aid edildikdə, əvvəlki eyniləşdirmə nömrələri ilə mərkəzləşdirilmiş qaydada uçota alınırlar.

33.7.4. Mərkəzləşdirilmiş qaydada uçota alınmış bu Məcəllənin 33.7.1.3-cü maddəsində göstərilən vergi ödəyicilərinin və xüsusi vergi rejimli müəssisələrin filiallarının, nümayəndəliklərinin və ya digər təsərrüfat subyektlərinin (obyektlərinin) vergi uçotu bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

33.7.5. Olduqları yer üzrə vergi uçotuna alınmış hüquqi şəxslər xüsusi vergi rejimi üzrə fəaliyyətə başladığı gündən sonra 15 gün müddətində mərkəzləşdirilmiş qaydada uçota alınmaq üçün müvafiq vergi orqanına müraciət etməyə borcludurlar.

33.7.6. Xüsusi vergi rejimində fəaliyyət göstərən müəssisələrin mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması, xüsusi vergi rejimində fəaliyyətə başlaması və ya həmin fəaliyyəti dayandırması onların mərkəzləşdirilmiş qaydada uçotunu aparan müvafiq vergi orqanına ərizə ilə müraciət etdiyi gündən 15 gün müddətində həyata keçirilməlidir.

33.7.7. Bu Məcəllənin 33.7.1.3-cü maddəsində göstərilən vergi ödəyicilərinə aid edilən müəssisələrin olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınması və ya mərkəzləşdirilmiş uçotdan çıxarılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən hər il may ayının 15-dək qərar qəbul edilir.

33.7.8. Bu Məcəllənin 33.7.1.3-cü maddəsində göstərilən vergi ödəyicilərinə aid edilən müəssisələrin mərkəzləşdirilmiş qaydada uçota alınması onların mərkəzləşdirilmiş qaydada uçota alınması barədə qərar qəbul edildiyi vergi ilindən sonrakı ilin yanvar ayında həyata keçirilir.

33.7.9. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hər il iyun ayının 15-dək olduqları yer üzrə uçotdan çıxarılaraq mərkəzləşdirilmiş qaydada yenidən uçota alınmış və ya mərkəzləşdirilmiş uçotdan çıxarılmış bu Məcəllənin 33.7.1.3-cü maddəsində göstərilən vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələr barədə məlumatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmış forma üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.";

**1.14.** 36.3-cü maddədə "Səyyar" sözü "Bu Məcəllədə başqa hal müəyyən edilməmişdirsə, səyyar" sözləri ilə əvəz edilsin;

**1.15.** 37.3-cü maddədə "edə bilər" sözləri "edir" sözü ilə əvəz edilsin;

**1.16.** aşağıdakı məzmunda 38.3.8-1-ci maddə əlavə edilsin:

"38.3.8-1. vergi ödəyicisi riskli vergi ödəyicisi olduğu halda;";

**1.17.** 41-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 41. Baxış protokolu**

41.1. Vergi nəzarəti tədbirləri ilə əlaqədar vergi ödəyicisinin ərazilərinə, binalarına, nəqliyyat vasitələrinə, habelə sənədlərinə və əşyalarına baxış keçirilərkən aşkar olunmuş pozuntular protokolla rəsmiləşdirilir və bu zaman foto və (və ya) video çəkilişdən istifadə olunur.

41.2. Bu Məcəllənin 41.1-ci maddəsi ilə müəyyən edilmiş foto və (və ya) video çəkilişin nəticələri vergi ödəyicisi tərəfindən vergi qanunvericiliyinin pozulması hallarının sübut edilməsi məqsədilə məhkəmə və ya inzibati icraat çərçivəsində istifadə edilir. Foto və (və ya) video çəkilişin nəticələri üçüncü şəxslərə yalnız vergi ödəyicisinin yazılı razılığı əsasında açıqlana bilər.";

**1.18.** 50-ci maddə üzrə:

**1.18.1.** 50.1-ci maddə üzrə:

**1.18.1.1.** 50.1.13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"50.1.13. malların bu Məcəllənin 58.8-ci maddəsində göstərilən sənədlər əsasında alınmasına, malların elektron qaimə-faktura əsasında təqdim edilməsinə, habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilməsinə nəzarət edilməsi.";

**1.18.1.2.** 50.1.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.1.14-cü maddə əlavə edilsin:

"50.1.14. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılması hallarına nəzarət edilməsi və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina hallarının müəyyən edilməsi.";

**1.18.2.** 50.2.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.2.5-ci maddə əlavə edilsin:

"50.2.5. vergi ödəyicisi riskli vergi ödəyicisi olduğu halda.";

**1.18.3.** 50.8.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 50.8.10 - 50.8.16-cı maddələr əlavə edilsin:

"50.8.10. ödənilmiş məbləğ;

50.8.11. müştəriyə qaytarılan məbləğ (malın dəyərindən artıq ödənilən hissə üzrə);

50.8.12. nisyə satış zamanı ödəniləcək məbləğ (qalıq borc);

50.8.13. ödənişin forması və üsulu (nağd və ya nağdsız, avans (beh), nisyə, bonus, hədiyyə kartı və digər bu kimi ödəmələr);

50.8.14. çekin növü (satış, geri qaytarma və ya ləğvetmə);

50.8.15. nəzarət mexanizmi qurğusunun qeydiyyat nömrəsi;

50.8.16. geri qaytarma çekində satış çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar.";

**1.19.** 53.6-cı maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Vergi ödəyicisi tərəfindən eyni əməliyyat üzrə bu Məcəllənin 58.7-ci maddəsində nəzərdə tutulan hesablaşma qaydalarının pozulması hallarına eyni vaxtda yol verildikdə, həmin qanun pozuntularına bir pozuntu halı kimi baxılır və maliyyə sanksiyası bir dəfə tətbiq edilir.";

**1.20.** 56.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"56.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinin (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) pozulması anından 3 il (xaricdə əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu hallarda həmin gəlirlər üzrə 5 il, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq təyin edilən vergi yoxlamalarında isə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq olaraq cinayət məsuliyyətinə cəlb etmə müddəti) keçmişdirsə, şəxs həmin hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz. Bu maddə ilə müəyyən edilən müddət bu Məcəllənin 49.1-ci maddəsinə uyğun olaraq məsuliyyətə cəlb edilməsi barədə qərarın qəbul edilmə tarixindən asılı olmayaraq səyyar vergi yoxlamasının keçirilməsi barədə vergi orqanının qərar qəbul etdiyi tarixdən əvvəlki müvafiq dövrü əhatə edir.";

**1.21.** aşağıdakı məzmunda 57.1-2-ci maddə əlavə edilsin:

"57.1-2. Bu Məcəllənin 16.9-cu maddəsində göstərilən hesabatın müəyyən edilmiş müddətdə, formada və qaydada təqdim edilməməsinə görə vergi ödəyicisinə 500 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.";

**1.22.** 58-ci maddə üzrə:

**1.22.1.** 58.5-ci maddə ləğv edilsin;

**1.22.2.** 58.7-ci maddədə birinci halda "nağd" sözü "vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərlə (əhali ilə)" sözləri ilə əvəz edilsin və həmin maddəyə "aparılmasına," sözündən sonra "POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmaması və POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə və ya" sözləri əlavə edilsin;

**1.22.3.** 58.8-ci maddə üzrə:

**1.22.3.1.** 58.8-ci maddə (58.8.1 - 58.8.3-cü maddələr istisna olmaqla) aşağıdakı redaksiyada verilsin:

"58.8. Səyyar vergi yoxlaması və operativ vergi nəzarəti zamanı vergi ödəyicisinə məxsus pul vəsaitlərinin uçotdan yayındırılmasına görə, bu Məcəllədə nəzərdə tutulmuş qaydada gəlirlərin və xərclərin uçotu aparılmadıqda, habelə bu Məcəllənin 71-1.1-ci maddəsinin tələbləri nəzərə alınmaqla vergi ödəyicisinin sahibliyində olan mallara dair elektron qaimə-faktura, əvvəlcədən sifariş edilmədən təqdim edilən mallar üzrə malların təhvil-qəbul aktı, idxal gömrük bəyannaməsi və bu bəyannamə ilə bağlı hesab-faktura (invoys), alış aktları və ya bu Məcəllənin 71-2-ci maddəsində göstərilən elektron alış aktları, elektron qaimə-faktura təqdim edilənədək komissiyaya, emala və saxlamaya (məsuliyyətli mühafizəyə) götürülmüş mallara görə təhvil-qəbul aktı və qaytarılmış mallara dair malların qaytarılması aktı olmadıqda:";

**1.22.3.2.** 58.8.2-ci maddədə "sənədlərdən ən azı biri" sözləri "sənədlər" sözü ilə əvəz edilsin, həmin maddədən "alınmış" sözü çıxarılsın, həmin maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddənin müddəaları istehsal fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən istehsal edilən hazır məhsullara münasibətdə tətbiq edilmir;";

**1.22.4.** 58.10-cu maddədə "görə işəgötürənə" sözlərindən sonra ", habelə bu Məcəllənin 220.10-cu maddəsinə uyğun olaraq aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olan şəxslərin, foto, audio-video sahəsində məşğul olan şəxslərin və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslərin (ofisiantın) fəaliyyətə başlayanadək, "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" əldə edilmədən işlərin yerinə yetirilməsinə cəlb edilməsinə görə vergi orqanında uçotda olan sifarişçiyə" sözləri əlavə edilsin;

**1.22.5.** 58.13-cü maddədə "və ya elektron vergi hesab-fakturası təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası verilmədən təqdim edilməsinə" sözləri "təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsinə, habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsinə" sözləri ilə əvəz edilsin;

**1.23.** 65.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu zaman kredit təşkilatları və ya bank əməliyyatlarını aparan şəxslər tərəfindən bank hesablarında dondurulmuş vəsaitdən artıq olan pul vəsaitinə dair hesabdan məxaric edilməsini nəzərdə tutan vergi ödəyicisinin ödəmə tapşırıqları icra edilir.";

**1.24.** 67-ci maddə üzrə:

**1.24.1.** 67.13-cü maddə üzrə:

**1.24.1.1.** birinci abzasda "qiymətləndirildikdə, müvafiq əməliyyatlar elektron vergi hesab-fakturaları ilə rəsmiləşdirilməlidir" sözləri "qiymətləndirilir" sözü ilə əvəz edilsin;

**1.24.1.2.** ikinci abzasda "elektron vergi hesab-fakturasında" sözləri "elektron qaimə-fakturada" sözləri ilə əvəz edilsin;

**1.24.2.** aşağıdakı məzmunda 67.16-cı maddə əlavə edilsin:

"67.16. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdə keçirilən səyyar vergi yoxlaması zamanı yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi aşkar edildikdə, vergitutma məqsədləri üçün aşağıdakı hallarda yaşayış və qeyri-yaşayış sahələri yoxlamanın əhatə etdiyi sonuncu hesabat dövründə təqdim edilmiş sayılır:

67.16.1. bu Məcəllənin 16.8-ci maddəsində nəzərdə tutulan məlumat səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilmədikdə;

67.16.2. bu Məcəllənin 16.8-ci maddəsində nəzərdə tutulan məlumatı təqdim edən, lakin təqdim edilən məlumatda yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilmədiyi göstərildikdə.";

**1.25.** 71-1-ci maddə üzrə:

**1.25.1.** 71-1.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"71-1.1. Bu Məcəllə ilə müəyyən edilən hallarda malları təqdim edən, işləri görən və xidmətləri göstərən vergi orqanında uçotda olan şəxs elektron qaimə-fakturanı aşağıdakı müddətlərdə təqdim etməlidir:

71-1.1.1. bu Məcəllənin 71-1.5.1-ci, 71-1.5.4-cü, 71-1.5.5-ci, 71-1.5.7-ci və 71-1.5.8-ci maddələrində nəzərdə tutulmuş hallarda - mallar göndərilən (verilən) vaxt;

71-1.1.2. əvvəlcədən sifariş edilməyən malların təqdim edilməsi üzrə - malların təhvil verilməsini təsdiq edən sənədin verildiyi tarixdən 5 gün müddətində;

71-1.1.3. işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə - işlərin görüldüyü və xidmətlərin göstərildiyi tarixdən 5 gün müddətində;

71-1.1.4. bu Məcəllənin 71-1.5.2-ci, 71-1.5.3-cü və 71-1.5.6-cı maddələrində nəzərdə tutulmuş hallarda - malların qaytarıldığı və vergi tutulan dövriyyənin dəqiqləşdirildiyi vaxtdan 3 gün müddətində.";

**1.25.2.** aşağıdakı məzmunda 71-1.3-71-1.5-ci maddələr əlavə edilsin:

"71-1.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanın vahid forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

71-1.4. Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanın vahid forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

71-1.5. Vergi ödəyicisi tərəfindən aparılan əməliyyatlar zamanı əməliyyatın xarakterindən asılı olaraq aşağıdakı növdə elektron qaimə-faktura verilir:

71-1.5.1. malların, işlərin və xidmətlərin təqdim edilməsi barədə;

71-1.5.2. malların qaytarılması barədə;

71-1.5.3. malların qaytarılması istisna olmaqla, bu Məcəllənin 163-cü maddəsinə əsasən;

71-1.5.4. malların vəkalət verən (komitent) tərəfindən agentə (komisyonçuya) verilməsi barədə;

71-1.5.5. agent (komisyonçu) tərəfindən malların alıcısına təqdim edilən;

71-1.5.6. agent (komisyonçu) tərəfindən malların vəkalət verənə (komitentə) qaytarılması barədə;

71-1.5.7. malların emala verilməsi barədə;

71-1.5.8. emal prosesi keçmiş malların qaytarılması barədə;

71-1.5.9. bu Məcəllənin 177.5-ci maddəsinə əsasən.";

**1.26.** aşağıdakı məzmunda 71-2-ci maddə əlavə edilsin:

**"Maddə 71-2. Malların alış aktı**

71-2.1. Bu Məcəllənin 130.1-1-ci maddəsinin müddəaları nəzərə alınmaqla vergi orqanında uçotda olmayan şəxslərdən mallar alındıqda alınmış mallara görə alış aktları və malların alışı tarixindən 5 gün müddətində elektron alış aktı tərtib edilir.

71-2.2. Elektron alış aktının forması, tətbiqi, uçotu və istifadəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.

71-2.3. Vergi ödəyicisi tərəfindən tərtib edilmiş elektron alış aktı çap edilərək vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən imzalandığı halda həmin sənəd malların alışını təsdiq edən sənəd hesab edilir və kağız daşıyıcıda alış aktı tərtib edilmir.";

**1.27.** 72-ci maddə üzrə:

**1.27.1.** 72.5-1-ci maddədə "vergi açıqlaması" sözləri "açıqlama" sözü ilə əvəz edilsin;

**1.27.2.** 72.5-2-ci maddədə "vergi açıqlaması" sözləri "açıqlama" sözü ilə, "büdcəyə" sözü ", məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları" sözləri ilə əvəz edilsin;

**1.28.** aşağıdakı məzmunda 76.1-1-ci maddə əlavə edilsin:

"76.1-1. Bu Məcəllənin 76.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisinin vergi öhdəliklərinin müəyyən edilməsi məqsədilə ƏDV qeydiyyatında olan vergi ödəyicilərinin şəhadətnamə-dublikat əsasında açılmış hesabları üzrə aparılmış əməliyyatlar barədə aylıq məlumatlar banklar tərəfindən elektron qaydada hər ay bitdikdən sonra növbəti ayın 10-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş formada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilir.";

**1.29.** aşağıdakı məzmunda 77.5 - 77.7-ci maddələr əlavə edilsin:

"77.5. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatını quraşdıran vergi ödəyicisi tərəfindən hər bir nəzarət-kassa aparatının quraşdırılmasına çəkilən xərclərin (nəzarət-kassa aparatının dəyəri daxil olmaqla) dəyəri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən həddə nəzarət-kassa aparatı quraşdırıldıqdan sonra yaranan vergi öhdəlikləri ilə əvəzləşdirilir.

77.6. Bu Məcəllənin 77.5-ci maddəsi 2019-cu il yanvarın 1-dək istismar edilən nəzarət-kassa aparatını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı ilə əvəz edən vergi ödəyicilərinə şamil edilir və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən həddən artıq olan məbləğ vergi ödəyicisi tərəfindən ödənilir.

77.7. Aşağıdakı hallarda nəzarət-kassa aparatının quraşdırılmasına çəkilən xərclər bu maddə ilə müəyyənləşdirilmiş qaydada vergi öhdəlikləri ilə əvəzləşdirilmir:

77.7.1. nəzarət-kassa aparatı 2019-cu il 1 yanvar tarixinədək quraşdırıldıqda;

77.7.2. nəzarət-kassa aparatı 2019-cu il 1 yanvar tarixindən sonra quraşdırıldıqda, lakin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən meyarlara cavab vermədikdə;

77.7.3. nəzarət-kassa aparatı 2019-cu il 1 yanvar tarixindən sonra quraşdırıldıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən meyarlara cavab verdikdə, lakin əvvəllər istifadədə olan nəzarət-kassa aparatını əvəzləmədikdə.";

**1.30.** 78.4-cü maddəyə "yerinə yetirilməsi" sözlərindən sonra "əmtəəsiz əməliyyat üzrə faydalanan şəxs istisna olmaqla," sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Bu maddənin məqsədləri üçün faydalanan şəxs əmtəəsiz əməliyyat aparmaqla mənfəət əldə etmək məqsədilə həyata keçirilən fəaliyyət üzrə faktiki olaraq gəlir əldə edən, o cümlədən əmtəəsiz əməliyyat aparmaqla mənfəət (gəlir) əldə edən hüquqi şəxsin faktiki sahibi və ya əmtəəsiz əməliyyat aparmaqla gəlir əldə edən vergi ödəyicisinə nəzarəti həyata keçirən fiziki şəxsdir.";

**1.31.** 83-cü maddə üzrə:

**1.31.1.** 83.3-cü maddədən "hesabat dövrü qurtardıqdan sonra 3 il ərzində" sözləri çıxarılsın;

**1.31.2.** 83.7-ci maddəyə "zəruridirsə," sözündən sonra "habelə vergi ödəyicisi riskli vergi ödəyicisidirsə," sözləri əlavə edilsin;

**1.32.** 85-ci maddə üzrə:

**1.32.1.** 85.4-cü maddəyə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

"Bu maddə ilə müəyyən edilən 3 illik müddət (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) səyyar vergi yoxlamasının keçirilməsi barədə vergi orqanının qərar qəbul etdiyi tarixdən əvvəlki 3 illik dövrü əhatə edir. Vergi ödəyicisi tərəfindən bu maddədə göstərilən müddətdə təqdim edilən vergi bəyannaməsi üzrə vergi orqanı tərəfindən vergilərin hesablanması bu Məcəllənin 37.2-ci maddəsində göstərilən müddətdə həyata keçirilir.

Xaricdə əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu hallarda, vergi yoxlamaları (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) yoxlamanın keçirilməsi haqqında vergi orqanının qərar qəbul etdiyi tarixdən əvvəlki 5 illik dövrü, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq təyin edilən vergi yoxlamaları üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq olaraq cinayət məsuliyyətinə cəlb etmə müddəti ilə müəyyən edilən dövrü əhatə edir.";

**1.32.2.** 85.5-1-ci maddədə "məcburi dövlət sosial sığorta haqqına" sözlərindən sonra ", işsizlikdən sığorta haqqına və icbari tibbi sığorta haqqına" sözləri əlavə edilsin;

**1.32.3.** 85.8-ci maddədə "qaldırılıbsa" sözündən sonra "və ya vergi ödəyicisi riskli vergi ödəyicisidirsə" sözləri əlavə edilsin;

**1.33.** 87-ci maddə üzrə:

**1.33.1.** 87.1-ci maddədə "Vergilərin," sözü "Bu Məcəllənin 191.5-ci maddəsinə əsasən hesablanmış aksiz vergisinin icbari tibbi sığorta fonduna ödənilən hissəsi istisna olmaqla, vergilərin," sözləri ilə əvəz edilsin;

**1.33.2.** aşağıdakı məzmunda 87.3-1-ci maddə əlavə edilsin:

"87.3-1. Riskli vergi ödəyiciləri tərəfindən artıq ödəmənin qaytarılması ilə bağlı müraciət edildikdə bu maddə ilə müəyyən edilən müddətlər onların fəaliyyəti üzrə kameral və ya səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti tədbirləri tam başa çatdıqdan sonra tətbiq edilir.";

**1.33.3.** aşağıdakı məzmunda 87.5-ci maddə əlavə edilsin:

"87.5. Bu maddənin digər müddəalarından və bu Məcəllənin 179-cu maddəsindən asılı olmayaraq, rekvizitlərin səhv göstərilməsi və (və ya) bank əməliyyatlarının səhv icra olunması nəticəsində səhv ödənilmiş məbləğlər vergi ödəyicisinin borcu olmadığı halda bu Məcəllənin 87.4-cü maddəsinə müvafiq olaraq 20 gün ərzində (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqlarına münasibətdə 45 gün ərzində) qaytarılır.";

**1.34.** 88-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"88.1. Vergilər üzrə yaranmış borc bu Məcəllənin 85.4-cü maddəsinin müddəaları nəzərə alınmaqla aşağıdakı sıra qaydası ilə ödənilir:

88.1.1. yaranma tarixi ardıcıllığı ilə hesablanmış verginin məbləği;

88.1.2. hesablanmış faizlərin məbləği;

88.1.3. tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği.

88.2. Məcburi dövlət sosial sığorta üzrə yaranmış borc aşağıdakı sıra qaydası ilə ödənilir:

88.2.1. cari rüb üzrə borc;

88.2.2. cari rübdən geriyə doğru (daha əvvəl yaranan borclar üzrə) yaranan borclar ardıcıl olaraq;

88.2.3. yaranma tarixi ardıcıllığı ilə hesablanmış faizlərin məbləği;

88.2.4. yaranma tarixi ardıcıllığı ilə tətbiq edilmiş maliyyə sanksiyalarının məbləği.

88.3. Cari rüb üzrə borc ödənildikdən sonra sığortaedənin artıq vəsaiti qaldığı təqdirdə, həmin vəsait bu Məcəllənin 88.2.2 - 88.2.4-cü maddələrində göstərilən qaydada əvvəlki borcların ödənilməsinə aid edilir.";

**1.35.** 89.3-cü maddənin ikinci abzasına "olduqda," sözündən sonra "habelə vergi ödəyicisi riskli vergi ödəyicisi olduğu halda" sözləri əlavə edilsin;

**1.36.** 93.1.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 93.1.3-cü maddə əlavə edilsin:

*Ardı 5-ci səh.*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 4-cü səh.*

"93.1.3. qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsinə qərarın qüvvəyə mindiyi tarixdən 5 illik müddət keçdikdə.";

**1.37.** 102.1-ci maddə üzrə:

**1.37.1.** 102.1.21-ci maddədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

**1.37.2.** 102.1.34-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 102.1.35-ci maddə əlavə edilsin:

"102.1.35. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi.";

**1.38.** 106.1-ci maddə üzrə:

**1.38.1.** 106.1.13-cü maddədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

**1.38.2.** 106.1.26-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 106.1.27-ci və 106.1.28-ci maddələr əlavə edilsin:

"106.1.27. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi;

106.1.28. Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışlarına aid qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüququnun verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2018-ci il yanvarın 1-dən 6 il müddətinə.";

**1.39.** 108-ci maddənin mətninə aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

"Vergi ödəyicisi tərəfindən vergiyə cəlb edilən əməliyyatlarla yanaşı, vergidən azad olunan, yaxud mənfəət (gəlir) vergisinə cəlb edilməyən əməliyyatlar aparıldıqda, habelə qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı əməliyyatlar aparıldıqda, həmin əməliyyatlar üzrə gəlirlərin və xərclərin uçotu ayrılıqda aparılmalıdır. Vergi ödəyicisi tərəfindən vergiyə cəlb olunan və vergidən azad olunan, yaxud mənfəət (gəlir) vergisinə cəlb edilməyən, habelə qeyri-sahibkarlıq fəaliyyəti ilə bağlı əməliyyatlar üzrə çəkilən, lakin bölüşdürülməsi mümkün olmayan xərclərdən gəlirdən çıxılan məbləğ vergiyə cəlb edilən gəlirlərin vergi ödəyicisinin ümumi gəlirlərində xüsusi çəkisi əsasında müəyyən edilir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binalardan dövlətə yaşayış və qeyri-yaşayış sahələri ayrıldıqda, dövlətə ayrılan yaşayış və qeyri-yaşayış sahələrinə çəkilmiş məsrəflər gəlirdən çıxılan xərclərə aid edilir.";

**1.40.** aşağıdakı məzmunda 109.9-cu maddə əlavə edilsin:

"109.9. Əmtəəsiz əməliyyatlar çərçivəsində əldə edilmiş sənədlər gəlirdən çıxılan xərcləri təsdiq edən sənəd hesab edilmir və təqdim edilən malların (işlərin, xidmətlərin) dəyəri bu Məcəllənin 14-cü və 67-ci maddələri nəzərə alınmaqla gəlirdən çıxılır.";

**1.41.** 114.3.1-ci maddəyə "binalar" sözündən əvvəl "torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış xərclər," sözləri əlavə edilsin;

**1.42.** 115.2-ci maddənin ikinci abzasına "xərclər" sözündən sonra "(torpaqların yaxşılaşdırılmasına çəkilən xərclər istisna olmaqla)" sözləri əlavə edilsin və həmin maddəyə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"Torpaqların yaxşılaşdırılmasına çəkilən xərclər kapitallaşdırılaraq bu Məcəllənin 114.3.1-ci maddəsinə uyğun olaraq amortizasiya olunur.";

**1.43.** 125-ci maddə üzrə:

**1.43.1.** 125.1.7-ci maddəyə "royalti" sözündən sonra "(bu Məcəllənin 125.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

**1.43.2.** aşağıdakı məzmunda 125.5-ci maddə əlavə edilsin:

"125.5. Mülki aviasiya fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən bu fəaliyyətin məqsədləri üçün Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslərdən icarəyə və ya lizinqə (maliyyə lizinqi istisna olmaqla) götürülmüş hava gəmisinə və hava gəmisinin mühərrikinə görə ödənişlərdən ödəmə mənbəyində vergi tutulmur və həmin gəlir vergiyə cəlb edilmir.";

**1.44.** aşağıdakı məzmunda 130.6-cı maddə əlavə edilsin:

"130.6. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı gəlir və bu gəlirdən çıxılan xərclər həmin ili ərzində yerinə yetirilmiş işlər (mərhələlər) üzrə təqdim edilən yaşayış və qeyri-yaşayış sahələrinin ƏDV-siz məbləğləri ilə həmin sahələrin tikintisi ilə bağlı çəkilən məsrəflər, o cümlədən torpaq sahələrinin alınması ilə bağlı çəkilən məsrəflər üzrə müəyyən edilir.";

**1.45.** 138.4-cü maddə ləğv edilsin;

**1.46.** 149.4-cü maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğvetmə balansını qeydiyyat orqanına təqdim etdiyi tarixdən 30 gün müddətində mənfəət vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.";

**1.47.** 150-ci maddə üzrə:

**1.47.1.** 150.1.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"150.1.9. torpaq, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 3 (üç) təqvim ili ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilməsi, həmçinin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilmə halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius;";

**1.47.2.** 150.3.3-cü maddə üzrə:

**1.47.2.1.** 150.3.3.2-ci maddədə "ƏDV ödəyiciləri və sadələşdirilmiş vergi ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq;" sözləri "vergi ödəyiciləri rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq verməyə borcludurlar." sözləri ilə əvəz edilsin;

**1.47.2.2.** 150.3.3.3-cü maddə ləğv edilsin;

**1.48.** 153-cü maddədə "vergi hesab-fakturalara" sözləri "qaimə-fakturalara" sözləri ilə əvəz edilsin;

**1.49.** 154.6-cı maddədən "sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etməyən" sözləri çıxarılsın;

**1.50.** 158.1-ci maddənin birinci abzasında "və ya 218.1.3-cü maddələrində" sözləri "maddəsində" sözü ilə əvəz edilsin;

**1.51.** 163-cü maddə üzrə:

**1.51.1.** 163.1.4-cü maddədə "elektron vergi hesab-faktura" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

**1.51.2.** 163.2.1-ci maddədə "elektron vergi hesab-fakturanı" sözləri "elektron qaimə-fakturanı" sözləri ilə əvəz "elektron vergi hesab-fakturada" sözləri "elektron qaimə-fakturada" sözləri ilə əvəz edilsin;

**1.52.** 164-cü maddə üzrə:

**1.52.1.** 164.1-ci maddə üzrə:

**1.52.1.1.** 164.1.8-ci maddəyə "müəssisələri" sözündən sonra ", habelə peşə təhsili müəssisələri" sözləri əlavə edilsin;

**1.52.1.2.** 164.1.16-cı maddədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

**1.52.1.3.** 164.1.37-ci maddə aşağıdakı redaksiyada verilsin:

"164.1.37. heyvan və quş ətinin satışı - 2020-ci il yanvarın 1-dən 4 il müddətinə;";

**1.52.1.4.** 164.1.43-cü (ikinci halda) və 164.1.44-cü maddələr müvafiq olaraq 164.1.44-cü və 164.1.45-ci maddələr hesab edilsin, 164.1.45-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 164.1.46-164.1.51-ci maddələr əlavə edilsin:

"164.1.46. heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələr - 2020-ci il yanvarın 1-dən 4 il müddətinə;

164.1.47. bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binanın yaşayış və qeyri-yaşayış sahələrinin dövlətə ayrılan hissəsinin təqdim edilməsi üzrə dövriyyələr;

164.1.48. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən nizamnamələrində nəzərdə tutulan və onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsi üçün dövlət büdcəsindən ayrılmış vəsait hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında işlərin və xidmətlərin göstərilməsi - 2020-ci il yanvarın 1-dən 1 il müddətinə;

164.1.49. Azərbaycan Respublikasında keçirilən Formula 1 və Formula 2 yarışları ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə bağlanılmış müqavilə əsasında mal, iş və xidmətin təqdim edilməsi - 2018-ci il yanvarın 1-dən 6 il müddətinə;

164.1.50. Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslərin mülki aviasiya fəaliyyəti çərçivəsində hava gəmilərinin və hava gəmilərinin mühərriklərinin rezident hüquqi şəxslərə icarəyə və ya lizinqə verilməsi;

164.1.51. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi sığorta xidmətlərinin göstərilməsi - 2020-ci il yanvarın 1-dən 1 il müddətinə.";

**1.52.2.** 164-cü maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Bu Məcəllənin 164.1.37-ci maddəsinin müddəaları kəsilmə və dondurulma əməliyyatlarına məruz qalan heyvan və quş ətləri istisna olmaqla, emal əməliyyatlarına məruz qalan heyvan və quş ətinə münasibətdə tətbiq edilmir.";

**1.53.** aşağıdakı məzmunda 165.6-cı maddə əlavə edilsin:

"165.6. Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması şərtlərini və qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) təsdiq edir. Bu maddəyə uyğun olaraq qaytarılan məbləğ ödənilmiş ƏDV-nin 30 faizini təşkil edir.";

**1.54.** 166-cı maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"166.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, vergi tutulan əməliyyatın vaxtı təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödəmənin aparıldığı vaxtdır. Ödəmə aşağıdakı vaxtda aparılmış sayılır:

166.1.1. nağd pul vəsaitini aldığı, nağdsız ödəmədə isə pul vəsaitinin bankda onun hesabına və ya sərəncamçısı ola biləcəyi hesaba, yaxud göstərilən vəsaiti almaq hüququna malik olacağı hesaba daxil olduğu vaxt;

166.1.2. qarşılıqlı hesablaşmalar aparıldıqda öhdəliyin ləğv edildiyi və ya ödənildiyi vaxt;

166.1.3. malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə - iddia müddətinin bitdiyi vaxt;

166.1.4. natura şəklində aparıldıqda, habelə barter edildikdə - aktivlərin əldə edildiyi (barter edildiyi) vaxt;

166.1.5. əvəzsiz təqdim edildiyi hallarda təqdimetmənin həyata keçirildiyi vaxt;

166.1.6. tələb hüququ güzəşt edildikdə - güzəşt edilən məbləğ üzrə tələb hüququnun güzəşt edildiyi vaxt.

166.2. Bu Məcəllənin 159.5-ci maddəsi tətbiq edildikdə, malların (işlərin, xidmətlərin) qeyri-kommersiya məqsədləri üçün verildiyi vaxt, malların itməsi, əskik gəlməsi, xarab olması, tam amortizasiya olunmadan uçotdan silinməsi və ya oğurlanması baş verdiyi vaxt (gün) vergi tutulan əməliyyatın vaxtı sayılır.

166.3. Bu Məcəllənin 159.6-cı maddəsi tətbiq edildikdə, ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) vergi tutulan əməliyyatın vaxtı sayılır.

166.4. Vergi ödəyicisi tərəfindən təqdim edilən və dəyəri ödənilməyən mallar (işlər, xidmətlər) üzrə həmin malların (işlərin, xidmətlərin) alıcısı tərəfindən malları (işləri, xidmətləri) təqdim edən vergi ödəyicisinə borc vəsait verildikdə, ƏDV tutulan əməliyyatın vaxtı aşağıdakı vaxt hesab edilir:

166.4.1. mallar (işlər, xidmətlər) təqdim edildikdən sonra verilmiş borclar üzrə (kredit təşkilatları və bank əməliyyatları aparan şəxslər tərəfindən verilmiş borclar istisna olmaqla) - borcun verildiyi vaxt;

166.4.2. mallar (işlər, xidmətlər) təqdim edilənədək verilmiş borclar üzrə (kredit təşkilatları və bank əməliyyatları aparan şəxslər tərəfindən verilmiş borclar istisna olmaqla) - malların (işlərin, xidmətlərin) təqdim edildiyi vaxt.

166.5. Vergi tutulan əməliyyat üzrə iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat sayılır.

166.6. Ödəmə malların (işlərin, xidmətlərin) təqdim edilməsinədək həyata keçirildikdə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır. Vergi tutulan əməliyyat üçün iki və ya daha çox ödəmə aparılırsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır. Alınmış avans ödəmələri üzrə elektron qaimə-faktura verilməsinə yol verilmir.

166.7. Bu maddənin məqsədləri üçün ödəmə dedikdə, təqdim edilmiş malların (işlərin, xidmətlərin) ƏDV-siz dəyərinin ödənilməsi nəzərdə tutulur.";

**1.55.** 169-cu maddə üzrə:

**1.55.1.** 169.3-cü maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Bu Məcəllənin 169.1-ci maddəsi tətbiq edildikdə, vergi tutulan əməliyyatın vaxtı ödəmənin həyata keçirildiyi vaxt sayılır. Ödəmə əməliyyatın həyata keçirilməsinədək aparıldıqda, vergi tutulan əməliyyat ödəmə həyata keçirildikdə aparılmış sayılır. Verginin məbləği bu Məcəllənin 173.1-ci maddəsinin müddəalarına uyğun olaraq vergi dərəcəsinin qeyri-rezidentə ödənməli olan məbləğə (ƏDV nəzərə alınmadan) tətbiq edilməsi yolu ilə müəyyənləşdirilir.";

**1.55.2.** 169.4-cü maddədə "vergi hesab-fakturadır" sözləri "qaimə-fakturadır" sözləri ilə əvəz edilsin;

**1.55.3.** 169.7-ci maddə ləğv edilsin;

**1.56.** 172-ci maddə üzrə:

**1.56.1.** 172.4-cü maddə üzrə:

**1.56.1.1.** 172.4.1-ci maddənin üçüncü abzasında "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

**1.56.1.2.** 172.4.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"172.4.2. Digər şəxs (vəkalət verən) üçün vergi tutulan əməliyyatların vaxtı bu Məcəllənin 166-cı maddəsi ilə müəyyən edilən vaxtdır. Digər şəxs (vəkalət verən) tərəfindən malların agentə təhvil verilməsi bu məqsəd üçün nəzərdə tutulan elektron qaimə-faktura ilə rəsmiləşdirilir.";

**1.56.1.3.** 172.4.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"172.4.3. Agent ƏDV üzrə vergi ödəyicisi olduqda, digər şəxsə (vəkalət verənə) göstərdiyi xidmətlərə görə elektron qaimə-faktura verir. Elektron qaimə-faktura ƏDV ödəyicisi olan digər şəxs (vəkalət verən) tərəfindən agentə ödənilmiş ƏDV-ni əvəzləşdirmək hüququ verir.

Agent ƏDV-nin məqsədləri üçün qeydiyyatda olduğu halda digər şəxsdən (vəkalət verəndən) qəbul etdiyi mallar (işlər, xidmətlər) üçün həmin malların (işlərin, xidmətlərin) alıcılarına bu Məcəllənin 71-1.5.5-ci maddəsində nəzərdə tutulan elektron qaimə-faktura verir. Həmin elektron qaimə-faktura bu Məcəllənin 175-ci maddəsinə uyğun olaraq ödənilmiş ƏDV-nin əvəzləşdirilməsinə əsas verir. Agent ƏDV-nin məqsədləri üçün qeydiyyatda olmadıqda, alıcı tərəfindən alınmış malların (işlərin, xidmətlərin) dəyəri digər şəxsin (vəkalət verənin) hesabına nağdsız qaydada, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildiyi halda agent tərəfindən həmin malların (işlərin, xidmətlərin) alıcısına verilmiş elektron qaimə-faktura ödənilmiş ƏDV-nin əvəzləşdirilməsinə əsas verir. Bu zaman malların (işlərin, xidmətlərin) alıcısı agentdən aldığı elektron qaimə-faktura əsasında digər şəxsə (vəkalət verənə) malların (işlərin, xidmətlərin) dəyərini nağdsız qaydada, ƏDV məbləğini ƏDV-nin depozit hesabına ödəməklə ödənilmiş ƏDV məbləğini əvəzləşdirir.";

**1.56.1.4.** 172.4.4-cü maddədə "bu xidmətlərin faktiki göstərildiyi vaxt" sözləri "bu Məcəllənin 166-cı maddəsi ilə müəyyən edilən vaxt" sözləri ilə əvəz edilsin;

**1.56.2.** 172.5-ci maddə üzrə:

**1.56.2.1.** 172.5.5-ci maddədə "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

**1.56.2.2.** 172.5.6-cı maddə ləğv edilsin;

**1.56.2.3.** 172.5.7-ci maddənin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"Komisyonçu üçün vergi tutulan əməliyyatın vaxtı bu Məcəllənin 166-cı maddəsi ilə müəyyən edilən vaxt sayılır.";

**1.56.2.4.** 172.5.8-ci maddədə "elektron vergi hesab-fakturalarının" sözləri "elektron qaimə-fakturaların" sözləri ilə əvəz edilsin;

**1.57.** 175-ci maddə üzrə:

**1.57.1.** 175.1-ci maddə üzrə:

**1.57.1.1.** 175.1-ci (175.1.1 - 175.1.3-cü maddələr istisna olmaqla) maddə aşağıdakı redaksiyada verilsin:

"175.1. Bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri bank hesabına, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. Bu maddənin məqsədləri üçün malların (işlərin, xidmətlərin) barter edilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına ödənilməsinə bərabər tutulur. Bu zaman əvəzləşdirilən ƏDV-nin vaxtı aşağıdakı kimi müəyyənləşdirilir:";

**1.57.1.2.** 175.1.1-ci maddədə "bu Məcəllənin 176-cı maddəsinə uyğun olaraq" sözləri "alınmış elektron qaimə-faktura üzrə malların (işlərin, xidmətlərin) dəyərinin və ona mütənasib ƏDV məbləğinin tam ödənildiyi vaxt" sözləri ilə əvəz edilsin;

**1.57.1.3.** 175.1.3-cü maddədə hər iki halda "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

**1.57.2.** 175.2-ci maddədə birinci halda "üçün" sözündən sonra ", o cümlədən ƏDV tutulmayan əməliyyatlar üçün" sözləri əlavə edilsin və həmin maddədə "vergi hesab-fakturaları" sözləri "qaimə-fakturaları" sözləri ilə əvəz edilsin;

**1.57.3.** 175.8-ci maddədə "vergi hesab-fakturaları" sözləri "qaimə-fakturaları" sözləri ilə əvəz edilsin;

**1.57.4.** aşağıdakı məzmunda 175.9 - 175.11-ci maddələr əlavə edilsin:

"175.9. Qəbzlər, çeklər və nağd qaydada aparılan əməliyyatların rəsmiləşdirildiyi sənədlər, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən qaydada tərtib edilməyən elektron qaimə-fakturalar bu maddənin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas vermir.

175.10. Gömrük orqanları tərəfindən verilmiş idxalda ƏDV-nin ödənildiyini göstərən idxal sənədləri ödənişin formasından asılı olmayaraq bu maddənin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas verir.

175.11. Əmtəəsiz və (və ya) riskli əməliyyatların rəsmiləşdirildiyi sənədlər bu Məcəllənin 175-ci maddəsinin məqsədləri üçün verginin əvəzləşdirilməsinə əsas vermir.";

**1.58.** 176-cı maddə ləğv edilsin;

**1.59.** 177.5-ci maddədə "ƏDV üzrə elektron vergi hesab-fakturaları" sözləri "bu maddənin məqsədləri üçün nəzərdə tutulan elektron qaimə-fakturaları" sözləri ilə əvəz edilsin;

**1.60.** aşağıdakı məzmunda 179.4-cü maddə əlavə edilsin:

"179.4. Riskli vergi ödəyiciləri tərəfindən artıq ödəmənin qaytarılması ilə bağlı müraciət edildikdə bu maddə ilə müəyyən edilən müddətlər onların fəaliyyəti üzrə kameral və ya səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti tədbirləri tam başa çatdıqdan sonra tətbiq edilir.";

**1.61.** 181.1-ci maddədə "vergi hesab-fakturaları" sözləri "qaimə-fakturaları" sözləri ilə əvəz edilsin;

**1.62.** 189.2-ci maddədə "vergi hesab-faktura" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

**1.63.** 190-cı maddə üzrə:

**1.63.1.** 190.1-ci maddənin doqquzuncu abzasından "(alkoqolsuz və ya alkoqollu)" sözləri çıxarılsın;

**1.63.2.** 190.3-cü maddə üzrə:

**1.63.2.1.** 190.3-cü maddədən "(alkoqollu və alkoqolsuz)" sözləri çıxarılsın;

**1.63.2.2.** 190.3.1-ci maddədə "2,0" rəqəmləri "3,2" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.3.** 190.3.2-ci maddədə "2,0" rəqəmləri "3,2" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.4.** 190.3.3-cü maddədə "6,0" rəqəmləri "3,2" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.5.** 190.3.4-cü maddədə "2,5" rəqəmləri "2,6" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.6.** 190.3.5-ci maddədə "0,1" rəqəmləri "0,2" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.7.** 190.3.6-cı maddədə "0,2" rəqəmləri "0,4" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.8.** 190.3.7-ci maddədə "20,0" rəqəmləri "31,0" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.9.** 190.3.8-ci maddədə "20" rəqəmləri "31,0" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.10.** 190.3.9-cu maddə ləğv edilsin;

**1.63.2.11.** 190.3.10-cu maddədən "alkoqolsuz" sözü çıxarılsın və həmin maddədə "3,0" rəqəmləri "3,1" rəqəmləri ilə əvəz edilsin;

**1.63.2.12.** 190.3.12-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 190.3.13-cü maddə əlavə edilsin:

"190.3.13. bu maddədə nəzərdə tutulmayan tündləşdirilməmiş alkoqollu içkilər (tərkibindəki spirtin miqdarı 9 faizdən çox olmayan) - hər litrinə 0,4 manat.";

**1.64.** 190.3-1-ci maddədə "190.3.1-ci - 190.3.10-cu və 190.3.12-ci" sözləri "190.3.1-ci - 190.3.8-ci, 190.3.10-cu, 190.3.12-ci və 190.3.13-cü" sözləri ilə əvəz edilsin;

**1.65.** aşağıdakı məzmunda 191.5-ci maddə əlavə edilsin:

"191.5. Bu Məcəllə ilə müəyyən edilən aksizli mallara tətbiq edilən aksiz dərəcələrinin "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hissəsi icbari tibbi sığorta fonduna ödənilir.";

**1.66.** 194-cü maddə üzrə:

**1.66.1.** 194.1-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Aksiz markalarının hazırlanmasına dair sifarişin verilməsi, onların satışı və uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və həmin markaların hazırlanmasına dair sifarişin verilməsi, onların satışı və uçotunun aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.";

**1.66.2.** 194.2-ci maddə üzrə:

**1.66.2.1.** 194.2.3-cü maddədən ", elektron vergi hesab-fakturasına" sözləri çıxarılsın;

**1.66.2.2.** 194.2.8-ci maddədən ", elektron vergi hesab-faktura" sözləri çıxarılsın;

**1.67.** 195-ci maddə üzrə:

**1.67.1.** maddənin adında "vergi hesab-fakturaları" sözləri "qaimə-fakturaları" sözləri ilə əvəz edilsin;

**1.67.2.** 195.1-ci maddədə "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

**1.67.3.** 195.2-ci maddədə "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin və həmin maddədən "və bu Məcəllənin 176.2-ci maddəsində nəzərdə tutulmuş rekvizitləri özündə əks etdirən" sözləri çıxarılsın;

**1.67.4.** 195.3-cü maddədə "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin və həmin maddədən ", müəyyən edilmiş qaydada tərtib edilməyən elektron vergi hesab-fakturaları" sözləri çıxarılsın;

**1.68.** 199-cu maddə üzrə:

**1.68.1.** 199.7-ci maddədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

**1.68.2.** 199.14-cü maddəyə "azaddırlar" sözündən sonra "(mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər istisna olmaqla)" sözləri əlavə edilsin;

**1.68.3.** 199.16-cı maddə aşağıdakı redaksiyada verilsin:

"199.16. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) qərarına əsasən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi, onun mülkiyyətində (balansında) olan və siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırdığı əmlaka görə 2019-cu il yanvarın 1-dən 5 il müddətinə əmlak vergisini ödəməkdən azaddır.";

**1.69.** 201.5-ci maddənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Hüquqi şəxs və ya qeyri-rezidentin daimi nümayəndəliyi ləğvetmə balansını qeydiyyat orqanına təqdim etdiyi tarixdən 30 gün müddətində əmlak vergisi bəyannaməsini vergi orqanına təqdim etməyə borcludur.";

**1.70.** 207-ci maddə üzrə:

**1.70.1.** 207.3-cü maddədə "7" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin;

**1.70.2.** 207.7-ci maddə aşağıdakı redaksiyada verilsin:

"207.7. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının (qurumun) qərarına əsasən aldığı problemli aktivlərin (borcların) əvəzində əldə etdiyi, onun mülkiyyətində (balansında) olan və siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırdığı torpağa görə 2019-cu il yanvarın 1-dən torpaq vergisini ödəməkdən azaddır.";

**1.71.** 218-ci maddə üzrə:

**1.71.1.** 218.1.2-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin, 218.1.3-cü və 218.3-cü maddələr ləğv edilsin;

**1.71.2.** 218.4-cü maddə üzrə:

**1.71.2.1.** 218.4.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"218.4.3. mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər;";

**1.71.2.2.** 218.4.5-ci maddədən "(bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla)" sözləri çıxarılsın;

**1.71.3.** 218.5-ci maddə üzrə:

**1.71.3.1.** 218.5.6-cı maddədən ", 218.1.3-cü" sözləri çıxarılsın;

**1.71.3.2.** 218.5.13-cü maddədən "bina tikintisi fəaliyyəti ilə məşğul olan və" sözləri çıxarılsın;

**1.71.4.** aşağıdakı məzmunda 218.6-cı maddə əlavə edilsin:

"218.6. Aşağıdakı hallarda sadələşdirilmiş vergi metodunu tətbiq etmək hüququ saxlanılır:

218.6.1. bu Məcəllənin 218.5.9-cu maddəsinin müddəalarından asılı olmayaraq pərakəndə satış qaydasında malların təqdim edilməsini həyata keçirən vergi ödəyicisi, eyni zamanda, topdansatış qaydasında malların satışını həyata keçirdikdə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi ümumi ticarət əməliyyatlarının (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda;

218.6.2. bu Məcəllənin 218.5.10-cu maddəsinin müddəalarından asılı olmayaraq vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda.";

**1.72.** aşağıdakı məzmunda 218-1-ci maddə əlavə edilsin:

**"Maddə 218-1. Azadolmalar və güzəştlər**

218-1.1. Vergidən azaddır:

218-1.1.1. kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş hasilatın həcmi - 2014-cü il yanvarın 1-dən 10 il müddətinə;

218-1.1.2. qanunla müəyyən edilmiş hallarda dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;

218-1.1.3. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada dövlət büdcəsinin vəsaiti hesabına ödənilən ixrac təşviqi;

218-1.1.4. bu Məcəllə ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan şəxslərə ödənilən dividendlər;

218-1.1.5. mülkiyyətdə olan yaşayış və qeyri-yaşayış sahələrinin, habelə torpaq sahələrinin təqdim edilməsi üzrə aşağıdakı təqdim edilmə halları:

218-1.1.5.1. fiziki şəxslər tərəfindən azı 3 təqvim ili ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi;

218-1.1.5.2. bu Məcəllənin 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallar;

218-1.1.5.3. fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahələrinin 30 kvadratmetrədək olan hissəsi.

218-1.2. Pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən büdcəyə ödənilməli olan verginin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi hasilatdakı xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılır.

Bu güzəştin alınması hüququ müəyyən edilərkən, vergi orqanında uçotda olan şəxslər tərəfindən POS-terminal vasitəsilə aparılan ödənişlərin məbləği nəzərə alınmır.";

**1.73.** 219.3-cü və 219.7 - 219.11-ci maddələr ləğv edilsin;

**1.74.** 220-ci maddə üzrə:

**1.74.1.** 220.8-ci maddənin birinci abzasında "Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün sadələşdirilmiş vergi bu Məcəllənin 219.3-cü maddəsində göstərilən vergitutma obyektinin hər kvadratmetri üçün 45 manat, bu" sözləri "Bu" sözü ilə əvəz edilsin;

**1.74.2.** 220.8.1-ci maddənin cədvəl hissəsində "Bina tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (binanın faktiki yerləşdiyi), habelə torpaq sahəsinin yerləşdiyi ərazi üzrə əmsal" sözləri "Yaşayış və qeyri-yaşayış sahələrinin və torpağın yerləşdiyi ərazi üzrə əmsal" sözləri ilə əvəz edilsin;

**1.74.3.** 220.8-1-ci maddədə "Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün tikilən binanın qeyri-yaşayış sahələri üzrə sadələşdirilmiş vergi, habelə bu" sözləri "Bu" sözü ilə əvəz edilsin;

**1.74.4.** 220.10-cu maddənin cədvəl hissəsində birinci halda "30" rəqəmləri "20" rəqəmləri ilə, ikinci halda "30" rəqəmləri "15" rəqəmləri ilə və "iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant), gözətçi və digər analoji işlər" sözləri "gözətçi və iaşə obyektlərində müştərilərə xidmət göstərən fiziki şəxslər (ofisiant)" sözləri ilə əvəz edilsin;

**1.75.** 221-ci maddə üzrə:

**1.75.1.** 221.4.7-ci maddə üzrə:

**1.75.1.1.** ikinci abzasın birinci cümləsinə "verginin" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqının" sözləri əlavə edilsin;

**1.75.1.2.** üçüncü abzasın birinci cümləsinə "vergini" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqını" sözləri əlavə edilsin;

**1.75.1.3.** üçüncü abzasın ikinci cümləsində "vergi" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqı" sözləri əlavə edilsin;

**1.75.1.4.** dördüncü abzasda "vergilər" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqı" sözləri və "verginin" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqının" sözləri əlavə edilsin;

**1.75.2.** 221.5-ci maddə ləğv edilsin;

**1.75.3.** 221.6-cı maddədə "218.1.3-cü və 218.4-cü maddələrində" sözləri "218.4-cü maddəsində" sözləri ilə əvəz edilsin;

**1.75.4.** 221.7-ci maddədə ", 218.2-ci və 218.3-cü" sözləri "və 218.2-ci" sözləri ilə əvəz edilsin.

**1.75.5.** 221.8-ci maddə üzrə:

**1.75.5.1.** 221.8.6-cı maddəyə birinci halda "verginin" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqının" sözləri və "vergini" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqını" sözləri əlavə edilsin;

**1.75.5.2.** 221.8.6-cı və 221.8.9-cu maddələrdə ismin müvafiq hallarında "Sabit verginin ödənilməsi haqqında qəbz" sözləri ismin müvafiq hallarında "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" sözləri ilə əvəz edilsin;

**1.75.5.3.** 221.8.7-ci maddəyə üçüncü halda "vergi" sözündən sonra "və məcburi dövlət sosial sığorta haqqı" sözləri əlavə edilsin.

**Maddə 2. Keçid müddəaları**

**2.1.** 2020-ci il 1 yanvar tarixinədək alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilən ƏDV-nin əvəzləşdirilməsi bu Qanun qüvvəyə minənədək mövcud olan qaydada həyata keçirilir. Alınmış mallara (işlərə, xidmətlərə) görə ödənilmiş ƏDV-nin elektron qaimə-faktura ilə əvəzləşdirilməsi 2020-ci il 1 yanvar tarixindən sonra aparılan əməliyyatlara münasibətdə tətbiq edilir.

**2.2.** Bu Qanun qüvvəyə minənədək tikinti obyektinin tikinti-quraşdırma işlərinə başlamış və sadələşdirilmiş vergitutma metodunu tətbiq edən vergi ödəyicisi həmin tikinti-quraşdırma işləri üzrə vergiləri bu Qanun qüvvəyə minənədək mövcud olan qaydada ödəyir. Həmin vergi ödəyiciləri tərəfindən 2020-ci il yanvarın 1-dən sonra təqdim edilən yaşayış və qeyri-yaşayış sahələrinə görə ƏDV və gəlir (mənfəət) vergisi hesablanmır.

Tikinti-quraşdırma işlərinə 2019-cu il 1 dekabr tarixindən başlamış vergi ödəyicisi həmin tikinti-quraşdırma işləri üzrə seçdiyi vergitutma metodu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş məlumat formasını 2020-ci il 1 yanvar tarixinədək təqdim etmədikdə tikilən binalar üzrə yaranan vergi öhdəlikləri bu Qanunla müəyyən olunmuş qaydada yerinə yetirilir.

**2.3.** 2020-ci il 1 yanvar tarixinədək ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri 2020-ci il 1 yanvar tarixinədək yaranan debitor borcları barədə forması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məlumatı 2020-ci il 31 yanvar tarixinədək vergi orqanına təqdim edirlər.

**2.4.** Bu Qanunun 1.75.1-ci, 1.75.5.1-ci və 1.75.5.3-cü maddələri "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" və fərqlənmə nişanı ilə bağlı ediləcək dəyişikliklərlə eyni gündə qüvvəyə minir.

**2.5.** Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2019-cu il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri əsasında bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binaların dövlətə ayrılan hissəsinə dair hüquqi əsasları müəyyən edən normativ hüquqi aktlara bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.48-ci maddəsinə uyğun olaraq, dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. həmin Məcəllənin 165.6-cı maddəsinə uyğun olaraq, fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılması şərtlərinin və qaydasının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.5. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinə uyğun olaraq, riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların meyarlarını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin Məcəllənin 71-1.3-cü və 71-1.4-cü maddələrinə uyğun olaraq, elektron qaimə-fakturaların vahid formalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Məcəllənin 71-2.2-ci maddəsinə uyğun olaraq, elektron alış aktının formasını, tətbiqi, uçotu və istifadəsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin Məcəllənin 194.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, aksiz markalarının hazırlanmasına dair sifariş verilməsi, onların satışı və uçotunun aparılması qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.82-ci maddəsinin birinci və ikinci cümlələrində, 16.8-ci maddəsində, 16.9-cu maddəsinin birinci cümləsində, 22-1.4-cü maddəsinin birinci (hər iki halda) və ikinci cümlələrində, 24.0.4-1-ci, 33.7-ci, 33.7.7-ci, 33.7.9-cu (hər üç halda), 71-1.3-cü, 71-1.4-cü, 71-2.2-ci, 76.1-1-ci (hər iki halda), 77.5-ci (hər üç halda), 77.6-cı (hər üç halda), 77.7.2-ci, 77.7.3-cü, 102.1.35-ci, 106.1.27-ci, 106.1.28-ci, 164.1.48-ci (hər iki halda), 164.1.49-cu maddələrində, 165.6-cı maddəsinin birinci cümləsində, 175.9-cu maddəsində, 194.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 199.16-cı (hər üç halda), 207.7-ci (hər üç halda) və 218-1.1.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Məcəllənin 77.5-ci (üçüncü halda), 77.6-cı (üçüncü halda), 164.1.48-ci (birinci halda) maddələrində, 165.6-cı maddəsinin birinci cümləsində, 199.16-cı (ikinci halda) və 207.7-ci (ikinci halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Məcəllənin 22-1.4-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə vəsaitin bölgüsü hissəsində Azərbaycan Respublikasının Prezidenti, vəsaitdən istifadə qaydası hissəsində isə Azərbaycan Respublikasının Prezidenti (Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularına münasibətdə) və Azərbaycan Respublikasının Nazirlər Kabineti (İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin işçilərinə münasibətdə) nəzərdə tutulur;

2.4. həmin Məcəllənin 22-1.4-cü maddəsinin birinci cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nəzərdə tutulur;

2.5. həmin Məcəllənin 22-1.4-cü maddəsinin birinci cümləsində "orqanların (qurumların) maddi-texniki bazası" dedikdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin maddi-texniki bazaları nəzərdə tutulur;

2.6. həmin Məcəllənin 22-1.4-cü maddəsinin birinci cümləsində "orqanların (qurumların) işçiləri" dedikdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində, Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçuları, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçiləri nəzərdə tutulur;

2.7. həmin Məcəllənin 13.2.82-ci maddəsinin birinci cümləsində, 71-1.3-cü, 71-1.4-cü, 71-2.2-ci, 77.5-ci (birinci halda), 77.6-cı (birinci halda), 77.7.2-ci, 77.7.3-cü, 102.1.35-ci, 106.1.27-ci, 175.9-cu maddələrində, 194.1-ci maddəsinin ikinci cümləsində (ikinci halda) və 218-1.1.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.8. həmin Məcəllənin 13.2.82-ci maddəsinin ikinci cümləsində, 16.8-ci maddəsində, 16.9-cu maddəsinin birinci cümləsində, 24.0.4-1-ci, 33.7-ci, 33.7.7-ci, 33.7.9-cu (birinci halda), 76.1-1-ci (hər iki halda), 77.5-ci (ikinci halda), 77.6-cı (ikinci halda) maddələrində, 194.1-ci maddəsinin ikinci cümləsində (birinci halda), 199.16-cı (üçüncü halda) və 207.7-ci (üçüncü halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Məcəllənin 33.7.9-cu (ikinci və üçüncü hallarda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Məcəllənin 106.1.28-ci və 164.1.49-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi nəzərdə tutulur;

2.11. həmin Məcəllənin 164.1.48-ci maddəsində (ikinci halda) "orqan (qurum)" dedikdə aşağıdakılar nəzərdə tutulur:

2.11.1. icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin tabeliyində yaradılan publik hüquqi şəxslərə münasibətdə - həmin publik hüquqi şəxsin tabe olduğu orqan (qurum);

2.11.2. digər publik hüquqi şəxslərə münasibətdə - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi;

2.12. həmin Məcəllənin 199.16-cı (birinci halda) və 207.7-ci (birinci halda) maddələrində "orqan (qurum)" dedikdə "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti bank olmayan kredit təşkilatı və "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur;

2.13. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsinin ikinci abzasında və 2.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.14. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun 2.2-ci maddəsinin ikinci abzasında və 2.3-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.15. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 77.5-ci maddəsinə uyğun olaraq, hər bir nəzarət-kassa aparatının quraşdırılmasına çəkilən xərclərin vergi öhdəlikləri ilə əvəzləşdirilən məbləği 350 manatdır.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

3.1. aşağıdakı normativ hüquqi aktları üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

3.1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 16.8-ci maddəsinə uyğun olaraq, bina tikintisi ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bir bina üzrə verilməli məlumatın formasını;

3.1.2. həmin Məcəllənin 16.9-cu maddəsinin birinci cümləsinə uyğun olaraq, transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatı vergi orqanına təqdim etməsi müddətini, formasını və qaydasını;

3.1.3. həmin Məcəllənin 24.0.4-1-ci maddəsinə uyğun olaraq üzləşmə aktının formasını;

3.1.4. həmin Məcəllənin 76.1-1-ci maddəsinə uyğun olaraq məlumatın formasını;

3.2. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 dekabr tarixli 762 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1236) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 106.1.9-cu, 106.1.10-cu və 122.3-cü maddələrində nəzərdə tutulmuş vergi azadolmaları hallarının müəyyən edilməsi Qaydaları"nın 2.2-ci bəndində "aktivlərin verilməsi səlahiyyəti onun Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş Nizamnaməsində nəzərdə tutulan" sözləri "Azərbaycan Respublikası Prezidentinin aktivlərin verilməsi səlahiyyətini həvalə etdiyi" sözləri ilə əvəz edilsin.

5. "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 7, maddə 1256; 2017, № 1, maddə 48, № 6, maddə 1073, № 10, maddə 1787) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.3-cü bənddə "vergi hesab fakturasının" sözləri "qaimə-fakturanın" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" üzrə:

5.2.1. 1.4-cü bənddə "vergi-hesab fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

5.2.2. 2.0.3-cü yarımbənddə "vergi-hesab fakturalarının (bundan sonra - e-VHF)" sözləri "qaimə-fakturaların" sözləri ilə, "e-VHF-lər" sözləri "elektron qaimə-fakturalar" sözləri ilə əvəz edilsin;

5.2.3. 3.8-ci bənddə, 5.2-ci bənddə, 5.2.1-ci, 5.2.7-ci yarımbəndlərdə, 5.4-cü bəndin birinci cümləsində (hər iki halda), 5.5-ci bənddə, 6.1.1-ci, 6.1.2-ci yarımbəndlərdə, 6.1.3-cü yarımbəndin üçüncü cümləsində (hər iki halda) və 6.1.4-cü yarımbənddə, 6.2-ci bəndin birinci, üçüncü və dördüncü (hər iki halda) cümlələrində, 6.4-cü, 6.5-ci bəndlərdə ismin müvafiq hallarında "e-VHF" sözləri ismin müvafiq hallarında "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

5.2.4. 4.2.2-ci yarımbəndin 1-ci abzasında "e-VHF-nin" sözləri "elektron qaimə-fakturanın" sözləri ilə, "e-VHF-lər" sözləri "elektron qaimə-fakturalar" sözləri ilə, 2-ci abzasında (hər iki halda) "e-VHF-nin" sözləri "elektron qaimə-fakturanın" sözləri ilə əvəz edilsin;

5.2.5. 5.2-ci bənddə "vergi-hesab faktura" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

5.2.6. 5.3-cü bəndin birinci, ikinci və üçüncü cümlələrində ismin müvafiq hallarında "E-VHF" sözləri ismin müvafiq hallarında "Elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin və həmin bəndin üçüncü cümləsindən ", Azərbaycan Respublikası Vergi Məcəlləsinin 176.2-1-ci maddəsinə əsasən," sözləri çıxarılsın;

5.2.7. 6.3-cü bənddə "E-VHF-nin" sözləri "Elektron qaimə-fakturanın" sözləri ilə əvəz edilsin;

5.2.8. 6.6-cı bənddə "e-VHF-lər" sözləri "elektron qaimə-fakturalar" sözləri ilə əvəz edilsin.

6. "Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 20 fevral tarixli 1252 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 196, № 4, maddə 549, № 6, maddə 1074) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.3-cü bənddə "vergi hesab-fakturasının" sözləri "qaimə-fakturanın" sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş "Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası" üzrə:

6.2.1. 1.4-cü bənddə "vergi hesab-fakturası" sözləri "qaimə-faktura" sözləri ilə əvəz edilsin;

6.2.2. 2.0.4-cü yarımbənddə "vergi hesab-fakturalarının (bundan sonra - e-VHF)" sözləri "qaimə-fakturaların" sözləri ilə, "e-VHF-lər" sözləri "elektron qaimə-fakturalar" sözləri ilə əvəz edilsin;

6.2.3. 3-cü hissədə, 4.1-ci, 6.9-cu, 6.10-cu və 6.11-ci bəndlərdə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin;

6.2.4. 4.2.2-ci yarımbəndin 1-ci abzasında "e-VHF-nin" sözləri "elektron qaimə-fakturanın" sözləri ilə, "e-VHF-lər" sözləri "elektron qaimə-fakturalar" sözləri ilə, 2-ci abzasında (hər iki halda) "e-VHF-nin" sözləri "elektron qaimə-fakturanın" sözləri ilə əvəz edilsin;

6.2.5. 5.3-cü bənddə "e-VHF-ni" sözləri "qaimə-fakturanı" sözləri ilə və "Azərbaycan Respublikası Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-faktura" sözləri "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

6.2.6. 5.3.1-ci, 5.3.7-ci yarımbəndlərdə, 5.6-cı bənddə, 6.1.1-ci, 6.1.2-ci yarımbəndlərdə, 6.1.3-cü yarımbəndin üçüncü cümləsində (hər iki halda), 6.1.4-cü yarımbənddə, 6.2-ci bəndin birinci, üçüncü və dördüncü (hər iki halda) cümlələrində, 6.4-cü, 6.5-ci bəndlərdə və 6.12-ci bəndin birinci cümləsində (hər iki halda) ismin müvafiq hallarında "e-VHF" sözləri ismin müvafiq hallarında "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

6.2.7. 5.4-cü bəndin birinci, ikinci və üçüncü cümlələrində və 6.3-cü bənddə ismin müvafiq hallarında "E-VHF" sözləri ismin müvafiq hallarında "Elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

6.2.8. 5.5-ci bəndin birinci cümləsində "e-VHF-nin" sözləri "elektron qaimə-fakturanın" sözləri ilə, "vergi hesab-fakturası" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

6.2.9. 6.6-cı bənddə "e-VHF-lər" sözləri "elektron qaimə-fakturalar" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 aprel tarixli 1341 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 4, maddə 555) ilə təsdiq edilmiş "İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.1.1-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura tələb edilir və belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

7.2. 3.1.2-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir və belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

7.3. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda, "Malların alış aktı" və malların alışı tarixindən 5 gün müddətində "Malların elektron alış aktı" tərtib edilir. "Malların elektron alış aktı" çap edilərək vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən imzalandığı halda həmin sənəd malların alışını təsdiq edən sənəd hesab edilir və kağız daşıyıcıda "Malların alış aktı" tərtib edilmir. "Malların alış aktı"nda ("Malların elektron alış aktı"nda) satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir. Belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir.";

7.4. 3.3-cü bəndin birinci və ikinci (hər iki halda) cümlələrində "vəkalətnamə (etibarnamə)" sözləri "malların alınması üçün vəkalətnamə" sözləri ilə, həmin bəndin ikinci cümləsində "qaimə-fakturanı və ya elektron qaimə-fakturanı, yaxud elektron vergi hesab-fakturasını və ya "Malların alış aktı"nı təhtəlhesab şəxsə təqdim edir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

7.5. 3.4-cü bəndin birinci cümləsində "sənəd və malların anbara təhvil verilməsi ilə bağlı tərtib olunan "Malların təhvil-qəbul aktı" ilə" sözləri "sənədlə" sözü ilə əvəz edilsin;

7.6. 3.5-ci bəndin birinci və ikinci cümlələrində "sənədləşdirilir" sözü "sənədləşdirilməklə elektron və ya kağız daşıyıcıda uçota alınır" sözləri ilə əvəz edilsin;

7.7. aşağıdakı məzmunda 3.10 - 3.14-cü bəndlər əlavə edilsin:

"3.10. Bu Qaydanın 3.1.1-ci, 3.1.2-ci yarımbəndləri və 3.2-ci bəndi ilə müəyyən edilmiş qaydada malların anbara təhvil verilməsi zamanı hər hansı uyğunsuzluq (əskik gəlmə, keyfiyyətin aşağı olması, xarab və ya zay olma və s.) aşkar edildikdə "Malların təhvil-qəbul aktı" tərtib olunur.

3.11. Vergi ödəyicisi kimi qeydiyyatda olan, lakin elektron kabineti olmayan alıcıya "Elektron qaimə-faktura" ştrix-kod əks olunmaqla çap edilir və mal (iş, xidmət) hüquqi şəxs olan vergi ödəyicisinin imza və möhürü ilə, fiziki şəxs olan vergi ödəyicisinin isə imzası ilə təsdiqlənməklə təqdim edilir.

3.12. Vergi ödəyiciləri tərəfindən mallar təqdim edilərkən malların təhvil verilməsi üçün maddi-məsul şəxslərin imzası ilə "Elektron qaimə-faktura"nın çap edilmiş forması ilkin uçot sənədi kimi tərtib edilə bilər.

3.13. Vergi ödəyicisi əvvəlcədən sifariş edilməyən malların satışını həyata keçirdikdə həmin mallar digər vergi ödəyicisinə "Malların təhvil-qəbul aktı" üzrə təqdim edilir və həmin mallar üzrə "Elektron qaimə-faktura" bu Qaydaya uyğun olaraq göndərilir.

3.14. İctimai iaşə sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri digər şəxslərdən məsuliyyətli mühafizə (saxlanma) və ya qida (yeyinti) məhsullarının hazırlanması (bişirilməsi) üçün qəbul edilmiş məhsulları "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirir və həmin sənədlərdə göstərilən qiymətlərlə uçota alırlar. Malların qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanır.";

7.8. 4.4-cü və 4.6-cı bəndlərdə "qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

7.9. 7-ci hissənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydada nəzərdə tutulan "Elektron qaimə-faktura", "Malların elektron alış aktı", "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" istisna olmaqla, "Malların təhvil-qəbul aktı", "Malların alış aktı", "Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası", "Malların qaytarılması aktı", "Alış sifarişi", "Malların anbardan mətbəxə buraxılışı qaimə-fakturası", "Malların mətbəxdən anbara qaytarılmasi aktı", "İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt", "Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi və xarab və ya zay olması barədə akt" və "Satışın nəticələrinə görə malların (məhsulların) silinməsi barədə akt" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi formada vergi ödəyicisi tərəfindən kağız və ya elektron daşıyıcıda hazırlanaraq tətbiq edilir. "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" ciddi hesabat blanklarıdır, onların forma və rekvizitlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təsdiq edir.";

7.10. həmin Fərmanla təsdiq edilmiş "Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası" üzrə:

7.10.1. 1.3.1-ci yarımbənddə "qaimə-faktura, yaxud elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

7.10.2. 3.1.1-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura tələb edilir və belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

7.10.3. 3.1.2-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir və belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron sistem vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

7.10.4. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda, "Malların alış aktı" və malların alışı tarixindən 5 gün müddətində "Malların elektron alış aktı" tərtib edilir. "Malların elektron alış aktı" çap edilərək vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən imzalandığı halda həmin sənəd malların alışını təsdiq edən sənəd hesab edilir və kağız daşıyıcıda "Malların alış aktı" tərtib edilmir. "Malların alış aktı"nda ("Malların elektron alış aktı"nda) satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir. Belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir.";

7.10.5. 3.3-cü bəndin birinci və ikinci (hər iki halda) cümlələrində "vəkalətnamə (etibarnamə)" sözləri "malların alınması üçün vəkalətnamə" sözləri ilə, həmin bəndin ikinci cümləsində "qaimə-fakturanı və ya elektron qaimə-fakturanı, yaxud elektron vergi hesab-fakturasını və ya "Malların alış aktı"nı təhtəlhesab şəxsə təqdim edir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

7.10.6. 3.4-cü bəndin birinci cümləsində "sənəd və malların anbara təhvil verilməsi ilə bağlı tərtib olunan "Malların təhvil-qəbul aktı" ilə" sözləri "sənədlə" sözü ilə əvəz edilsin;

7.10.7. 3.5-ci bəndin birinci və ikinci cümlələrində "sənədləşdirilir" sözü "sənədləşdirilməklə elektron və ya kağız daşıyıcıda uçota alınır" sözləri ilə əvəz edilsin;

7.10.8. aşağıdakı məzmunda 3.13 - 3.17-ci bəndlər əlavə edilsin:

"3.13. Bu Qaydanın 3.1.1-ci, 3.1.2-ci yarımbəndləri və 3.2-ci bəndi ilə müəyyən edilmiş qaydada malların anbara təhvil verilməsi zamanı hər hansı uyğunsuzluq (əskik gəlmə, keyfiyyətin aşağı olması, xarab və ya zay olma və s.) aşkar edildikdə, "Malların təhvil-qəbul aktı" tərtib olunur.

3.14. Vergi ödəyicisi kimi qeydiyyatda olan, lakin elektron kabineti olmayan alıcıya "Elektron qaimə-faktura" ştrix-kod əks olunmaqla çap edilir və mal (iş, xidmət) hüquqi şəxs olan vergi ödəyicisinin imza və möhürü ilə, fiziki şəxs olan vergi ödəyicisinin isə imzası ilə (möhür olduqda möhürlə) təsdiqlənməklə təqdim edilir.

3.15. Vergi ödəyiciləri tərəfindən mallar təqdim edilərkən malların təhvil verilməsi üçün maddi-məsul şəxslərin imzası ilə "Elektron qaimə-faktura"nın çap edilmiş forması ilkin uçot sənədi kimi tərtib edilə bilər.

3.16. Vergi ödəyicisi əvvəlcədən sifariş edilməyən malların satışını həyata keçirdikdə həmin mallar digər vergi ödəyicisinə "Malların təhvil-qəbul aktı" üzrə təqdim edilir və həmin mallar üzrə "Elektron qaimə-faktura" bu Qaydaya uyğun olaraq göndərilir.

3.17. Pərakəndə ticarət sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri digər şəxslərdən komissiyaya və ya məsuliyyətli mühafizəyə qəbul edilmiş malları "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirirlər və həmin sənədlərdə göstərilən qiymətlərlə uçota alırlar. Malların qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanır.";

7.10.9. 4.1-ci bəndin ikinci və üçüncü cümlələrində müvafiq olaraq "qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası" və "qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

7.10.10. 7-ci hissənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydada nəzərdə tutulan "Elektron qaimə-faktura", "Malların elektron alış aktı", "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" istisna olmaqla, "Malların təhvil-qəbul aktı", "Malların alış aktı", "Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası", "Malların qaytarılması aktı", "İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt" və "Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi və xarab və ya zay olması barədə akt" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi formada vergi ödəyicisi tərəfindən kağız və ya elektron daşıyıcıda hazırlanaraq tətbiq edilir. "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" ciddi hesabat blanklarıdır və onların forma və rekvizitlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təsdiq edir.".

8. "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1358 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 762, № 11, maddə 2023, № 12 (I kitab), maddə 2343; 2018, № 6, maddə 1235, № 9, maddə 1842, № 12 (I kitab), maddələr 2555, 2603; 2019, № 1, maddə 95, № 3, maddə 435, № 4, maddə 645, № 6, maddələr 1038, 1044, № 8, maddələr 1396, 1404; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 2 iyul tarixli 766 nömrəli, 12 noyabr tarixli 851 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.20-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.21-ci və 2.22-ci bəndlər əlavə edilsin:

"2.21. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-9.2-ci maddəsinə uyğun olaraq həmin Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq olunan maliyyə sanksiyalarının 50 faizi aşağıdakı kimi bölüşdürülür:

2.21.1. 5 faiz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülür;

2.21.2. 22,5 faiz Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülür;

2.21.3. 22,5 faiz İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Agentliyin hesabına köçürülür;

2.22. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-9.2-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən sığorta haqqının ödənilməsinin gecikdirilməsinə görə hesablanan faiz məbləğinin 30 faizi aşağıdakı kimi bölüşdürülür:

2.22.1. 5 faiz Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikasının Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülür;

2.22.2. 12,5 faiz Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Nazirliyin hesabına köçürülür;

2.22.3. 12,5 faiz İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin maddi-texniki bazasını və işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə həmin Agentliyin hesabına köçürülür.";

8.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində və Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətində işləyən dövlət qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının hesabına köçürülən vəsaitdən istifadə Qaydası" üzrə:

8.2.1. 2.1.20-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.21-ci yarımbənd əlavə edilsin:

"2.1.21. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-9.1-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq olunan və dövlət büdcəsinə daxil olan maliyyə sanksiyası, habelə sığorta haqqının ödənilməsinin gecikdirilməsinə görə hesablanan faiz məbləği.";

8.3. həmin Qaydaya Əlavənin "Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xüsusi xəzinə hesabına köçürülən vəsait barədə məlumat" cədvəlinə aşağıdakı məzmunda 21-ci hissə əlavə edilsin:

| | | | | | |
|---|---|---|---|---|---|
| 21. | "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-9.2-ci maddəsinə əsasən həmin Qanunun tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanları tərəfindən tətbiq edilən maliyyə sanksiyası və sığorta haqqının ödənilməsinin gecikdirilməsinə görə hesablanan faiz məbləği | | | | |

9. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 16 iyun tarixli 1460 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1076) ilə təsdiq edilmiş "Topdansatış ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

9.1. 1.3.1-ci yarımbənddə "qaimə faktura və ya elektron-qaimə faktura və ya elektron vergi hesab-faktura" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

9.2. 3.1.1-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura tələb edilir və belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

9.3. 3.1.2-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir və belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron sistem vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

9.4. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda, "Malların alış aktı" və malların alışı tarixindən 5 gün müddətində "Malların elektron alış aktı" tərtib edilir. "Malların elektron alış aktı" çap edilərək vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən imzalandığı halda həmin sənəd malların alışını təsdiq edən sənəd hesab edilir və kağız daşıyıcıda "Malların alış aktı" tərtib edilmir. "Malların alış aktı"nda ("Malların elektron alış aktı"nda) satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir. Belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir.";

9.5. 3.3-cü bəndin birinci və ikinci (hər iki halda) cümlələrində "vəkalətnamə (etibarnamə)" sözləri "Malların alınması üçün vəkalətnamə" sözləri ilə, həmin bəndin ikinci cümləsində "qaimə-fakturanı və ya elektron qaimə-fakturanı, yaxud elektron vergi hesab-fakturasını təhtəlhesab şəxsə təqdim edir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

9.6. 3.4-cü bəndin birinci cümləsində "sənəd və malların anbara təhvil verilməsi ilə bağlı tərtib olunan "Malların təhvil-qəbul aktı" ilə" sözləri "sənədlə" sözü ilə əvəz edilsin;

9.7. 3.5-ci bəndin birinci və ikinci cümlələrində "sənədləşdirilir" sözü "sənədləşdirilməklə elektron və ya kağız daşıyıcıda uçota alınır" sözləri ilə əvəz edilsin;

9.8. aşağıdakı məzmunda 3.13 - 3.16-cı bəndlər əlavə edilsin:

"3.13. Bu Qaydanın 3.1.1-ci, 3.1.2-ci yarımbəndləri və 3.2-ci bəndi ilə müəyyən edilmiş qaydada malların anbara təhvil verilməsi zamanı hər hansı uyğunsuzluq (əskik gəlmə, keyfiyyətin aşağı olması, xarab və ya zay olma və s.) aşkar edildikdə "Malların təhvil-qəbul aktı" tərtib olunur.

3.14. Vergi ödəyicisi kimi qeydiyyatda olan, lakin elektron kabineti olmayan alıcıya "Elektron qaimə-faktura" ştrix-kod əks olunmaqla çap edilir və mal (iş, xidmət) hüquqi şəxs olan vergi ödəyicisinin imza və möhürü ilə, fiziki şəxs olan vergi ödəyicisinin isə imzası ilə (möhür olduqda möhürlə) təsdiqlənməklə təqdim edilir.

3.15. Vergi ödəyiciləri tərəfindən mallar təqdim edilərkən malların təhvil verilməsi üçün maddi-məsul şəxslərin imzası ilə "Elektron qaimə-faktura"nın çap edilmiş forması ilkin uçot sənədi kimi tərtib edilə bilər.

3.16. Vergi ödəyicisi əvvəlcədən sifariş edilməyən malların satışını həyata keçirdikdə həmin mallar digər vergi ödəyicisinə "Malların təhvil-qəbul aktı" üzrə təqdim edilir və həmin mallar üzrə "Elektron qaimə-faktura" bu Qaydaya uyğun olaraq göndərilir.";

9.9. 4.1-ci bəndin birinci və ikinci cümlələrində "qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-faktura" sözləri və "qaimə-faktura və ya elektron qaimə-faktura, yaxud elektron vergi hesab-fakturası" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

9.10. 4.2-ci bənd ləğv edilsin;

9.11. 7-ci hissənin mətni aşağıdakı redaksiyada verilsin:

***Ardı 7-ci səh.***

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Əvvəli 6-cı səh.

"Bu Qaydada nəzərdə tutulan "Elektron qaimə-faktura", "Malların elektron alış aktı", "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" istisna olmaqla, "Malların təhvil-qəbul aktı", "Malların alış aktı", "Malların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası", "Malların qaytarılması aktı", "İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt" və "Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi və xarab və ya zay olması barədə akt" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi formada vergi ödəyicisi tərəfindən kağız və ya elektron daşıyıcıda hazırlanaraq tətbiq edilir. "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" ciddi hesabat blanklarıdır, onların forma və rekvizitlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təsdiq edir.";

9.12. həmin Fərmanla təsdiq edilmiş "İstehsal fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması Qaydası" üzrə:

9.12.1. 3.1.1-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura tələb edilir və belə malların anbara təhvil verilməsi "İstehsal ehtiyatlarının təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (bundan sonra - Dövlət Vergi Xidməti) İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

9.12.2. 3.1.2-ci yarımbənddə "qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturasının da verilməsi tələb edilir və belə malların anbara təhvil verilməsi "İstehsal ehtiyatlarının təhvil-qəbul aktı" ilə sənədləşdirilir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron sistem vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

9.12.3. 3.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.2. Mallar vergi orqanında uçotda olmayan şəxslərdən alındıqda, "İstehsal ehtiyatlarının alış aktı" və malların alış tarixindən 5 gün müddətində "Malların elektron alış aktı" tərtib edilir. "Malların elektron alış aktı" çap edilərək vergi orqanında uçotda olmayan fiziki şəxs tərəfindən imzalandığı halda həmin sənəd malların alışını təsdiq edən sənəd hesab edilir və kağız daşıyıcıda "Malların alış aktı" tərtib edilmir. "İstehsal ehtiyatlarının alış aktı"nda ("Malların elektron alış aktı"nda) satıcının şəxsiyyətini təsdiq edən sənədin məlumatlarının (FİN, seriyası və nömrəsi) göstərilməsi mütləqdir. Belə malların anbara təhvil verilməsi "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirilir.";

9.12.4. 3.3-cü bəndin birinci və ikinci (hər iki halda) cümlələrində "vəkalətnamə (etibarnamə)" sözləri "Malların alınması üçün vəkalətnamə" sözləri ilə, həmin bəndin ikinci cümləsində "qaimə-fakturanı və ya elektron qaimə-fakturanı, yaxud elektron vergi hesab-fakturasını təhtəlhesab şəxsə təqdim edir" sözləri "elektron qaimə-fakturanı malgöndərən Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsi portalında elektron qaimə-faktura sistemi vasitəsilə hazırlayır və avtomatik olaraq alıcının elektron kabinetinə ötürür" sözləri ilə əvəz edilsin;

9.12.5. 3.4-cü bəndin birinci cümləsində "sənəd və istehsal ehtiyatlarının anbara və ya istehsal sahələrinə təhvil verilməsi ilə bağlı tərtib olunan "İstehsal ehtiyatlarının təhvil-qəbul aktı" ilə" sözləri "sənədlə" sözü ilə əvəz edilsin;

9.12.6. 3.5-ci bənddə hər iki halda "sənədləşdirilir" sözü "sənədləşdirilməklə elektron və ya kağız daşıyıcıda uçota alınır" sözləri ilə əvəz edilsin;

9.12.7. aşağıdakı məzmunda 3.8 - 3.12-ci bəndlər əlavə edilsin:

"3.8. Bu Qaydanın 3.1.1-ci, 3.1.2-ci yarımbəndləri və 3.2-ci bəndi ilə müəyyən edilmiş qaydada malların anbara təhvil verilməsi zamanı hər hansı uyğunsuzluq aşkar edildikdə "İstehsal ehtiyatlarının təhvil-qəbul aktı" tərtib olunur.

3.9. Vergi ödəyicisi kimi qeydiyyatda olan, lakin elektron kabineti olmayan alıcıya "Elektron qaimə-faktura" ştrix-kod əks olunmaqla çap edilir və mal (iş, xidmət) hüquqi şəxs olan vergi ödəyicisinin imzası və möhürü ilə, fiziki şəxs olan vergi ödəyicisinin isə imzası ilə (möhür olduqda möhürlə) təsdiqlənməklə təqdim edilir.

3.10. Vergi ödəyiciləri tərəfindən mallar təqdim edilərkən işgüzar adətlərdən irəli gələrək malların təhvil verilməsi üçün maddi-məsul şəxslərin imzası ilə "Elektron qaimə-faktura"nın çap edilmiş forması ilkin uçot sənədi kimi tərtib edilə bilər.

3.11. Vergi ödəyicisi əvvəlcədən sifariş edilməyən malların satışını həyata keçirdikdə həmin mallar digər vergi ödəyicisinə "Malların təhvil-qəbul aktı" üzrə təqdim edilir və həmin mallar üzrə "Elektron qaimə-faktura" bu Qaydaya uyğun olaraq göndərilir.

3.12. İstehsal sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri digər şəxslərdən məsuliyyəti mühafizə (saxlanma) və ya emal üçün qəbul edilmiş mal və materialları "Malların təhvil-qəbul aktı" ilə sənədləşdirir və həmin sənəddə göstərilən qiymətlərlə uçota alırlar. Malların qəbul edilməsi ilə bağlı tərəflər arasında müqavilə bağlanır.";

9.12.8. 6.1-ci bənddən "qaimə-faktura və ya" sözləri çıxarılsın;

9.12.9. 6.2-ci bənddə "qaimə-faktura və ya elektron qaimə-faktura ilə yanaşı, elektron vergi hesab-fakturası da" sözləri "elektron qaimə-faktura" sözləri ilə əvəz edilsin;

9.12.10. 6.3-cü bəndin birinci və ikinci (hər iki halda) cümlələrində "vəkalətnamə (etibarnamə)" sözləri "Malların alınması üçün vəkalətnamə" sözləri ilə, həmin bəndin ikinci cümləsində "qaimə-fakturanı və ya elektron qaimə-fakturanı, yaxud elektron vergi hesab-fakturasını" sözləri "elektron qaimə-fakturanı" sözləri ilə əvəz edilsin;";

9.12.11. 9-cu hissənin mətni aşağıdakı redaksiyada verilsin:

"Bu Qaydada nəzərdə tutulan "Elektron qaimə-faktura", "İstehsal ehtiyatlarının elektron alış aktı", "Malların alınması üçün vəkalətnamə" və "Yük avtonəqliyyatı üçün yol vərəqi" istisna olmaqla, "İstehsal ehtiyatlarının təhvil-qəbul aktı", "İstehsal ehtiyatlarının alış aktı", "İstehsal ehtiyatlarının təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası", "Malların (hazır məhsulların) təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası", "Alış sifarişi", "Hazır məhsulların təhvil-qəbul aktı", "İstehsal ehtiyatlarının buraxılışı tələbnaməsi", "İstehsal ehtiyatlarının istehsala buraxılışı qaimə-fakturası", "Köməkçi istehsal məhsullarının əsas istehsala buraxılışı qaimə-fakturası", "Zay məhsullara dair akt", "Zay məhsulların təhvil-qəbul aktı", "İtmiş, əskik gəlmiş, xarab və ya zay olmuş və oğurlanmış mallar barədə akt", "Hazır məhsulların təsərrüfatdaxili yerdəyişməsi qaimə-fakturası" və "Fövqəladə hallarda malların itməsi, əskik gəlməsi və xarab və ya zay olması barədə akt" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi formada vergi ödəyicisi tərəfindən kağız və ya elektron daşıyıcıda hazırlanaraq tətbiq edilir. "Yük avtonəqliyyatı üçün yol vərəqi" və "Malların alınması üçün vəkalətnamə" ciddi hesabat blanklarıdır, onların forma və rekvizitlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi təsdiq edir.".

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

11. Bu Fərman 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

# "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. "Elektron kənd təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin fəaliyyətinin təşkili, saxlanması və ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

2.2. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti ilə birgə "Elektron kənd təsərrüfatı" informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

3. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq "Elektron kənd təsərrüfatı" informasiya sisteminin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin nümunəvi formasını 15 gün müddətində müəyyən edərək Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Bu Fərmanın 1-ci hissəsi 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2019-cu il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1720-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1720-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.4-cü maddəsinə uyğun olaraq, "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın layihəsini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.4-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2.2. Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 65.2, 115.4 (ikinci halda), 118.3, 118.5-118.8, 118.9 (hər iki halda), 118.11, 118.12, 118.13 (hər üç halda), 118.14, 118.18, 118.22, 118.23, 119.1, 119.3, 119.5 (hər iki halda), 119.7, 119.8, 119.10, 119-1.1, 124.4, 130.2, 130.4 (hər iki halda), 130.5-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

2.3. həmin Məcəllənin 118.20-ci və 131.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

2.4. həmin Qanunun 114.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları həyata keçirirlər;

2.5. həmin Məcəllənin 115.4-cü (birinci halda) maddəsində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları həyata keçirirlər.

3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2019-cu il noyabrın 1-dək mərkəzləşdirilmiş uçota alınan valideyn himayəsindən məhrum olmuş uşaqlar barədə məlumatların Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bir ay müddətində verilməsini təmin etsinlər.

4. Yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları 2019-cu il noyabrın 1-dək məhkəmələrin icraatında olan övladlığa götürmə ilə bağlı işlər üzrə övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu barədə rəy verilməsinə dair həmin orqanların topladıqları sənədlərin Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bir ay müddətində verilməsini təmin etsinlər.

5. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarxli 297 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164; 2002, № 7, maddə 412, № 8, maddə 478, № 12, maddə 716; 2003, № 6, maddə 290; 2004, № 7, maddə 526; 2006, № 12, maddə 1034; 2007, № 3, maddə 226, № 11, maddə 1105; 2010, № 5, maddə 393; № 7, maddə 613, № 8, maddə 722; 2019, № 5, maddə 818) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissə üzrə:

5.1.1. ikinci abzasdan "115.6," və "119.2," rəqəmləri çıxarılsın;

5.1.2. dördüncü abzasdan "118.3, 131.4 (birinci halda)," sözləri çıxarılsın;

5.1.3. doqquzuncu abzasda "114.2 (birinci halda)" sözləri "114.2, 114.3" rəqəmləri ilə, "115.4 (birinci halda)" sözləri "115.3" rəqəmləri ilə əvəz edilsin və həmin abzasdan "115.7" rəqəmləri, "122.1, 122.4 (birinci halda), 131.4 (ikinci halda), 134.3," sözləri və ",178.2" rəqəmləri çıxarılsın;

5.1.4. on birinci, on ikinci və on üçüncü abzaslar aşağıdakı redaksiyada verilsin:

"həmin Məcəllənin 65.2, 115.4 (ikinci halda), 118.3, 118.5-118.8, 118.9 (hər iki halda), 118.11, 118.12, 118.13 (hər üç halda), 118.14, 118.18, 118.22, 118.23, 119.1, 119.3, 119.5 (hər iki halda), 119.7, 119.8, 119.10, 119-1.1, 122.1, 124.4, 130.2, 130.4 (hər iki halda), 130.5, 131.2, 133, 134.13, 155.5, 178.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;

həmin Məcəllənin 118.20-ci və 131.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirirlər;

həmin Məcəllənin 115.4 (birinci halda), 115.7-ci maddələrində müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları həyata keçirirlər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2019-cu il*

# Vergi Məcəlləsində gələn ildən ediləcək dəyişikliklərlə bağlı mətbuat konfransı keçirilib

**Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanun və bu qanunun tətbiqinə dair fərmandan irəli gələn məsələlərlə əlaqədar dekabrın 27-də Vergilər Nazirliyində kütləvi informasiya vasitələri üçün mətbuat konfransı keçirilib.**




AZƏRTAC xəbər verir ki, Vergilər nazirinin müavini Sahib Ələkbərov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasətinin iqtisadiyyatın müasir tələblərinə uyğun təkmilləşdirildiyini deyib. Bu işlərin davamı olaraq sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması məqsədilə vergi qanunvericiliyində bir sıra dəyişikliklər edilib.

Vurğulanıb ki, ədalətli rəqabət mühitinin formalaşdırılmasını təmin etmək üçün məcəlləyə bir sıra stimullaşdırıcı maddələr əlavə olunub, qanunu bilərəkdən pozan, əvvəlcədən düşünülmüş şəkildə vergidən yayınmağa cəhd göstərən vergi ödəyicilərinə tətbiq olunacaq sanksiyalar sərtləşdirilib.

Sonra Vergilər Nazirliyinin Vergi Siyasəti Baş İdarəsinin rəisi Samirə Musayeva Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərin əsas istiqamətləri, iqtisadi hədəfləri və alətləri barədə ətraflı məlumat verib.

Qeyd olunub ki, Vergi Məcəlləsində edilmiş dəyişiklikləri iqtisadi hədəflər və islahatın məqsədləri baxımından 7 əsas istiqamət üzrə təsnifləşdirmək olar. Bunlar bərabər və şəffaf fiskal mühitin təmin edilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, sahibkarların inzibatçılıq yükünün aşağı salınması, sahibkarlıq fəaliyyətinin təşviq olunması, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin və sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergitutma bazasının genişləndirilməsi, beynəlxalq vergitutma və məlumat mübadiləsi üzrə öhdəliklərin yerinə yetirilməsi kimi məqsədləri əhatə edir.

S.Musayeva ədalətli rəqabətin şərti kimi bərabər və şəffaf fiskal mühitin təmin edilməsinin əsas məqsədlərdən biri olduğunu və bu hədəf qrupu üzrə müəyyən edilmiş dəyişikliklərin şərti olaraq 3 istiqaməti - əmtəəsiz əməliyyatlar aparan vergi ödəyicilərinə qarşı mübarizənin aparılması, riskli vergi ödəyicilərinə nəzarətin gücləndirilməsi və vergidən yayınma hallarının miqyasının azaldılmasını əhatə etdiyini bildirib.

Vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətinə toxunan idarə rəisi qarşıdakı ildən etibarən ƏDV-nin kassa metodu əsasında hesablanmasının mütərəqqi yenilik olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, vergi ödəyicilərinin xeyli hissəsi bu dəyişikliyə qədər mövcud olan qaydanın onlara inzibatçılığın qurulmasında müəyyən çətinliklər yaratdığı və əlavə maliyyə yükü ilə üzləşdikləri ilə bağlı məsələ qaldırmışdılar. Yeni dəyişikliklər ƏDV ödəyiciləri tərəfindən ƏDV tutulan əməliyyatın vaxtının müəyyən olunmasında inzibatçılığı əhəmiyyətli dərəcədə yüngülləşdirməklə yanaşı, vergiödəyicisinin maliyyə vəsaitinə qənaət etməsinə gətirib çıxaracaq.

Bildirilib ki, sahibkarların inzibatçılıq yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi istiqaməti üzrə Vergi Məcəlləsində elektron vergi hesab-fakturasının və elektron qaimə-fakturanın vahid sənədlə - elektron qaimə-faktura ilə əvəz edilməsi, vergi orqanında uçotda olmayan şəxslərdən alınmış mallara görə tərtib edilən "Malların alış aktı" ciddi hesabat blankının elektronlaşdırılması, agent qaydasında aparılan əməliyyatlar üzrə sənədləşmənin daha çevik qaydada tənzimlənməsi ilə bağlı dəyişikliklər edilib. Sosial xarakterli güzəştlər vasitəsilə əhalinin maliyyə (vergi) yükünün azaldılması istiqaməti vətəndaşların rifah halının yaxşılaşdırılması məqsədi daşıyır. Belə ki, quş əti satışının ƏDV-dən azadolma müddətinin daha 4 il müddətinə uzadılması, habelə heyvan ətinin satışının 4 il ərzində ƏDV-dən azad edilməsi, fiziki şəxslər tərəfindən vergidən azad olunmaqla təqdim edilən yaşayış sahəsində azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olma müddətinin 3 təqvim ilinə endirilməsi, fiziki şəxslərin xüsusi mülkiyyətində olan yaşayış sahələrinin təqdim edilməsi zamanı yaşayış sahəsinin 30 kvadratmetrinin istisnasız olaraq vergidən azad edilməsi bu qəbildən olan dəyişikliklərdir.

Qeyd edilib ki, qanunvericilikdə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması ilə bağlı da bir sıra dəyişikliklər olunub. Sabit qəbz almaqla vergi ödəyən fiziki şəxslərin sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğinin azaldılması, heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin satışı üzrə dövriyyələrin ƏDV-dən azad edilməsi, vergiödəyicisi tərəfindən quraşdırılan yeni nəsil nəzarət-kassa aparatına çəkilən xərclərin müəyyən olunmuş hədd daxilində onun vergi öhdəlikləri ilə əvəzləşdirilməsi, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən tikilən binalardan dövlətə ayrılan hissəyə güzəştin verilməsi, sənaye və texnologiyalar parklarının rezidentlərinə verilən vergi güzəştlərinin müddətinin 7 ildən 10 ilədək artırılması məhz sahibkarların vergi yükünün azalması ilə nəticələnəcək.

Bildirilib ki, bir sıra aksizli malların aksiz dərəcələrinin artırılması, digər malların aksiz dərəcələrinin optimallaşdırılması, tündləşdirilməmiş alkoqollu içkilərin aksizli malların siyahısına əlavə olunması və aksizli mallar üzərində vergi nəzarətinin təkmilləşdirilməsi ilə bağlı dəyişikliklər, habelə bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergitutma metodunun ləğv edilməsi və həmin şəxslərin vahid vergi rejimində fəaliyyət göstərməsinin təmin olunması, hüquqi şəxslər tərəfindən mülkiyyətində yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsinin notarius tərəfindən sadələşdirilmiş vergiyə cəlb olunmasının ləğv edilməsi və həmin əməliyyatların ƏDV-yə və mənfəət vergisinə cəlb edilməsi kimi dəyişikliklər isə vergitutma bazasının genişləndirilməsi məqsədini daşıyır.

Qanunvericiliyə beynəlxalq vergitutma və məlumat mübadiləsi üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı edilmiş mühüm dəyişikliklər barədə də məlumat verən S.Musayeva deyib ki, Vergi Məcəlləsində ilk dəfə olaraq Transmilli Şirkətlər Qrupu anlayışı daxil edilib və bu qrupa daxil olan rezident müəssisələr tərəfindən müəyyən şərtlər daxilində vergi orqanına hesabat təqdim edilməlidir.

Sonda KİV nümayəndələrinin sualları cavablandırılıb.

# İlahiyyat İnstitutunun tələbələri dağ yəhudiləri sinaqoqunu ziyarət ediblər

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) birinci kurs tələbələri paytaxtdakı dağ yəhudiləri sinaqoqunu ziyarət ediblər.



Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev tələbələrə Azərbaycanda yaşayan yəhudilər haqqında məlumat verib. O, yəhudilərin ölkəmizdə uzun əsrlərboyu digər xalqların nümayəndələri ilə çiyin-çiyinə yaşadıqlarını, onların Azərbaycanda məskunlaşmasının 2000 ildən artıq tarixi olduğunu söyləyib. Qeyd edib ki, Azərbaycan həmişə müxtəlif konfessiyaların, xalqların birgə yaşadığı, tolerantlığın yüksək səviyyədə qorunduğu ölkə olub.

M.Yevdayev Azərbaycanın tolerantlıq rəmzi olduğunu və burada bütün dinlərin nümayəndələrinə eyni münasibətin və qayğının göstərildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan öz müsbət nümunəsi ilə müsəlmanların, yəhudilərin və xristianların sülh və qarşılıqlı hörmət şəraitində dinc yanaşı yaşamaq imkanlarını sübuta yetirir. Digər konfessiyaların nümayəndələri kimi yəhudi icmasının üzvləri də dini ayinlərini və adət-ənənələrini azad şəkildə həyata keçirirlər.

Daha sonra AİI tələbələrinin yəhudiliyin inanc və ibadətləri, tolerantlıq və multikulturalizm kontekstində Azərbaycanda fərqli dinlərə etiqad göstərənlərin birlikdə yaşama təcrübəsi mövzularında sualları cavablandırılıb.

Qeyd edək ki, AİI tələbələrin dünyagörüşünün formalaşdırılması, onların intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi, sosial məsuliyyət vərdişlərinin aşılanması, o cümlədən fərdi özünüifadə bacarıqlarının inkişaf etdirilməsi istiqamətində silsilə tədbirlərini davam etdirir. İnstitut tələbələrin Azərbaycanda mövcud müxtəlif dini ibadət ocaqlarını ziyarət etməsi, burada mövcud şərait, müxtəlif xalqların inanc və ibadət sistemi ilə əyani tanışlığı məqsədilə səfərlər təşkil edir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Elm xadimləri

# AZƏRBAYCAN SƏHİYYƏSİNİN BANİSİ

**Görkəmli dövlət və elm xadimi, Azərbaycan səhiyyəsinin böyük təşkilatçısı, tibb elmləri doktoru, professor Əziz Əliyevin tarixi xidmətlərini xalqımız daim yüksək qiymətləndirir. Yola saldığımız 2019-cu ilin noyabr ayının 26-da ölkə Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi həm də Azərbaycan səhiyyəsinin, tibb elmi və tibb təhsili sistemi işçilərinin böyük bayramına çevrildi. Belə ki, o dövrdə Bakı Dövlət Universitetinin təməlini qoyan alimlərin (V.Razumovski, İ.Şirokoqorov, S.Davidenko və b.) böyük əksəriyyəti BDU-da fəaliyyət göstərən və onun ilk iki fakültəsindən biri olan tibb fakültəsinin təşkilində, həmçinin Azərbaycan səhiyyəsinin sürətli inkişafında yaxından iştirak etmişdilər.**



Azərbaycanın görkəmli tibb alimlərindən Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Kamil Balakişiyev, Fuad Əfəndiyev, Ümnisə Musabəyli və digərləri ilə birlikdə böyük dövlət və elm xadimi, Azərbaycan səhiyyəsinin banisi, əməkdar həkim, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin də bu fakültənin və onun kafedralarının təşəkkül tapmasında müstəsna xidmətləri olmuşdur.

Görkəmli alimin şərəfli ömrünün bütöv bir hissəsi BDU-nun bazasında yaradılan Azərbaycan Dövlət Tibb İnstitutu (indi Azərbaycan Tibb Universiteti) və respublikanın Səhiyyə Nazirliyi ilə sıx əlaqədə keçmişdir.

## Ömür yolu: ağrılı-acılı, təlatümlü, çətinliklərlə dolu illər

1917-ci ildə İrəvan gimnaziyasını əla qiymətlərlə başa vuran Əziz Əliyev həkim olmaq arzusu ilə xeyriyyəçi-milyonçu Hacı Zeynalabdin Tağıyevdən maliyyə dəstəyi aldıqdan sonra Rusiyanın Sankt-Peterburq şəhərinə getmiş və orada dünyanın ən məşhur tibb ocaqlarından olan Hərbi Tibb Akademiyasına daxil olmuşdur. Bu, onun özünə, biliyinin gücünə inamından, fitri istedadından xəbər verirdi. Orada əla təhsillə yanaşı, dərsdənkənar vaxtlarda səpkili yatalaq əleyhinə təşkil edilmiş sanitariya-dezinfeksiya briqadasında işə düzələrək həm praktik tibbi vərdişlərə yiyələnmiş, həm də bunun müqabilində aldığı məvaciblə özünün və ailəsinin minimal xərclərini ödəyə bilmişdir.

Əziz Əliyev Sankt-Peterburq şəhərindəki Hərbi Tibb Akademiyasının birinci kursunu müvəffəqiyyətlə başa vurduqdan sonra 1918-ci ilin yay tətili günlərində doğma yurdu İrəvana qayıdır. Böyük həvəslə vətəninə - əzizlərinin yanına gələn gənc Əziz Əliyev İrəvandan evlərinin erməni millətçiləri tərəfindən işğal edildiyinin, daşnakların doğma yurdun və onun əsl sakinləri olan Azərbaycan türklərinin başlarına gətirdikləri işgəncələrin canlı şahidlərindən biri kimi ağır sarsıntılar keçirir. Əslində, müxtəlif dövrlərdə Azərbaycana köç etmiş vətənsiz - gəlmə ermənilər 1918-ci ildə həm də Qarabağda, Bakıda, Şamaxıda, Lənkəranda, Qubada və s. yurd yerlərimizdə Şaumyanın, Əmiryanın, Mikoyanın, qaniçən Andronikin, eyni zamanda bolşeviklərin rəhbərliyi ilə yerli azərbaycanlılara qarşı amansız soyqırımı aktları törədiblər.

Həmin illərin didərgin qurbanlarından biri də tariximizin parlaq simalarından birinə çevriləcək Əziz Əliyev və onun ailəsi olub. Bir müddət Naxçıvanın Şərur rayonunda və Şahtaxtı kəndində məskunlaşan didərgin ailələri burada da sakit buraxmayıblar. Erməni-bolşevik tandemi Naxçıvana silahlı basqınlar edərək qırğınlar, dağıntılar törədiblər. Soyqırımı dalğası bütöv Azərbaycanı bürüməkdə olanda əhalinin bir hissəsi Arazı adlayaraq Cənubi Azərbaycanın Ərəblər kəndinə keçib. Əziz Əliyevin də ailəsi onların arasında olub və anası bu işgəncələrə dözməyərək qürbətdə dünyasını dəyişib. Beləliklə, həmin illərdə azərbaycanlılara qarşı ermənilərin törətdikləri soyqırımı qırğınları Əziz Əliyevi Sankt-Peterburqda yarımçıq qalmış tibb təhsilini başa çatdırmaqdan da məhrum edib.

Qaynar gənclik illərində bu qədər ağır məhrumiyyətlərlə üzləşən Əziz Əliyev ara sakitləşəndən sonra təsadüfən salamat qalan həmvətənləri ilə birlikdə yenidən Naxçıvana qayıdıb, orada həkim köməkçisi qismində əhaliyə tibbi yardımlar göstərib. O, 1923-cü ildə yarımçıq qalmış ali tibb təhsilini davam etdirə bilmək ümidi ilə ailəsi ilə birlikdə Bakıya köçüb. O zaman Leyli xanımla təzəcə ailə qurmuşdu. Oğlu Tamerlan Əliyev 2 yaşında, qızı Zərifə xanım isə dünyaya təzəcə göz açmışdı. Bu andan etibarən Əziz Əliyevin həyat və yaradıcılığının mühüm bir mərhələsinin təməli qoyulub.

O, Bakıya gələn kimi Xalq Komissarları Şurasında işə düzəlir və ona həvalə edilən bütün tapşırıqları böyük müvəffəqiyyətlə yerinə yetirir. Orada iş icraçısı, ümumi şöbənin müdir müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq, özünü dövlət işlərinin mükəmməl təşkilatçı və qurucusu kimi göstərə bilir. Əziz Əliyev 1923-cü ildə yenidən qəbul imtahanı verərək Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olur. Bu, onun qətiyyətli, möhkəm iradəli, təmkinli və son dərəcədə fitri istedada malik bir gənc olduğunu təsdiqləyən faktlardandır. Bakı Dövlət Universitetinin rəhbərliyi onun 1927-ci ildə tibb fakültəsini bitirdikdən sonra daxili xəstəliklər kafedrasında saxlanması haqqında qərar qəbul edir. Əziz Əliyev bu dövrdə özünü artıq püxtələşmiş, bacarıqlı bir təşkilatçı kimi də göstərə bilir və həkimlik fəaliyyəti ilə yanaşı, ona həm də ən məsuliyyətli ictimai və dövlət əhəmiyyətli işlər də tapşırılırdı. O, bütün tapşırıqları son dərəcə dəqiqliklə yerinə yetirir, artıq ictimai xadim kimi formalaşırdı. Fədakar alim 1928-1929-cu illərdə Azərbaycan Xalq Səhiyyə Komissarlığında işə dəvət olunur və orada müalicə şöbəsinin müdiri vəzifəsində çalışmağa başlayır.

## O həm həkim, həm alim, həm də dövlət xadimi idi

Əziz Əliyev 1929-cu ildə Azərbaycan Klinik İnstitutunun direktoru vəzifəsinə təyin olunur. 1932-ci ilə qədər bu instituta rəhbərlik edərək respublikanın tanınmış idarə rəhbərlərindən biri kimi geniş şöhrət qazanır. BDU-nun tibb fakültəsi öz fəaliyyətini dayandırdıqdan sonra 1930-cu ilin mayında Azərbaycan Dövlət Tibb İnstitutu yaradılır. Mahir təhsil və səhiyyə təşkilatçısı kimi tanınan Əziz Əliyev də bu mühüm prosesin icrasına cəlb edilir. 1932-ci ilin iyun ayında isə o, Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru (rektoru) vəzifəsinə təyin edilir və 6 ilə yaxın bir müddətdə bu vəzifəni şərəflə yerinə yetirir.

Professor Əziz Əliyev bu məsuliyyətli işə başlamazdan əvvəl bütöv bir həyat məktəbi keçərək, kifayət qədər təcrübəyə malik olur. Ona görə də o, ilk günlərdən təşkilatçılıq bacarığının imkanlarından istifadə edib, biri-birinin ardınca hazırladığı layihələri reallaşdırmağa başlayır. Onu narahat edən məsələlərdən biri də milli kadrların yetişdirilməsi idi. Ona görə də yüksək ixtisaslı həkimlərin, elmi işçilərin hazırlanması üçün ilk növbədə ana dilində dəyərli ədəbiyyatın yaradılması əsas vəzifə kimi qarşıya qoyulurdu. O, aydın dərk edirdi ki, ədəbiyyatsız, dərsliklərsiz tibbi fənləri tədris etmək mümkünsüzdür. Ona görə də Əziz Əliyev tibbin müxtəlif ixtisasları üzrə səriştəsi olan azərbaycanlı alimləri qısa müddətdə bir araya toplayıb ana dilində dərsliklər yazmağa sövq edirdi. Az vaxt içərisində bilavasitə onun rəhbərliyi altında Azərbaycan dilində 55 adda dərslik çap edilərək tələbələrin ixtiyarına verildi. Əziz Əliyevin təşəbbüsü ilə işıq üzü görən əsərlərdən özünün yazdığı "Klinik analizlər" kitabı, K.Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", C.Hüseynovun "Patoloji anatomiya", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəylinin "Göz xəstəlikləri", Ə.Talışinskinin "Travmatologiya", Q.Səfərov və Ə.Həsənovun "Bioloji kimya" və digər dərslik və dərs vəsaitləri, eləcə də M.Mirqasımovun, M.Topçubaşovun, M.Mirsəlimovun, M.Əfəndiyevin, Z.Məmmədovun və başqalarının qələmə aldıqları dərsliklər və digər kitablar Azərbaycanın tibb tarixində ən gözəl nəşrlərdir. Bu kitablar indi də dəyərini saxlayır və onların hər birinin işıq üzü görməsində Əziz Əliyevin müstəsna rolu danılmazdır.

Əziz Əliyev qısa müddətdə rus dilində olan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcüməsinə nail olur. Onun təşəbbüsü ilə "Boğaz, burun, qulaq xəstəlikləri", "Uşaq xəstəlikləri", "Farmakologiya kursu", "Histologiya" adlı kitablar və digər dərsliklər rus dilindən Azərbaycan dilinə tərcümə edilir. O vaxtlar kitab çap etdirmək üçün texniki təchizat çox zəif idi. Bakı Dövlət Universitetinin tibb fakültəsində milli tibbi kadrların yetişdirilməsinə bir o qədər də ciddi diqqət göstərilmirdi. Odur ki, professor Əziz Əliyev ali məktəblərə rəhbərlik etdiyi ilk illərdə hər şeyi yenidən başlamalı olur. Bu da həm çox vaxt tələb edir, həm də alimin işlərini qat-qat artırırdı.

Görkəmli alim Azərbaycan Dövlət Tibb İnstitutunun nəzdində tibbi kitabxana yaratmaq ideyasını reallaşdırmağa başlayır. Onun səyi nəticəsində professor P.Rostovtsevin sədrliyi altında xüsusi Kitabxana komissiyası yaradılır və komissiya çox səmərəli fəaliyyət göstərir. Əziz Əliyevin yaratdığı Kitabxana komissiyası 1936-cı ildə (tibbi kitabxananın təməlinin qoyulmasının üçüncü ilində) oxuculara belə bir təlimat göndərir: "Kitabxana plan üzrə SSRİ-də nəşr olunan bütün təzə kitabları, o cümlədən dövri tibbi-bioloji ədəbiyyatı alır. Kitabxana bunlardan əlavə SSRİ-nin 231 elmi müəssisəsi və 87 xarici ölkə ilə kitab mübadiləsi aparır". Bundan sonra tibbi kitabxananın özülünün möhkəmləndirilməsində, inkişafında və formalaşmasında ciddi dönüş yaranır.

Hazırda Azərbaycan Tibb Universitetinin kitabxanası 1 milyona yaxın kitab fonduna malikdir və onun əsasında elektron kitabxananın tam təşəkkül tapması üçün fundamental işlər görülür. Bu zəngin kitab fondunun bünövrəsini qoyan, şübhəsiz ölkəmizdə ilk tibbi kitabxananın yaradıcısı, banisi isə Əziz Əliyev olub.

Professor Əziz Əliyev, ümumiyyətlə, bütün şüurlu fəaliyyəti dövründə tibb nəşriyyatı yaratmağın, onu təkmilləşdirmək və inkişaf etdirməyin yolları haqqında düşünüb. O, bu sahədəki ideyalarını tədricən həyata keçirməyə başlayıb və institut kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı"nı yaradıb. Professorun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşrinə başlanılıb. 1929-cu ildən etibarən o, "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi vəzifəsində çalışıb, 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edilib. Bu dövrdə jurnal ATİ-də yenicə təşkil edilmiş "Tibb nəşriyyatı"nda çap olunub. 1933-cü ildə, yenə də Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapına başlanılıb. Hazırda bu qəzet "Təbib" adlanır və onun çapı Azərbaycan Tibb Universitetində davam etdirilir.

1933-cü il avqustun 4-dən etibarən Almaniyada qısamüddətli elmi ezamiyyətdə olan Əziz Əliyev oradan qayıtdıqdan sonra doktorluq dissertasiyası müdafiə edib və Azərbaycanda ilk dəfə olaraq onun dissertasiya işi SSRİ Elmlər Akademiyasının və Ümumittifaq Lenin Komsomolu Gənclər İttifaqı Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli və əhəmiyyətli elmi əsər olub.

Əziz Əliyevin qələmə aldığı "Klinik analizlər" kitabı tələbələr və gənc həkimlər tərəfindən rəğbətlə qarşılanıb və onların stolüstü kitablarından birinə çevrilib. Onun bir neçə elmi əsəri "Azərbaycan Tibb Jurnalı"nda çap edilib. Bunların ilk illərdə çap olunanlarına "Həzm zamanı qanın xloridləri" (1928), "Malyariyanın Karno metodu ilə müalicəsi" (1932), "Klinik analizlər üzrə rəhbərlik" (1933) və s. aiddir. Əziz Əliyev uzun müddət eksperimental nefritin öyrənilməsi problemi ilə də məşğul olub, elmi işlərinin əsas məğzini bu istiqamətə yönəldib. Görkəmli alim məharətlə elmi işlərini pedaqoji işlərlə uzlaşdıra bilib və fakültə terapiyası kafedrasında pedaqoji fəaliyyətini davam etdirib. Belə ki, o, 1 noyabr 1927-ci ildən BDU-nun tibb fakültəsinin diaqnostika kafedrasında ordinator və aspirant, 17 oktyabr 1930-cu ildən isə yenicə təşkil edilmiş Azərbaycan Dövlət Tibb İnstitutunun birinci terapiya və diyar patologiyası kafedrasında assistent və dosent vəzifələrində çalışıb.

## Vətənpərvər ziyalı

Professor Əziz Əliyev ATİ-yə rəhbərlik etdiyi dövrdə 11 doktorluq və xeyli namizədlik dissertasiyası müdafiə edilib. Onun təşəbbüsü ilə kafedraların nəzdində təşkil edilən aspiranturada 4 il ərzində 30 tibb elmləri namizədi hazırlanıb. Onlardan 19-u milli kadr olub. Həmin dövrün çətinlikləri ilə qarşılıqlı müqayisədə bu, çox böyük rəqəm hesab edilməlidir. O, tibb sahəsi üzrə milli kadr hazırlığını daim ön plana çəkib və onların peşəkar kimi yetişmələrində müstəsna rol oynayıb. Görkəmli alim Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil alan tələbələrin həyatı ilə yaxından maraqlanır, gənclərlə bağlı problemlər onu ciddi düşündürürdü. 1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibbi Mərkəzin yaxınlığında "Tibb şəhərciyi"nin inşasına başlanılıb. Sonralar həmin "şəhərcikdə" tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikilib və bu işlərin bünövrəsinin möhkəmləndirilməsi Ulu Öndər Heydər Əliyev tərəfindən yerinə yetirilib, 2003-cü ildən etibarən isə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

1933-1934-cü illərdə ölkədə çörək qıtlığı yarandığından ATİ-nin tələbələrinin güzəranı xeyli ağırlaşıb. Vəziyyətdən çıxış yolu tapmaq üçün Əziz Əliyevin qayğısı sayəsində "Azad qadın" heykəlinin yaxınlığındakı orta məktəbin birinci mərtəbəsində tələbə yeməkxanası təşkil edilib. Burada tələbələrə gündə 500-600 qram çörəklə bərabər pulsuz yemək verilib və onları aclıqdan xilas etmək mümkün olub. Əziz Əliyev Azərbaycan Dövlət Tibb İnstitutunda "Rektorluq Fondu" yaradıb və həmin fondun hesabına ehtiyacı olan əlaçı tələbələrə hər il paltar, ayaqqabı aldırarmış ki, bu da bir növ tələbələri yaxşı oxumağa həvəsləndirərdi.

Professor hər il Azərbaycan Dövlət Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskvanın, Kiyevin, Xarkovun, Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edər, onlara təcrübə toplamaları üçün əlverişli şərait yaradardı. Belə vaxtlarda o, özünü xeyriyyəçi kimi aparar, ölkədən xaricə gedən tələbələrə pul yardımı edər, onları öz hesabına geyindirərdi. Həmin tələbələrin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi formalaşaraq, onun yolunu şərəflə davam etdiriblər.

## Misilsiz xidmətlər

Görkəmli səhiyyə təşkilatçısı və qurucusu Əziz Əliyev 1934-cü ildə Bakıda səhiyyə xidmətinin səviyyəsini yüksəltmək məqsədilə Bakı şəhər səhiyyə şöbəsinin müdiri vəzifəsinə təyin edilir. Onun səhiyyənin bütün incəliklərini dərindən bilməsi və bildiklərini məharətlə həyata keçirməsi sayəsində cəmi bir neçə ay ərzində qarşıya qoyulan məsələlər yüksək səviyyədə öz həllini tapır və bundan sonra o, yenidən Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru vəzifəsinə qaytarılır. Ümumiyyətlə, Azərbaycanda səhiyyə sahəsinin hansı nöqtəsində zəiflik, geriləmə nəzərə çarpırdısa, Əziz Əliyevi dərhal həmin sahəyə cəlb edirdilər. Bu dəfə də bacarıqlı səhiyyə təşkilatçısı işlərini elə qurur ki, qısa müddətdə qlobal planları bacarıqla həyata keçirərək məqsədinə tam çatır və ona göstərilən etimadı hərtərəfli doğrulda bilir.

1936-1940-cı illərdə həm Azərbaycan Xalq Səhiyyə Komissarlığının, həm də ATİ-nin birgə təşəbbüsü sayəsində görkəmli alimin fəal iştirakı və rəhbərliyi altında malyariya və traxomaya qarşı mübarizəyə başlanılır. Bacarıqla həyata keçirilən ciddi tədbirlər nəticəsində ölkəmizdə tüğyan edən bu dəhşətli xəstəliklərin geniş miqyasda yayılmasının qarşısı alınır. Əziz Əliyevin rəhbərliyi altında müalicə-profilaktika məqsədilə ölkədə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları təşkil edilir. Bundan təxminən 10-15 il sonra görkəmli alimin qızı, akademik Zərifə xanım Əliyeva Azərbaycanda yenidən baş qaldıran traxoma xəstəliyinin profilaktikası və müalicəsinə xeyli vaxt sərf edərək atasının başladığı işləri müvəffəqiyyətlə davam etdirir, bu dəhşətli xəstəliyin epidemiyasının qarşısının alınmasına səy göstərərək məqsədinə tam nail olur.

Professor Əziz Əliyevin fəaliyyət dairəsi olduqca rəngarəng və çoxcəhətli olub. O, müəyyən müddətdə Azərbaycan Dövlət Tibb İnstitutunun direktoru olmaqla yanaşı, Əczaçılıq İnstitutuna da rəhbərlik edib və 1937-ci ildə eyni zamanda paralel olaraq Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışıb.

Görkəmli alim 1938-ci ildən etibarən Azərbaycan Xalq Səhiyyə Komissarı vəzifəsində çalışaraq mükəmməl layihələr həyata keçirib, ölkədə səhiyyənin inkişafına güclü təkan verib.

Fədakar insan, görkəmli şəxsiyyət Əziz Əliyev İkinci Dünya müharibəsinin əvvəllərində alay polkovniki rütbəsində sovet əsgərləri ilə birlikdə siyasi rəhbər kimi Cənubi Azərbaycana göndərilib. Son dərəcə çətin, eyni zamanda məsuliyyət tələb edən sahədə fəaliyyət göstərib və yerli xalqın hörmətini, məhəbbətini qazanıb. Əziz Əliyevin fəaliyyəti SSRİ rəhbərliyini həmişə heyran qoyub.

## Əziz Əliyev daim ön xətdə idi

O, 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi, 1942-1948-ci illərdə isə Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışıb, özünü yetkin və bacarıqlı dövlət xadimi kimi göstərərək böyük şöhrət qazanıb. Professor 1949-1950-ci illərdə Moskvada ÜİK (b) P MİK-nın təlimatçısı, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, sonrakı illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru, Sabunçu xəstəxanasında sıravi həkim, 1956-cı ildən həyatının sonuna qədər Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifələrində fəaliyyət göstərib.



Görkəmli alim I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olub.

Əziz Əliyevin vətən və xalq qarşısındakı misilsiz xidmətləri yüksək qiymətləndirilib. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı əmək bayrağı" ordeni, "I Dərəcəli Vətən müharibəsi" ordeni, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medallar, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illiyi" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilib. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR-in əməkdar həkimi" fəxri adı verilib. Ömrünün sonuna qədər rektor kimi fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu, Bakının mərkəzi küçələrindən biri, Mahaçqalada bir küçə, Dağıstanda bir sovxoz, Kaspiyskidə bir tibb məktəbi və s. Əziz Əliyevin adını daşıyır.

## Yaddaşlara əbədi həkk olunan insan

Professor Əziz Əliyevin həyat yoldaşı Leyli xanımla birgə böyütdükləri övladlar valideyn tərbiyəsinə layiq və sadiq olublar. Ən şərəflisi və əhəmiyyətlisi də odur ki, onların övladları valideynlərinin nüfuzuna, himayəsinə arxalanmadan, heç kimdən kömək gözləmədən öz fitri istedadları, bacarıqları hesabına ucalıb və onların hər biri öz peşəsi sahəsində uğurlu nailiyyətlər qazanıb. Bu ailənin övladlarından Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra həyatını bütünlüklə Azərbaycanda oftalmologiya elminin inkişafına, bu sahədə yüksəkixtisaslı tibb kadrlarının hazırlanmasına, müalicəyə ehtiyacı olan saysız-hesabsız xəstələrin şəfa, dünya işığı tapmasına həsr edib. İnsanlara nur, şəfqət, ziya bəxş edib.

Akademik Zərifə xanım Əliyeva elm xəzinəsi tarixinə daxil olan nadir incilərdən, dünya şöhrətli alimlərdəndir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda da, Moskvada da eyni uğurla çalışan Zərifə xanım Əliyeva oftalmologiya sahəsində akademik səviyyəsinə yüksəlib və 1981-ci ildə keçmiş SSRİ Elmlər Akademiyasının çox nüfuzlu mükafatı sayılan akademik Averbax mükafatına layiq görülüb.

Əziz Əliyevin qızı Ləzifə xanım bacarıqlı göz həkimi, ATİ-nin göz xəstəlikləri kafedrasının dosenti, digər qızı Dilbər xanım adlı-sanlı mühəndis-rabitəçi olub. Kiçik qızı Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyeva uzun müddət "Dan ulduzu" instrumental ansamblına rəhbərlik edib, tanınmış pianoçu və peşəkar musiqişünas kimi xatirələrə əbədi həkk olunub. Alimin böyük oğlu Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Tamerlan Əliyev Azərbaycan Respublikasının tanınmış terapevtlərindən, görkəmli alimlərindən, əsl pedaqoq-müəllimlərdən olub. O, uzun müddət ATU-nun daxili xəstəliklər kafedrasının müdiri, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş terapevti vəzifələrini yerinə yetirib. Əliyevlər ailəsinin kiçik övladı, akademik Cəmil Əliyev də həyatını tibb elminin inkişafına həsr edib, tibb elmləri doktoru, professor və akademik zirvəsinə yüksəlib. O, hazırda Azərbaycan Milli Elmlər Akademiyasının, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikası Milli Onkologiya mərkəzinin baş direktorudur. Akademik Cəmil Əliyevin elmi əsərləri təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da geniş yayılıb, müəllifinə layiqli nüfuz və şöhrət qazandırıb.

Xalqın qəlbində Əziz Əliyevin monumental heykəli əbədi olaraq çoxdan ucaldılıb. Bu yüksəkliyi, bu zirvəni İmran Qasımovun, Süleyman Rüstəmin, Mustafa bəy Topçubaşovun, Mirzə İbrahimovun, Rəsul Həmzətovun, Baxış Qəhrəmanovun, Abdulla Quliyevin, Həmid Rüstəmovun, M.S.Umaxanovun, Əhməd Musayevin, N.İ.Trufanovun, Əbdülvahab Süleymanovun, Həsən İsazadənin, Nəriman Əliyevin, Zəhra Quliyevanın, həmçinin Dursun Hüseynovun, Qurban Əliyevin, Böyükkişi Ağayevin, Həsən Sultanovun, Leyla Kərimovanın və başqalarının görkəmli dövlət və elm xadimi Əziz Əliyev haqqındakı xatirələrində aydın müşahidə etmək, bütün gözəlliyi ilə anlamaq olar.

1962-ci il iyul ayının 27-də Əziz Əliyevin daim xalq üçün, vətən üçün döyünən ürəyi qəflətən dayandı, o, əbədiyyətə qovuşdu. Həmin dövrdə Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışan akademik Vəli Axundovun göstərişi və xalqın arzusu ilə mərhum birinci Fəxri xiyabanda dəfn edildi.

Ümummilli Lider Heydər Əliyev Əziz Əliyevin 100 illik yubiley gecəsində çıxış edərkən Əziz Əliyevə xas olan xüsusiyyətlərin bütün incəliklərinə yaxşı bələd olduğunu söyləyib və onun insani keyfiyyətlərindən söhbət açaraq deyib: "Azərbaycanda və Dağıstanda işlədiyi illərdə o, elm xadimləri ilə çox sıx əlaqədə olurdu. Bütün tibb professorları onun dostları idi. Onların çoxunu o hazırlayıb irəli çəkmişdi. Azərbaycan incəsənəti və ədəbiyyatının Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Bülbül, Niyazi, Səməd Vurğun, Süleyman Rüstəm, Qara Qarayev və bir çox başqaları kimi görkəmli xadimlərlə onun çox yaxın, mehriban, ailəvi münasibətləri vardı. Bütün bunlar ona görə olurdu ki, o, çox ziyalı bir adam idi, yüksək səviyyədə savadlı, mədəni adam olduğuna görə həmişə məhz bu mühitlə təmasda olmağa çalışırdı. Həmin adamlar da onunla yaxın olmaq istəyirdilər. O, hər cəhətdən gözəl insan idi".

❖❖❖

*Görkəmli dövlət xadimi, bacarıqlı səhiyyə təşkilatçısı, qayğıkeş alim, həkim və müəllim kimi yaddaşlara əbədi həkk olunan Azərbaycan Respublikasının Əməkdar həkimi, tibb elmləri doktoru, professor Əziz Əliyevin həyat və fəaliyyətinin zəngin irsi həm indiki, həm də gələcək nəsillərə örnəkdir. Anadan olmasının 123-cü ildönümünü qeyd etdiyimiz Əziz Məmmədkərim oğlu Əliyevin əziz xatirəsi qədirbilən xalqımızın, eləcə də xilaskarı olduğu bir çox xarici ölkə xalqlarının qəlbində daim yaşayır və yaşayacaqdır.*

**ƏHLİMAN ƏMİRASLANOV,**
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik, SSRİ Dövlət mükafatı laureatı***

# "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinə başlanılması ilə əlaqədar mətbuat konfransı keçirilib

Dekabrın 27-də "Yüksəliş" müsabiqəsinin qeydiyyat mərhələsinə başlanılması ilə əlaqədar mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, müsabiqənin keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva qeyd edib ki, "Yüksəliş" müsabiqəsində qarşıya qoyulan məqsədlərdən biri yeni nəsil idarəçilərin müəyyənləşdirilməsidir. Bu müsabiqə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar kursunun bir halqasıdır.

Fərəh Əliyeva bildirib ki, kadr ehtiyatı bankının yaradılması üçün bu müsabiqə ən əlverişli müsabiqələrdən biri olacaq. Azərbaycanda idarəçilik vərdişləri olan və öz potensialına inanan hər kəs bu müsabiqədə iştirak edə bilər. Müsabiqə Azərbaycanda kadrların bilik və bacarıqlarının inkişaf etməsinə mühüm töhfə verəcək.





Təşkilat Komitəsinin sədri əlavə edib ki, dövlət qulluğunda namizədlər elan olunmuş konkret vakansiyalara malik olduqları biliklərdən istifadə etməklə mübarizə aparırlar. "Yüksəliş" müsabiqəsində isə seçim beynəlxalq aləmdə qəbul olunmuş kompitensiyaların aşkarlanmasına yönəlib: "Biz idarəçiləri axtaranda təkcə onların intellektual səviyyəsini deyil, həm də onlarda hansı kompitensiyaların olduğunu öyrənirik. Bu sahədə kifayət qədər beynəlxalq təcrübə öyrənilib. Bu kompitensiyalar kadrla işləmək bacarığı, şəxsi, mənəvi-etik keyfiyyətlərdir. Müsabiqənin saytında həmin kompitensiyalar barədə kifayət qədər məlumat olacaq. Ola bilər ki, "Yüksəliş" müsabiqəsinə hazırda dövlət qulluğunda işləyən, müəyyən sahələrdə çalışan insanlar qatılsınlar. Bu müsabiqədə iştirakın onların karyerasına hər hansı mənfi təsiri olmayacaq".

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, indiyə qədər imtahanlar test üsulu ilə keçirilib. Bu imtahanlarda insan qiymətləndirməsi olmayıb. "Yüksəliş" müsabiqəsində isə insan amili var. Belə ki, yarımfinal və final mərhələsində iştirakçıları ekspertlər, psixoloqlar, idarəçi şəxslər qiymətləndirirlər. Bundan başqa, xaricdən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə treninqlər də keçiriləcək. Bu formatın özü bizim üçün yenidir: "Bu prosesin şəffaf, obyektiv keçirilməsinə nəzarəti bizdən başqa media nümayəndələri də həyata keçirəcəklər. Biz media nümayəndələrini dəvət edəcəyik. Onlar prosesi müşahidəçi kimi izləyə biləcəklər".

Fərəh Əliyeva vurğulayıb ki, "Yüksəliş" müsabiqəsində qarşıya qoyulan məqsədlərdən biri yeni nəsil idarəçilərin müəyyənləşdirilməsidir. Şöbə müdirinin sözlərinə görə, kadr ehtiyatı bankının yaradılması üçün bu müsabiqə ən əlverişli müsabiqələrdən biri olacaq.

Təşkilat Komitəsinin üzvü, Gənclər və İdman naziri Azad Rəhimov "Yüksəliş" müsabiqəsinin kadr potensialının yaradılmasında böyük rol oynayacağını vurğulayıb. O, müsabiqəyə 21-51 yaşlı insanların dəvət edilməsinin təsadüfi olmadığını söyləyib. Bildirib ki, 21 yaşlı gənclər çox fəaldır, dövlət və ölkə üçün önəmli işlər görməyə çalışırlar: "51 yaşa gəlincə, insanlar var ki, bu yaşa qədər özünü göstərə bilməyib, ancaq böyük təcrübəyə, biliyə malikdir. Ona görə də bu insanlara da şərait yaradılmasını nəzərdə tutmuşuq".

Nazir qeyd edib ki, "Yüksəliş" müsabiqəsinin məqsədi Azərbaycanda yeni nəsil idarəçilərin ortaya çıxarılmasıdır. "Yüksəliş" çox maraqlı bir müsabiqədir və insanların qarşısında yeni imkanlar açacaq. İnsanlar bu müsabiqə vasitəsilə istədikləri vərdişlərə yiyələnə biləcəklər.

Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev müsabiqənin şərtləri ilə bağlı məlumat verib: "Müsabiqənin beş ay davam etməsi nəzərdə tutulub, iyun ayında onun başa çatacağını düşünürük. Müsabiqədə 20 qalib olacaq və onların hər birinə 20 min manat veriləcək. Məbləğin 10 min manatı həmin şəxsin təhsili, 10 min manatı isə şəxsi xərc üçün nəzərdə tutulacaq". Nazir müavini bildirib ki, bu cür müsabiqələr dünyanın bir çox ölkələrində var: "Bunun üçün biz dünya təcrübəsini öyrəndik və belə bir layihə ortaya çıxdı. Biz, eyni zamanda, bu layihəni sınaqdan keçirmişik".

Təşkilat Komitəsinin digər üzvü, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə bildirib ki, "Yüksəliş" müsabiqəsi kadr potensialının yaradılması üçün keçirilir. Müsabiqədə daha çox namizədlərin keyfiyyətləri yoxlanılacaq. Müəyyənləşdiriləcək ki, insanlar hansı dərəcədə kreativliyə malikdirlər, onların hansı ayrı xüsusiyyətləri var. Yəni onlar həmyaşıdlarından, bu sahədə iştirak edən insanlardan hansı xüsusiyyətlərinə görə seçilirlər. Müsabiqədə psixometrik testlərdən də istifadə ediləcək və bu testlərin nəticəsində insanlara məsləhətlər veriləcək.

"Biz bu proseslərdə ən müasir alətlərdən istifadə edəcəyik. Azərbaycanda 20 il ərzində topladığımız təcrübə bizə bu məsələdə kömək edəcək. Bizim bütün insan potensialımız və ekspertlərimiz bu proseslərə qoşulacaqlar. Hər bir addımımız ictimaiyyətə çatdırılacaq" deyə Direktorlar Şurasının sədri bildirib.

Sonra "Yüksəliş" müsabiqəsinin tanıtım çarxı nümayiş olunub.

Daha sonra suallar cavablandırılıb.

# Akademik Ramiz Mehdiyev "Clarivate Analytics" agentliyinin nümayəndələri ilə görüşüb

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Ramiz Mehdiyev "Clarivate Analytics" ("Thomson Reuters") agentliyinin Rusiya və MDB ölkələri üzrə icraçı direktoru Oleq Utkini və təşkilatın təhsil proqramları üzrə direktoru Valentin Boqorovu qəbul edib. Bu barədə AZƏRTAC-a AMEA-dan məlumat verilib.

Görüşdə akademik Ramiz Mehdiyev AMEA ilə "Clarivate Analytics" agentliyinin sıx əlaqələrinin olduğunu bildirib. İki qurum arasında imzalanan əməkdaşlıq müqaviləsi nəticəsində dünyanın aparıcı elmmetrik bazası "Web of Science"dan istifadə edən AMEA alimlərinin sayının artdığını vurğulayan akademik elmi müəssisələrin agentlik ilə əməkdaşlığını yüksək qiymətləndirib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Oleq Utkin "Clarivate Analytics" agentliyinin mütəxəssisləri tərəfindən AMEA-da bir sıra seminar və treninqlərin keçirildiyini söyləyib. Bildirib ki, seminarlarda alimlərə bu bazadan istifadə yolları, bazaya daxil olan jurnallarda məqalələrin dərc edilməsi qaydaları, müxtəlif sahələr üzrə elmi məqalələrin tələbləri və s. haqqında ətraflı məlumat verilib. Oleq Utkin vurğulayıb ki, baza məlumatlarına əsasən elmi əsərlərin sayına görə Azərbaycan Cənubi Qafqaz ölkələri sırasında birinci yerə yüksəlib.

Müzakirələr zamanı humanitar və ictimai elmlər sahəsi üzrə tədqiqatların mühüm elmi nəticələrinin impakt faktorlu jurnallarda məqalə kimi çapına müəyyən məhdudiyyətlərin olması və ölkə üzrə bu istiqamətdə elmi jurnalın formalaşdırılması məsələsinə baxılması ətrafında fikir mübadiləsi edilib.

Görüşdə AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, "Clarivate Analytics"in Azərbaycan üzrə nümayəndəsi və elmi-informasiya resursları üzrə eksperti Aygün Babazadə iştirak ediblər.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının idarə heyəti ilin yekunları ilə bağlı hesabat verib

Dekabrın 27-də "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin idarə heyətinin ilin yekunları ilə bağlı iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Dağlıq Qarabağın Azərbaycan icmasının sədri Tural Gəncəliyev rəhbərlik etdiyi qurumun 2019-cu ildəki fəaliyyəti və həyata keçirilən layihələrlə bağlı geniş məlumat verib.

İcma sədri ötən müddət ərzində görülən işlərin səmərəli olduğunu diqqətə çatdırıb. "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin yeni idarə heyətinin yaranmasından bir il ötdüyünü xatırladan T.Gəncəliyev bildirib ki, icma beynəlxalq əlaqələri, analitik-informasiya sahəsini, ictimaiyyətlə və media qurumları ilə əlaqələri, sosial şəbəkələrdə fəaliyyəti, ölkədaxili tədbirlərdə iştirakı və digər bu kimi vacib məsələləri diqqətdə saxlayıb.

Qeyd edib ki, beynəlxalq təşkilatların nümayəndələri ilə mütəmadi görüşlərin keçirilməsi, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının müxtəlif məsələlərlə bağlı mövqeyinin bu qurumların təmsilçilərinin diqqətinə çatdırılması əsas məqsədlərdən olub. Bu baxımdan ATƏT-in sədri Miroslav Layçakın rəhbərlik etdiyi nümayəndə heyəti, ATƏT-in Minsk qrupunun həmsədrləri, üzvü olan digər ölkələrin, Azərbaycanda fəaliyyət göstərən səfirləri ilə, həmçinin Avropa İttifaqının, Avropa Şurası, BMT, Qızıl Aypara Komitəsinin Bakı ofislərində keçirilən görüşlər xüsusi əhəmiyyətə malikdir.

"Ölkə rəhbərinin icmanın qarşısına qoyduğu tapşırıqları yerinə yetirməyə çalışdıq. İcma olaraq istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə fəaliyyətimizi genişləndirdik. Düşünürəm ki, icmamızın işini Prezident İlham Əliyevin ermənilərin iç üzünün ifşa olunması, onların əsl simalarının dünyaya çatdırılması siyasətinə uyğun qura bilmişik. Bir sıra xarici ölkələrdə keçirdiyimiz tədbirlərdə dünya ictimaiyyətinə Dağlıq Qarabağın Azərbaycan icmasının güclü olduğunu göstərdik, Ermənistanın danışıqlar formatının dəyişilməsinə yönəldilmiş təxribat xarakterli addımlarının qarşısını aldıq", - deyə icma sədri vurğulayıb.

Tural Gəncəliyev bildirib ki, gənclərin və könüllülərin icmanın işinə cəlb olunması sayəsində "Qarabağ Azərbaycandır!" mövzusunda videoçarxların sosial şəbəkələrdə yayılması ermənilərin narazılığına səbəb olub. Bu da göstərir ki, onlar bizim icmanın fəaliyyət göstərməsini istəmir və ona mane olmağa çalışırlar. Biz isə öz gücümüzü göstərdik və əminik ki, öz əzəli torpaqlarımıza qayıdacağıq.

Tural Gəncəliyev sosial şəbəkələrdə fəaliyyətin, ictimaiyyət, xüsusilə gənclər və media qurumları ilə əlaqələrin qurulmasının vacibliyini qeyd edib.

Sonra idarə heyətinin üzvü Fərhad Bədəlbəyli Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğunu diqqətə çatdırıb və hamını bir nəfər kimi işğal edilmiş torpaqlarımız uğrunda mübarizədə həmrəy olmağa səsləyib. Bildirib ki, erməni vandalizminə qarşı mübarizədə dövlət başçısının ətrafında sıx birləşməli, eyni hədəfə vurmalıyıq. Bu, hamımızın işidir və hər bir vətəndaş, ictimaiyyət, media orqanları səfərbər olunmalıdır. Fərhad Bədəlbəyli həmçinin Qarabağ Fondunun yaradılmasını təklif edib.

Daha sonra çıxış edən idarə heyətinin üzvü Əli Həsənov bildirib ki, Azərbaycan tərəfi hər zaman Ermənistan-Azərbaycan münaqişəsinin qarşılıqlı anlaşma və sülh yolu ilə həllinin tərəfdarıdır. Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində ölkəmizdə sabitlik hökm sürür. "Vətən doğulduğun torpaqdan başlayır", - deyən Əli Həsənov hər bir Azərbaycan vətəndaşını Qarabağ uğrunda mübarizədə fəal olmağa çağırıb. O, torpaqlarımızın işğaldan azad olacaq günün yaxında olduğuna əminliyini bildirib.

# TANAP Azərbaycanın bütün qaz ehtiyatlarını işə salmağa imkan verəcək

*Əvvəli 1-ci səh.*

TANAP-ın keçdiyi yol qısa, lakin zəngin və şərəflidir. Bu, Azərbaycanın və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi ilə gerçəkləşən nəhəng layihədir. Prezident İlham Əliyev müsahibəsində TANAP-ın salnaməsini bir daha xatırladıb: "Qaz bazarında sən əvvəlcədən gərək kontrakt bağlayasan, ondan sonra qazma işləri aparasan. Bu, neft deyil ki, istənilən yerə satmaq olar. Bu, bazara bağlı olan məhsuldur. Ona görə biz görəndə ki, bu məsələ yerində sayır, o vaxt təşəbbüs irəli sürdük və Türkiyə tərəfinə bunu təqdim etdik. Təklif etdik ki, bu layihənin adı TANAP olsun - Trans-Anadolu kəməri. Türkiyə tərəfindən müsbət reaksiya verildi".

2011-ci il dekabrın 24-də Azərbaycan və Türkiyə arasında TANAP layihəsi ilə bağlı anlaşma memorandumu imzalanıb. 2012-ci il iyunun 26-da isə İstanbulda Trans-Anadolu Qaz Boru Kəməri sisteminə dair sazişə imza atılıb və sənəd hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. 2015-ci il martın 17-də təməli qoyulan kəmər 2018-ci il iyunun 12-də istismara daxil olub.

TANAP-ı haqlı olaraq "Cənub qaz dəhlizi"nin onurğa sütunu, birləşdirici halqası adlandırırlar. Belə ki, o, dəhlizi yaradan üç mühüm kəmərin ikincisi və ən böyüyüdür. Ümumilikdə isə "Cənub qaz dəhlizi" dörd layihədən - "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsindən, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsindən, TANAP və TAP (Trans-Adriatik Qaz Boru Kəməri) xətlərinin çəkilişindən ibarətdir. "Şahdəniz-2"dən hasil olunan ildə 16 milyard kubmetr qazın 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri Avropaya çatdırılacaq. Mavi yanacaq CQBK vasitəsilə Azərbaycanın və Gürcüstanın ərazisindən keçərək TANAP-a qoşulur. Artıq Avropa sərhədinə çatan TANAP gələn ildən başlayaraq qazı hazırda çəkilişi başa çatmaqda olan TAP-a da ötürəcək. İndiyədək TANAP-la qardaş ölkəyə 4 milyard kubmetrə qədər mavi yanacaq nəql olunub. Qarşıdakı illərdə kəmərin illik ötürücülük gücü 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə qədər artırılacaq.

Prezident müsahibəsində bütün bu layihələrin təşəbbüskarının məhz Azərbaycan olduğunu vurğulayıb: "Onların hər birində Azərbaycan iştirak edir. TANAP-da 58 faiz payla biz layihənin əsas səhmdarıyıq. TAP-da bizim 20 faiz payımız var və digər layihələrdə də. Ona görə bunun çox böyük tarixi əhəmiyyəti vardır. Əminəm ki, "Cənub qaz dəhlizi", hansı ki, biz keçən il rəsmi açılışını etdik, gələn il tam işə düşəcək".

Bu layihələrin hamısı bir-biri ilə sıx bağlıdır. Əgər TANAP-ın çəkilişi məsələsi müsbət həll olunmasaydı, "Şahdəniz-2" də uğurla icra edilə bilməzdi. Kəmərin çəkilişi "Şahdəniz"in tammiqyaslı işlənməsinə, yatağın bir trilyon kubmetrdən çox təbii qaz ehtiyatlarının hasil edilməsinə və nəql olunmasına imkan verdi.

TANAP-ın varlığı həm də Xəzərin Azərbaycan sektorundakı yeni qaz yataqlarının işlənməsi üçün sərmayə yatıran investorlara inam və əminlik bəxş edir. Prezident İlham Əliyev kəmərin bu baxımdan da əhəmiyyətli olduğunu qeyd edib: "Əgər TANAP imzalanmasaydı, bu gün artıq hasilata hazırlaşan "Abşeron" yatağı da qalacaqdı. Heç kim oraya vəsait qoymayacaqdı. "Abşeron" yatağından da biz ən azı 300 milyard kubmetr qaz hasilatı gözləyirik. Xarici investor da oraya əsas vəsaiti qoyur. Əgər qaz kəməri olmasaydı, kim buna vəsait qoyardı? Bizim digər yataqlardan təbii qaz çıxır, o cümlədən səmt qazı. İndi səmt qazını da biz qəbul edirik. Eyni zamanda, "Azəri-Çıraq-Günəşli" yatağında "dərin qaz" adlandırılan böyük qaz ehtiyatı var. Biz onun da istismarına yaxınlaşırıq".

Sərfəli yanacaq kimi dünyada təbii qaza olan tələbat getdikcə artır. Müxtəlif neft-qaz regionlarında istismar edilən mavi yanacaq yataqlarının ehtiyatları çıxarıldıqca, təbii ki, azalır. Yeni yataqlar isə heç də tez-tez kəşf olunmur. Bu baxımdan Xəzərin Azərbaycan sektorundakı zəngin ehtiyatlara malik "Şahdəniz" və digər qaz yataqları böyük əhəmiyyət kəsb edir.

Azərbaycan qazının Avropaya yolu isə TANAP-ın vasitəsilə Türkiyədən keçir. Məhz buna görə də Prezident TANAP-ın xüsusi rol oynadığını vurğulayıb: "Bu, sadəcə olaraq bir kəmər deyil ki, Türkiyə ərazisindən keçir. Bu həm Türkiyəni təmin edəcək və artıq edir, Gürcüstanı, Avropanı da. Eyni zamanda, imkan verəcək ki, biz bütün qaz ehtiyatlarımızı işə salaq, xarici investorları cəlb edək, yenə də milyardlarla dollar vəsait qoyulacaq. Beləliklə, Azərbaycan gələcəkdə qazın ixracından vəsait qazanacaq".

Xatırladaq ki, Azərbaycanın hələ 100 il bundan sonra özünü və bir sıra digər ölkələri mavi yanacaqla təmin etmək üçün qaz ehtiyatları var. Uzunmüddətli perspektivdə ölkəmizin əsas gəlir mənbəyi təbii qaz olacaq. Ona görə də TANAP böyük əhəmiyyət kəsb edir və Prezident İlham Əliyev jurnalistlərə müsahibəsində bunu bir daha vurğulayıb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Qafqazın ən böyük büdcəsi

*Əvvəli 1-ci səh.*

Bu da o deməkdir ki, gələn il orduya ayrılan xərclər 2019-cu ilə nisbətən 666 milyon manat və ya 20,9 faiz çox olacaq. Qonşu Gürcüstanın hərbi xərcləri təxminən gələn il üçün cəmi 510 milyon manat təşkil edəcək. Bu isə Azərbaycanla müqayisədə təxminən 6 dəfə azdır.

Gələn il üçün Ermənistanın hərbi xərcləri 1 milyard 71 milyon manat təşkil edəcək. Bu isə Azərbaycanla müqayisədə təxminən 3 dəfədən aşağıdır.

Ermənistanın "Pastinfo" nəşri yazır ki, bu hal Bakının hərbi üstünlüyünün yüksəlməsini təmin edir və Yerevanın buna qarşı çıxması getdikcə mümkünsüzləşir: "Azərbaycanda 2020-ci ilin dövlət büdcəsinin xərcləri 1,7 faiz artdığı halda, müdafiə xərclərinin büdcəsi xeyli, yəni 20,9 faiz artırılmaqla, 2,267 milyard dollara çatdırılıb. Bunun 945 milyon dolları silah alışı və hərbi-sənaye sərmayəsi üçün nəzərdə tutulub. Bu faktlar göstərir ki, Bakı Qarabağ məsələsində istəyinə, güc yolu ilə olsa belə, nail olmaqda israrlıdır və Azərbaycan açıq şəkildə müharibəyə hazırlaşır. Rəqibin gözümüzün önündə bu istiqamətdə konkret addımlar və hərəkətlər etdiyini görməklə Ermənistan hökumətinin 2020-ci ildə dövlət büdcəsini 14 faiz artırdığı bir vaxtda hərbi xərclərin artımını dondurmasını xəyanət və ya şüursuz qayğı adlandırmaq olar. Eyni zamanda, bunlara cavab olaraq, diqqətsiz hökumət kimi, diqqətsiz parlament çoxluğu kimi, həm də diqqətsiz və bir qrup insanın şüursuzca baş naziri təriflədiyini görürük. Təəssüf ki, nə Paşinyan, nə də erməni xalqının böyük bir hissəsi reallığı görmür".

## Azərbaycan sosial xərclərə Ermənistandan 6 dəfə artıq vəsait ayıracaq

Növbəti ildə Azərbaycanda sosialyönümlü xərclərin məbləği 10 milyard 642 milyon manat təşkil edəcək. Bu da cari illə müqayisədə 2 milyard 874 milyon manat və ya 37 faiz çoxdur.

Gürcüstanın dövlət büdcəsində gələn il üçün sosial xərclərin həcmi 4,35 milyard lari və ya 2 milyard 403 milyon manat təşkil edəcək. Bu isə Azərbaycandan təxminən 4,5 dəfə azdır. Əsas xərclər pensiya və maaşların artımına yönəldiləcək. Bu da ümumi büdcə xərclərinin 30,5 faizini təşkil edəcək.

Gələn il üçün Ermənistanda sosial sahəyə 492,5 milyard dram və ya 1 milyard 746 milyon manat vəsait ayrılacaq. Bu da cari illə müqayisədə 11 faiz artıqdır. Bu isə Azərbaycanla müqayisədə 6 dəfə azdır.

## Ermənistanın dövlət büdcəsi sosial-iqtisadi iflasın göstəricisidir

Erməni ekspert Avetik Çalabyan işğalçı ölkənin gələn il üçün büdcəsini müzakirə edərkən bildirib ki, rəsmi Bakının addımları Ermənistan üçün ciddi çətinliklər yaradacaq. Bildirib ki, həm Ermənistan hökumətini, həm parlamentin müdafiə və təhlükəsizlik məsələləri üzrə daimi komissiyasını, həm də parlamentin ayrı-ayrı deputatlarını bu komadan çıxmağa, vəziyyətin məsuliyyətini anlamağa, Ermənistanın 2020-ci il büdcəsinin müdafiə vəsaitlərinə yenidən baxmağa və ətrafımızda gərginləşən real çağırışlara adekvat cavab verməyə çağırıram: "Cəmi 10 ay öncə bu barədə yazdım ki, Ermənistan hökuməti hərbi xərclərin artımını dondurur, bu şəraitdə 2020-ci ildə ümumi dövlət büdcəsinin 14 faiz artımı proqnozlaşdırılır və Azərbaycanın gərginləşən döyüş ritorikası şəraitində müdafiə xərclərinin ən azı mütənasib artımı zərurətdir. Amma biz bunu edə bilmirik. Azərbaycan isə edir".

Erməni tərəfi onu da bildirir ki, Azərbaycan hərbi büdcəsini artırmaqla yanaşı, yerli hərbi məhsulların istehsalında da böyük uğurlara imza atıb. Elə ekspertlər də qeyd edir ki, Azərbaycan müdafiə sənayesinin uğurlarından Ermənistanın narahat olması, əslində, təbii haldır. Çünki ötən dövr ərzində bu sahədə əldə edilən uğurlar Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüklərinin artmasına birbaşa təsir edib.

Xatırladaq ki, ötən dövrdə ölkəmizdə ən müasir texnologiya və avadanlıqla təchiz olunan 50-dən çox yeni hərbi istehsal sahəsi yaradılıb. Burada istehsal olunan məhsulun 80 faizdən çoxu müdafiə, xüsusi təyinatlı məmulatlardır. İstehsalı mənimsənilən müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı 1200-ü ötüb. Ölkəmizdə istehsal olunan müxtəlif növ döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, zirehli texnikaların, xüsusi təyinatlı patrul maşınının və digər məmulatların ixracı həyata keçirilir. Hazırda onlarla ölkəyə Azərbaycan istehsalı olan hərbi məhsullar ixrac edilir.

Vurğulayaq ki, Ermənistanın hərbi büdcəsinin qismən artımı belə bu ölkənin özündə narazılıqla qarşılanır. İnsanları səfalət içində yaşayan ölkənin hökumətinin bu qərarı həm də anlaşılmaz hal sayılır. Ekspertlər bildirirlər ki, bütün bunlara görə, Ermənistanda 2020-ci il üçün dövlət büdcəsini qeyri-kafi dəyərləndirmək lazımdır.

Ümumiyyətlə isə büdcə xərclərinin təhlili göstərir ki, gələn il Azərbaycan digər parametrlərlə yanaşı, maliyyə cəhətdən də yenə regionun lideri statusunu daşımaqda davam edəcəkdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan kəndinin bolluq, bar-bərəkət ili

*Əvvəli 1-ci səh.*

Bu il kənd təsərrüfatının bütün sahələrində yüksək artım müşahidə edilib. Məlumdur ki, taxılçılıq strateji əhəmiyyət daşıyan sahədir, ölkəmizin ərzaq təhlükəsizliyinin təminatında müstəsna əhəmiyyətə malikdir. Cari ildə qarğıdalı ilə birlikdə 3512,4 min ton taxıl yığılıb. Bu da ötən illə müqayisədə 6,9 faiz çox artım deməkdir.

Aqrar sektorda ikinci önəmli sahə pambıqçılıqdır. Bu sahə ilk növbədə toxuculuq sənayesinin xammal bazası olsa da, heyvandarlığın inkişafında mühüm rol oynayır. Pambıqdan ayrılan çiyiddən heyvandarlıqda geniş istifadə edilir. Cari ildə bu sahədə məhsul yetişdirmək üçün 100 min hektar yararlı torpaq sahəsi ayrılıb. 20 rayonda 19 mindən çox istehsalçı ilə pambıq əkmək üçün müqavilə bağlanıb. Məqsəd fermerləri əmin etməkdir ki, onların istehsal etdikləri məhsul münasib qiymətə alınacaq. Bu, kəndli üçün xüsusi əhəmiyyət daşıyan bir haldır. Yəni fermer bilmək istəyir ki, istehsal etdiyi məhsulu münasib qiymətə sata biləcəkmi? Bu cür müqavilələrin bağlanması isə həmin sualı aradan qaldırır.



Hesabat dövründə 292,5 min ton xam pambıq məhsulu tədarük edilərək məntəqələrə təhvil verilib. Ölkə üzrə pambıqçılıqda orta məhsuldarlıq hər hektarda 29,3 sentner olub. Sahələrin 86,7 faizi maşınla, 13,3 faizi əllə yığılıb. Məhsulun vaxtında və itkisiz yığılması üçün dövlət tərəfindən 469 müasir pambıqyığan kombayn alınaraq fermerlərə xidmət göstərir. Belə dəstək sayəsində bu il pambıq istehsalında 32,7 faiz artım qeydə alınıb.

Cari ildə heyvandarlıqda diri çəkidə ət istehsalında 2,8, süd istehsalında 2,1, yumurta istehsalında 8,8, yun istehsalında 1,1, barama istehsalında 25,3 faiz artım qeydə alınıb.

Baramaçılıqda bu artım İpəkçilik üzrə Dövlət Proqramının qəbulundan sonra yaranıb. Baramaçılığın yem bazasını möhkəmləndirmək üçün Çindən 3,5 milyon ting gətirilərək istehsalçılara paylanıb. Bu il barama istehsalçıları tərəfindən təhvil verilən 624,4 ton yaş baramaya görə onlara 3,1 milyon manat subsidiya verilib. Dövlət tərəfindən bu sahəyə verilən dəstək sayəsində baramaçılıqda məhsul istehsalı ildən-ilə rekord səviyyədə artır.

Aqrar sektorda bitkiçilikdə də müxtəlif məhsullar üzrə artım qeydə alınıb. Cari ildə şəkər çuğunduru üzrə 16,9, kartof yığımında 11,7, tərəvəzdə - 13,2, bostan məhsullarında - 11,5, meyvə və giləmeyvədə - 7,8, üzümdə - 25,4, tütündə - 3,3, yaşıl çay yarpağı yığımında 4,9, günəbaxan istehsalında 42,9 artım müşahidə edilib. Fındıq bağlarının sahələri genişləndirilərək 75 min hektara, badam bağları 1200 hektara, zeytun bağları 3900 hektara çatdırılıb.

Həmin sahələrə dövlət tərəfindən artırılan qayğı sayəsində ixracda da belə məhsulların payı getdikcə çoxalır. Bunun nəticəsidir ki, cari ilin 11 ayı ərzində kənd təsərrüfatı məhsullarının ixrac həcmi 680,3 milyon dollar olub. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 13,2 faiz çoxdur.

Dövlət aqrar sektorun inkişafı üçün cari ildə də öz köməyini əsirgəmədi. Bu ilin 11 ayı ərzində fermerlərə 3791 kənd təsərrüfatı texnikası, o cümlədən 135 taxılyığan kombayn, 711 traktor və 2945 ədəd digər texnikalar güzəştli şərtlərlə fermerlərə satılıb. Ümumilikdə isə dövlət büdcəsi hesabına kənd təsərrüfatı texnikalarının fermerlərə güzəştli lizinq şərti satışı siyasəti çərçivəsində bugünədək 37416 texnika lizinq yolu ilə satılaraq fermerlərin istifadəsinə verilib.

Qeyd etdiyimiz kimi, müstəqilliyimizin ilk illərində torpaq payı alan kəndlinin ondan istifadə etmək üçün vəsaiti yox idi. Bu üzdən əkin sahələrinin çoxu istifadəsiz qalmışdı. Dövlət bu problemi aradan qaldırmaq üçün kəndliyə maddi dəstək göstərməyə başladı. Bunun bir forması da güzəştli şərtlərlə kreditin verilməsidir. Cari ildə də bu siyasət uğurla davam edir. İlin 11 ayı ərzində aqrar sahəyə AKİA xətti ilə 660 layihə üzrə 19,6 milyon manat, Sahibkarlığın İnkişafı Fondunun xətti ilə isə 1152 layihə üzrə 113 milyon manat güzəştli kredit verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Vətəndə qəribçilik

◆ Qarabağ Azərbaycandır!

**“Şuşanı son dəfə 12 yaşımda görmüşəm, düz 27 il əvvəl... Amma orada yaşadığım həmin illər hafizəmə, beynimə, qəlbimə həkk olunub. Şuşa xatirələrimdə, fikirlərimdə, arzularımdadır. Xəyallarımda hər zaman doğulduğum evə gedirəm, məktəbimə baş çəkirəm, oynadığım məhəllələrdə dolaşıram, Cıdır düzündə at çapıram. Laləzar çəmənlərin ətri hələ də burnumdadır. Canımla, qanımla, ruhumla bağlı olduğum o müqəddəs yeri, Qarabağı, Şuşanı unutmaq mümkün deyil...”**






## Qarabağın büllur sarayı

*Oğul gərək dolayları*
*ötüb keçsin,*
*Düşmənlərə sözün desin,*
*Dizin-dizin sənə yetsin.*
*Mən də bunu istəyirəm.*
*Günahımı yumaq üçün,*
*Qucağında ölmək üçün,*
*Darıxıram sənin üçün,*
*Şuşam mənim...*

*Bu diyarı Tanrı qüdrətindən var edib. Bu füsunkar guşədə elə bir möhtəşəm qəsr ucaldıb ki, əzəmətli tağları dağlardan, sütunları zirvəsində qartalların qıy vurduğu sıldırım qayalardan yonulub. Bürclərində şəmslə qəmərin tacı bərq vurur. Zümzüməli bulaqlar, sevginin simvolu Xarı bülbüllər, zümrüd donlu meşələr, çağlayan*



*şəlalələr yaradanın yer üzünə ərməğanıdır, cənnət bağıdır. Bura Qarabağın büllur sarayı Şuşadır...*

*O Şuşa ki, hər zaman tariximizin, mənəviyyatımızın, mədəniyyətimizin şah taxtında əyləşib. Musiqimizin beşiyi, əsrarəngiz səslər konservatoriyası, poeziyamızın inci qatarı, qəhrəmanlıq salnaməmizin hünər meydanıdır...*

*Cıdır düzü, İsa bulağı, Turşsu, Topxana, Gəncə qapısı, Qala divarı, Vaqifin, Natəvanın, Xan əminin, Üzeyir bəyin səsi, izi, ruhu hopmuş 17 məhəllə: Böyük qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamamqabağı, Dəmirçilər, Quyuluq, Xocamircanlı, Mamayı, Saatlı, Köçərli, Mərdinli, Çölqala, Hacı Yusifli, Çuxur məhəllə və Ağadədəli...*

*Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının sədri Tural Gəncəliyev “Qarabağ Azərbaycandır!” rubrikasında doğulduğu və təəssüf ki, ömrünün çox az, cəmi 12 ilini keçirdiyi Şuşalı günlərindən danışır. Şuşa qalasının dolanbac keçidlərində, aşırımlarında uşaqlıq illərinin iz saldığı cığırlara nəzər salır, xatirələrini vərəqləyir...*

## Hər daşı bir tarix, salnamə Şuşa

- Düşünürəm ki, Şuşada doğulub, onun özünəməxsus ab-havasında böyümək bəxtimə yazılmış ən gözəl yazı idi. Qarabağ xanı Pənahəli xan kimi tarixi şəxsiyyətin bünövrəsini qoyduğu bu diyarın qoynunda göz açmaq hər bir şuşalı üçün qürurverici və şərəfdir. Bu şəhər tarixi, mədəni arxitekturası, incəsənəti, maddi-mənəvi irsi, yetişdirdiyi görkəmli şəxsiyyətləri ilə dünya şəhərləri içərisində təkrarolunmaz yerə sahibdir. Sanki buranın təbiəti də, insanları da, mühiti də seçilmişdir...

1992-ci ilə, Şuşanın erməni qəsbkarları tərəfindən işğalına qədər mən belə bir zəngin mühitdə böyüyürdüm. 12 yaş yetkinlik yaşıdır və bu da mənə kifayət qədər imkan verir ki, nə qədər əzablı olsa da, uşaqlığımı yada sala, Şuşa ilə bağlı xatirələri gözlərim önündə canlandıra bilim...

Şuşada hara baxırdın, hansı küçəyə göz yetirirdin başdan-başa tarix, salnamə idi. Qəmbər daşı döşənmiş küçələrində igidlərin çapdığı qaşqa Qarabağ atlarının nalından çıxan çaqqıltı, faytonçuların atları həvəsləndirən fit səsi indi də qulağımda ecazkar musiqi kimi səslənir.

Axşamlar işdən sonra bütün çayxanalar aşıb-daşırdı, insanlar fəlsəfi, tarixi, bədii, mədəni mövzularda qızğın müzakirələr edir, yumor üzərində köklənmiş söhbətlər açırdılar. Biz kiçiklər də bütün bu söhbətlərə quaq asa-asa böyüyürdük.

Yadımdan çıxmayan anların bir çoxu da milli-mənəvi dəyərlərimizi özündə ehtiva edən Novruz bayramı ilə bağlı idi. Qaş qaralanda bütün küçələr insanların əllərindəki məşəllərin işığı ilə aydınlığa bürünürdü. Tonqalların ətrafında atılıb düşür, üzərindən tullanaraq böyüklərin öyrətdikləri xüsusi sözləri sevinclə təkrarlayırdıq...

## Şuşanın dağları başı dumanlı

- Əbəs yerə deyilmir ki, Qarabağ Azərbaycanın konservatoriyasıdır. Elə bil bütün qarabağlıların genetik kodunda musiqi ilə məşğul olmaq şifrələnmişdi. Xüsusilə də Şuşada elə bir ailə tapılmazdı ki, orada musiqiçi olmasın.

Nənəmgilin evi dahi Üzeyir Hacıbəylinin evinə qonşu idi. Ona görə də həmişə burada keçirilən musiqi günlərinə, tədbirlərə, müsabiqələrə gedib baxırdım.

Yadımdadır, çox kiçik idim, çiynimdə ağır tar həvəslə məşhur tarzən Sadıqcan (Mirzə Sadıq) küçəsi ilə Şuşa Musiqi məktəbinə gedirdim. Görkəmli müəllimlərdən tarın sirrini öyrənməyə, muğamlarımızın dərinliklərini əxz etməyə çalışırdım.

Musiqi ilə professional şəkildə məşğul olurdum, hətta Hacı Xanməmmədov adına müsabiqədə birinci yerə də layiq görülmüşəm. Təəssüf ki, təhsil aldığım həmin musiqi məktəbi hazırda yerlə-yeksan olub... Məktəbin uçurdulmuş şəkillərinə baxanda çox təsirlənirəm, sanki musiqi dünyam dağılıb...

İndi də hərdən tar çalıram, elə bil bu alətin tellərinə toxunanda yenidən Şuşaya, o illərə qayıdıram. Xalq mahnılarımızı, muğamlarımızı ifa edirəm, amma “Qarabağ şikəstəsi”ni, “Şuşanın dağları”nı ifa etmək məndə qüssə yaradır, Şuşanın dağlarının başı dumanlı olması ürəyimi ağrıdır...

## Əhməd bəy Ağaoğlu mənim üçün örnək idi

- Şuşadakı ab-hava, mühit, şərait elə idi ki, istər-istəməz sən də bu ahəngin bir parçasına çevrilirdin. Hər zaman Xurşidbanu Natə-



vanın, Sadıqcanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərinin qapısı ziyarətçilərin üzünə açıq olardı. Həmin evlərin əzəməti, xüsusi arxitekturası, tarixi yanından ötüb keçən, içərisinə daxil olan hər bir kəsdə ecazkar təsir buraxırdı. Təsəvvür edin ki, Üzeyir bəyin, Xan qızı Natəvanın şəxsi əşyalarına yaxından baxırdıq, toxunurduq, həyatları ilə real tanış olurduq. Həyətlərində gəzişir, qulluq etdikləri ağacların kölgəsinə sığınır, çiçəklərin ətrini duyurduq. Elə hiss edirdik ki, sanki bu dahi şəxsiyyətlərin də ruhu bizimlədir...

Oxuduğum məktəb böyük mütəfəkkir Əhməd bəy Ağaoğlu adına küçədə yerləşirdi. Böyüklərimin, müəllimlərimin Əhməd bəyin həyatı barədə danışdıqları məndə bu şəxsiyyətə dərin hörmət yaratmışdı və uşaqlıqdan onu özümə nümunə götürmüşdüm, elə fransız dilini öyrənməyim də buna görə idi. Əhməd bəy Ağaoğlunun şəxsiyyəti, keçdiyi həyat yolu, Qarabağla bağlı müstəsna fəaliyyəti mənim üçün də bir örnək idi. O zaman ziyalı kimi erməni daşnaklarına qarşı apardığı mübarizə Şuşa üçün çox mühüm rol oynayıb. Təəssüf ki, o, şuşalı olaraq təkcə intellektual səviyyədə deyil, həm də əlinə silah alaraq erməni daşnaklarına qarşı mübarizə aparmağa da məcbur olmuşdu. Bu da erməni təcavüzünün Azərbaycan xalqına qarşı nə qədər nifrətə söykəndiyinin göstəricisidir ki, ziyalı, mütəfəkkir, jurnalist bir şəxs qələmini kənara qoyub əlinə silah alaraq öz ailəsini, şəhərini qorumağa məcbur olub...

Şuşa kiçik yer idi və 20 min əhalisinin demək olar ki, hamısı bir-birini tanıyırdı. Həm də onların tam əksəriyyəti qohum, Pənahəli xanın törəmələri idi. Mənim də ana tərəfimin şəcərəsi Qarabağ xanlarına qədər gedib çıxır. Ana babam Cəlal bəy Qarabağın bəy nəslindən tanınmış şəxsiyyət olub. Anam danışır ki, babası hər zaman ermənilərin sonradan Şuşaya gəlib necə yerləşmələrindən danışırdı. Deyirmiş ki, ermənilər kənardan bura gəlib hər zaman azərbaycanlı xanların, bəylərin yanında işləyib, onların təsərrüfatlarına, ailə işlərinə yarınmaq istəyirmişlər. Bir yamaq kimi Şuşaya özlərini aid etmək üçün hər yola əl atırmışlar. Təbii ki, babalarımız xanlar, bəylər də onların bu xidmətindən istifadə edirdilər, amma iç üzlərindən xəbərsiz idilər. Bu, ermənilərin düşünülmüş siyasəti idi ki, o zaman mümkün qədər Qarabağın bütün bölgələrinə müdaxilə edib məskunlaşsınlar. Hətta buna baxmayaraq, Şuşada azərbaycanlıların sayı 98-99 faiz idi, sadəcə 1 faiz erməni var idi.

## Şuşadan qartal gözü ilə seyr edirdin bütün Qarabağı

- XIX əsrin əvvəllərində tikilmiş Sadıqcan küçəsindəki ikimərtəbəli evimiz tarixi bina idi. İkinci mərtəbəsindən Topxana meşəsi, Cıdır düzü əlinin içi kimi görünürdü. Təsəvvür edin ki, həmin eyvanda oturub əsrarəngiz dağları, meşələri seyr edirsən, xəyala dalırsan...

Şuşa Qarabağın hündür nöqtələrindən birində inşa edilmiş ən uca şəhər idi. Buradan baxanda ətraf Qarabağın hər yeri aydın görünürdü. Sanki göy üzündə süzən qartalın gözüylə baxırdın bütün Qarabağa...

Şuşanın təbiəti sözlə təsvir edilə bilməyəcək dərəcədə füsunkar idi. Saf havası, buz bulaqları, laləzar çəmənləri, meşələri, avazı dağ-daş inlədən bülbülləri, sıldırımda məskən tutmuş qartalları ilə yer üzünün şah əsəri idi...

Xatirələrə baş vurduqca, o yerləri xatırladıqca qəhərlənməmək olmur...

Təəssüflər olsun ki, erməni işğalı nəinki biz azərbaycanlıların oradan qovulması, etnik təmizlənməyə məruz qalması, eyni zamanda floranın, faunanın, tariximizin, incəsənətimizin məhv edilməsi ilə də faciəvidir.

Ermənilər işğalçılıq siyasəti həyata keçirərək mədəniyyətimizi, tariximizi dəyişdirməyə çalışırlar. Elə bu yaxınlarda da qədim Şuşa məscidi fars məscidi adı altında bir İran şirkəti tərəfindən təmir olundu. Bu, Azərbaycan xalqına, mədəniyyətinə, tarixinə qarşı təhqirdir. Bu, tarixi, dini arxitektura, Azərbaycan xalqının mirası idi. Axı mən öz uşaqlığımın əksər hissəsini həmin o məscidin həyətində oynamaqla keçirmişəm...

Təsəvvür edin ki, Azərbaycan xalqına məxsus dəyər indi bir fars nümunəsi kimi təqdim olunur. Bu, dözülməzdir! O cümlədən Şuşada məşhur rus kilsəsi var idi. Həmin kilsənin də gümbəzini dəyişərək erməni kilsəsi kimi təqdim edirlər. Bu faktların özü belə erməni fitnəsinin əsl üzünü göstərir.

Qarabağa, Şuşaya yerləşən bütün ermənilər Azərbaycan dilini çox yaxşı bilirdilər. Onlar bu vasitə ilə bizim sıralarımıza asanlıqla daxil olurdular. Dili bildikləri üçün tariximizi də, ədəbiyyatımızı da, mədəniyyətimizi də oğurlayırdılar. Biz isə onların məkrli siyasətini başa düşmürdük. Tarixən bizim səhvimiz o olub ki, ermənilərin dilini öyrənməmişik. Əgər dillərini bilsəydik, qəsbkar, işğalçı, özününküləşdirmə fəaliyyətlərinə qarşı mübarizə aparmaq asan olardı.

Elə buna görə də hazırda icmamızın nəzdində erməni dili



kursu fəaliyyət göstərir. Mən də bu dili öyrənməyə çalışıram. Düşmənimizin məkrli niyyətlərindən agah olmaq üçün bu çox mühümdür.

## Tezliklə öz yurdumuza qayıtmaq istəyirik

- Biz münaqişənin tənzimlənməsində sülh yolunun tərəfdarıyıq. Ölkəmizin ali rəhbərliyi də dəfələrlə bəyan edib ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi bərpa olunacaq. Məhz danışıqların sülh yolu ilə davam etdirilməsi çox mühüm əhəmiyyət kəsb edir. Bəli, nə qədər ki, münaqişənin sülh yolu ilə tənzimlənməsi istiqamətində danışıqların aparılmasının potensialı tükənməyib, ümid edirik ki, məsələ bu yolla həll olunacaq. Amma təəssüflər olsun ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar uzun illərdir ki, nəticəsini vermir, onlar işğalçı Ermənistana kifayət qədər təzyiqlər göstərmirlər. Beynəlxalq ictimaiyyətin və təşkilatların Ermənistanın işğalçı siyasəti ilə bağlı çoxsaylı qərarları, qətnamələri var. Buna əsasən də beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana ciddi təzyiq göstərilməlidir. Təəssüflər olsun ki, biz bunu görmürük. Qeyd etməliyəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünü istənilən yolla azad etmək hüququ masa üzərindədir. Heç kim bizi BMT-nin nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan məhrum edə bilməz.




Ona görə də Ermənistan tərəfi bunu tezliklə başa düşməlidir ki, işğalçı siyasətləri onların özlərini uçuruma aparır.

Biz artıq bu il ərzində iki dəfə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşmüşük. Onlar Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü tanıyırlar. Yəni Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsi heç kim tərəfindən mübahisə və sual doğurmur. Sadəcə olaraq burada əsas məsələ işğalçı Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülhə məcbur edilməsidir ki, biz də beynəlxalq ictimaiyyətdən bunu görmürük. Ona görə də daim onlarla görüşlərimizdə, verdiyimiz bəyənatlarda tezliklə öz torpağımıza qayıtmaq, günü sabah torpağımıza yetişmək istədiyimizi bəyan edirik. Əsas insan hüquq və azadlıqlarından məhrum olduğumuzu və bu məsələyə ciddi yanaşmalarını xahiş və tələb edirik. Amma göründüyü kimi, dünyada mövcud olan ikili standartlar, bəzi ölkələrin və siyasi xadimlərin, xarici ölkələrdə olan bəzi ekspertlərin, politoloqların erməni yalanlarının təsiri altına düşməsi əngəllər yaradır.

## Uğurlu siyasət nəticəsində Ermənistan küncə sıxışdırılıb

- Bütün bunlarla yanaşı, bu yaxınlarda ölkəmizdə Qoşulmama Hərəkatının Zirvə toplantısı keçirildi. Orada da Ermənistan 120 dövlət tərəfindən işğalçı olaraq tanındı. Artıq beynəlxalq hüquq, haqq-ədalət ölkəmizin tərəfindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Valday”da və Aşqabadda etdiyi çıxışlar da onu göstərir ki, Ermənistan çıxılmaz vəziyyətdədir.

Həmçinin bu yaxınlarda Böyük Britaniyanın məşhur BBC telekanalında Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın işğalı uşaq səviyyəsində əsaslandırmağa çalışması onun göstəricisidir ki, Ermənistanın düşdüyü vəziyyət çox acınacaqlıdır. Onlar



çətin durumdadırlar və Azərbaycan Respublikası tərəfindən aparılan uğurlu siyasət nəticəsində dünya ictimaiyyəti tərəfindən küncə sıxışdırılıblar.

Hazırda da danışıqlar davam etdirilir. Hərbi əməliyyatlar hələ ki dayandırılıb. Bununla belə biz informasiya müharibəsində fəal iştirak edirik. Ermənilərin ifşa olunması ilə bağlı bütün imkanları səfərbər edirik. Həmçinin ermənilərin ağ yalanlarının, saxta iddialarının qarşısını almaq üçün bütün Azərbaycan xalqı daim hazır və səfərbər olmalıdır. Hərbi yolla olsa belə işğal olunan ərazilərimizi azad etməyə hazır olmalıyıq. Yenə də deyirəm, buna baxmayaraq münaqişənin sülh yolu ilə həlli daha məqsədəuyğundur. Amma düşmən tərəfi bunu başa düşmürsə, məcburuq ki, beynəlxalq hüquq və normalarla tanınan hüququmuzu reallaşdıraq.

Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusunun sırasındadır. Ordumuz vətənimizi işğalçılardan azad edmək qüdrətindədir.

## Bir daha Şuşaya qayıda bilmədik

- 1992-ci il Şuşanın işğalı ərəfəsində vəziyyət çox gərgin idi. Ermənilər mütəmadi olaraq şəhəri, yollarda hərəkət edən nəqliyyatı atəşə tuturdular. Artıq şəhərdə qalmaq təhlükəli idi. Buna görə də valideynlərimiz məni və kiçik qardaşlarımı Şuşanın Ermənistan tərəfindən işğal olunmasından bir-iki həftə əvvəl Bakıdakı qohumlarımızın evinə yola saldılar. Dedilər ki, vəziyyət düzələndən, ara sakitləşəndən sonra qayıdacaqsınız. Heç kəs inanmırdı ki, Şuşa işğal olunar və biz bir daha Şuşaya qayıda bilmərik...

Anamla atam isə son günə qədər, 1992-ci il mayın 8-nə qədər Şuşada qaldılar. Atam Babaşah Gəncəliyev Şuşa özünümüdafiə batalyonunun komandiri idi. Onlar son ana qədər döyüşə-döyüşə şəhəri tərk etməyə məcbur qalmışdılar.

O zaman mənim 12 yaşım var idi. Hər gün Şuşayla telefon əlaqəsi saxlayırdıq, valideynlərimizlə danışırdıq. O zaman Şuşada Vaqif Cəfərov küçəsindəki 5 mərtəbəli binada yaşayırdıq. Şəhərin işğalına bir neçə gün qalmış ermənilər həmin binanın yuxarı mərtəbələrini qrad atəşi ilə dağıtmışdılar. Biz mayın 4-5-i anamla danışanda o, həyəcanlı idi, ağlayırdı. Deyirdi ki, vəziyyət çox gərgindir, həyatımız təhlükədədir, ermənilər hər gün atəş açırlar...

Çox çətin günlər idi... İndinin özündə belə o anlara qayıdanda yenidən həmin hissləri keçirirəm...

Təəssüf ki, artıq 27 ildir öz torpaqlarımızdan uzaq düşmüşük, amma yenə də ümidlərimizi itirmirik. Qarabağ İcması olaraq hər gün apardığımız fəaliyyət, çıxışlarımız, bəyanatlarımız da məhz bu istiqamətdədir ki, tezliklə Şuşaya, Qarabağa qovuşaq. Bizim qarşıdakı planlarımızda həyatımızın qalan hissəsini Bakıda və ya Azərbaycanın digər bölgələrində axıra qədər yaşamaq yoxdur. Şuşadan çıxan hazırkı nəsil ki var, artıq kifayət qədər yaşa dolub, mən özüm 12 yaşında Şuşadan qovulmuşam və hazırda 39 yaşım var. Ona görə çalışmalıyıq ki, bu münaqişə məhz bizim nəslimizin olduğu zamanda həll olunsun. Cənab Prezident də məhz bütün səylərini buna səfərbər edib.

Şuşada yaşayan bəzi ermənilər var idi ki, azərbaycanlılarla birgə yaşayışa etiraz etmirdilər. Hazırda isə erməni cəmiyyəti daha çox radikallaşıb. Onların 1992-1993-cü ildən sonra doğulan uşaqları azərbaycanlıları qəbul etmək istəmirlər. Yalançı erməni uydurmaları ilə onların beyinlərini doldurublar. Bu da ermənilərin nə qədər faşizim ideologiyası əsasında böyüdülməsinin, maarifləndirilməsinin bariz göstəricisidir. Təəssüf ki, Ermənistan qeyri-konstruktivdir, işğalçıdır, üstəgəl, gənclərini də o səpkidə böyüdür.

## Yaddan çıxmaz Qarabağ...

- Qarabağ uğrunda son nəfəsimizə kimi mübarizə aparırıq, aparacağıq. Qarabağ heç zaman yaddan çıxmaz... Ermənistanın düşdüyü iqtisadi vəziyyət, siyasi izolyasiya olunması ona doğru aparır ki, işğalçı özü yalvaracaq ki, Azərbaycan əhalisi Qarabağa qayıtsın və onları düşdükləri siyasi-iqtisadi izolyasiyadan qurtarsın.

Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, bütün Qarabağı



mütləq qaytaracağıq. Sülh yolu ilə və əgər alınmazsa, qüdrətli ordumuzun şücaəti sayəsində... O gün uzaqda deyil, əzəli torpaqlarımıza, Vətənimiz Qarabağa qovuşmağımız an məsələsidir...

Şuşa qalasının iki giriş qapısı var: biri Gəncə, digəri isə İrəvan qapısı. Ən böyük arzum Azərbaycanın ay-ulduzlu üçrəngli bayrağını Gəncə qapısından asmaqdır. Əminəm ki, bu arzum tezliklə həyata keçəcək və azərbaycanlılar Şuşaya Gəncə qapısından daxil olub, üzü İrəvan qapısına sarı yürüş edəcəklər...

Dillərində zəfər nəğməsi, əllərində vətən güllərindən hörülmüş çələnglər...

## Qarabağ səbrimizin tükəndiyi an

*Yuxularımızın qonağı, həsrətimizin ünvanı, nisgilimizin qaynağı Şuşa...*

*Şuşa könlümüzün qubarı, Qarabağ səbrimizin tükəndiyi an...*

*Şikəstəmizin fəğanı, bülbüllərin ah-naləsi...*

*27 ildir qulaqlarımızda səslənən fəryad, haray, çağırış, Şuşam...*



*Dünya var olduqca bizimsən, könlümüzdəsən, ruhumuzdasan...*

*Kimlər boy atmayıb köksündən?! Torpağın, suyun, havanla qidalanan hər bir övladın igid, cəsur, qorxmaz, vətənpərvərdir. Sən Qacar zülmünü də dizə gətirmisən, 1905-ci il erməni daşnaklarının azğınlığını da susdurmusan. Bu da sənin növbəti sınağındır. Amma Pənahəli xanın, Mehdiqulu xanın, Xurşidbanu Natəvanın və daha minlərlə igid vətən övladının yoğrulduğu bu müqəddəs torpaqda hiyləgər, məkrli, işğalçı erməni at oynada bilməz! Bu hünər onda yoxdur və heç zaman da olmayıb...*

*Fitnəkar özü də yaxşı bilir ki, Qarabağ Azərbaycandır!*

*Səni hər görəndə tanımaq olmur, a Şuşam,*
*İldə bir qərinə cavanlaşırsan.*
*Sən cavan hüsnünə qoca dağların,*
*Mehriban şəhərim, çox yaraşırsan...*

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

## XİN-də qəbul keçirilib

Xarici İşlər naziri Elmar Məmmədyarov Sudan Respublikasının Azərbaycan Respublikasındakı səfiri Abbas Mustafa Əhməd Abdallanı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər Azərbaycan ilə Sudan arasında mövcud əməkdaşlıq münasibətləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Səfir Abbas Abdalla Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşü çərçivəsində Sudanın Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhanın Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayaraq, bunun ölkələrimizin əlaqələrinin inkişafına böyük töhfə verdiyini qeyd edib.

Nazir Elmar Məmmədyarov öz növbəsində Azərbaycanın Sudanla, o cümlədən Qoşulmama Hərəkatına üzv dövlətlərlə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini bildirib, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin vacibliyini vurğulayıb.

Səfir Abbas Abdalla Azərbaycanda diplomatik fəaliyyətinin uğurla həyata keçirilməsində ona göstərilən dəstəyə görə təşəkkürünü ifadə edib.

Nazir Elmar Məmmədyarov səfir Abbas Abdallanın ikitərəfli münasibətlərin inkişafı istiqamətindəki səylərini yüksək qiymətləndirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

## 81 fərdi ev şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin istifadəsinə verilib

Dekabrın 27-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Masallı, Xaçmaz, Bərdə, Ağdam, Ağcabədi, Yevlax, İmişli, Zərdab, Tərtər, Saatlı, Sabirabad, Cəlilabad və digər rayonlarda yeni tikilmiş 81 fərdi yaşayış evini şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin istifadəsinə verib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiyalar şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, evlərin istifadəyə verilməsi tədbirlərində qeyd edilib ki, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində vətəndaş rifahının təminatı, həssas qruplardan olan vətəndaşlara dövlət qayğısının artırılması istiqamətində mühüm addımlar atılır. 2019-cu ildə 4,2 milyon insanı əhatə edən, onların rifahına ciddi dəstək olan islahatlar reallaşdırılmaqla, minimum əməkhaqqı 2 dəfəyə yaxın, minimum pensiya 72,4 faiz, sosial müavinət və təqaüdlər, o cümlədən müharibə əlillərinə sosial müavinətlər və təqaüdlər orta hesabla 100 faiz artırılıb, şəhid ailələri üçün aylıq təqaüdlər 242 manatdan 300 manata çatdırılıb.

Dövlət başçısının şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısı nəticəsində həmin kateqoriyalardan olan vətəndaşların mənzillə təminatı proqramları ildən-ilə geniş vüsət alır. Həmin vətəndaşlara Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil və fərdi ev təqdim edilib. 2019-cu ildə isə 934 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub, onlardan 815-i artıq verilib. Qalan mənzil və fərdi evlərin də yaxın günlərdə verilməsi təmin ediləcək. İndiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 7471 mənzil və fərdi ev təqdim edilib. Bütün bunlar ölkəmizdə həssas qruplardan olan vətəndaşlara, xüsusilə şəhid ailələrinə və müharibə əlillərinə diqqət və qayğının daim artdığını təsdiq edir.

Yeni fərdi yaşayış evləri təqdim edilən şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri onların maddi təminatlarının, həyat şəraitlərinin yaxşılaşdırılması məqsədilə atılan mühüm addımlara, yeni fərdi evlərlə təmin olunduqlarına görə dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

# Heydər Əliyev Fondu aztəminatlı ailələrə bayram sovqatları çatdırıb





Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə respublika üzrə ünvanlı dövlət sosial yardımı alan ailələrə bayram sovqatları paylanılıb. AZƏRTAC xəbər verir ki, dekabrın 21-dən etibarən fondun əməkdaşları və "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri aztəminatlı ailələrə bayram sovqatları çatdırıblar. Müxtəlif ərzaq məhsullarından ibarət bayram sovqatları Bakıda və regionlarda ünvanlı dövlət sosial yardımı alan ailələrə təqdim olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondu müxtəlif bayramlarda mütəmadi olaraq aztəminatlı ailələri təbrik edərək onlara sovqatlar çatdırır. Həyata keçirilən bu cür layihələr sosial-iqtisadi inkişaf dövlət proqramlarına dəstək xarakteri daşımaqla yanaşı, aztəminatlı ailələrin qayğı ilə əhatələnməsi, əlamətdar günlərdə bayram əhvali-ruhiyyəsi yaşatmaq məqsədi daşıyır.

# "Azərbaycanım" foto-müsabiqəsi üzrə sərgi və qaliblərin mükafatlandırılma mərasimi keçirilib





Dekabrın 26-da Heydər Əliyev Mərkəzində "Azərbaycanım" müsabiqəsinə təqdim olunan fotolardan ibarət sərgi və qaliblərin mükafatlandırılması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, "Regional İnkişaf" İctimai Birliyi və "Orxan Aslanov studiyası"nın birgə elan etdiyi müsabiqəyə 3000-dən çox foto təqdim edilib. Onların arasından seçilən 165 foto Heydər Əliyev Mərkəzindəki sərgidə nümayiş edilib.

Layihə ölkənin unikal təbiətini, qədim tarixini, zəngin mətbəxini, adət-ənənələrini, mədəniyyət və incəsənətini, insanların sosial həyatını fotolarla geniş ictimaiyyətə tanıtmaq, eləcə də gənclərin fotoqraf peşəsinə marağını artırmaq, istedadları üzə çıxarmaq və onların fərdi bacarıqlarının inkişafına dəstək məqsədilə həyata keçirilib.

Fotoqraf Orxan Aslanov çıxışı zamanı sərginin keçirilməsində Heydər Əliyev Mərkəzinə və "Regional İnkişaf" İctimai Birliyinə təşəkkürünü bildirib. Qeyd edib ki, bu ideya qeyri-peşəkar fotoqrafları bir araya toplamaq üçün yaranıb.

Layihənin qaydalarına əsasən, birinci yerin qalibi Sənan Müşayev, ikinci yerin qalibi müsabiqənin "Instagram" səhifəsində fotoların bəyənilmə sayı və münsiflər heyətinin rəyi əsasında Süleyman Süleymanlı, üçüncü yerin qalibi isə sərgi zamanı keçirilən səsvermə nəticəsində Nicat Adıgözəlov müəyyən edilib.

Tədbirdə qaliblərə qiymətli hədiyyələr və diplomlar, fərqlənən iştirakçılara həvəsləndirici mükafatlar təqdim olunub.

Layihənin davamı olaraq regionlarda fotoqrafiya təlimləri və sərgilərin təşkili nəzərdə tutulur.

Qeyd edək ki, müsabiqə noyabrın 18-dən dekabrın 18-dək davam edib.

# 271 qızıl medal, 243 beynəlxalq yarışda iştirak

Azərbaycan artıq beynəlxalq aləmdə idman ölkəsi kimi tanınır. Bu, həyata keçirilən uğurlu dövlət siyasətinin məntiqi nəticəsidir. İdmançılar hərtərəfli qayğı ilə əhatə olunurlar ki, bu da beynəlxalq yarışlarda daha böyük uğurlar əldə etməyə imkan yaradır. Mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda təzələri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına evsahibliyi edir. Bu il də idmançılarımız dünya, Avropa çempionatlarında və digər mötəbər turnirlərdə ölkəmizi layiqincə təmsil edərək böyük uğurlara imza atıblar.

Dekabrın 27-də Gənclər və İdman naziri Azad Rəhimov media nümayəndələri ilə görüşündə deyib ki, cari ildə respublikada fəaliyyət göstərən federasiyalarla birlikdə ölkəmizdə 233 respublika, 62 beynəlxalq yarış keçirilib. Nazir bildirib ki, 243 beynəlxalq yarışda yığma komandalarımızın iştirakı təmin olunub. Millilərimiz 12 gündən az olmayaraq 118 təlim-məşq toplanışında iştirak ediblər. Cari ildə idmançılarımız 271-i qızıl, 238-i gümüş və 266-sı bürünc olmaqla ümumilikdə 775 medal qazanıblar. Olimpiya idman növləri üzrə 90 qızıl, 96 gümüş, 141 bürünc, qeyri-Olimpiya idman növləri üzrə isə 181 qızıl, 142 gümüş və 125 bürünc medal əldə olunub.

A.Rəhimov cari ildə ölkəmizdə həyata keçirilən gənclər siyasəti sahəsinə də toxunaraq bildirib ki, buna uyğun 143 tədbir keçirilib ki, onlardan 124-ü yerli, 19-u isə beynəlxalq səviyyəli olub.

Regionlarda nazirlik tərəfindən 129 kütləvi aksiya təşkil edildiyini vurğulayan nazir bildirib ki, 206 gənc xarici ölkələrə ezam olunub, 1308 gənc isə Azərbaycana gəlib. Azərbaycan Gəncləri Günü münasibətilə cari il fevralın 1-də Bakı Konqres Mərkəzində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə keçirilən gənclərin respublika toplantısında 3500-dək gənc iştirak edib. Həmin toplantıda 6 nəfərə "Gənclər üçün Prezident Mükafatı" təqdim olunub.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# İlin ən yaxşı idmançıları mükafatlandırılıb




Dekabrın 27-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ilin idman yekunlarına dair tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, idman federasiyalarının rəhbərləri və idmançılar iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsindən sonra 2019-cu il ərzində idmançılarımızın qazandıqları nailiyyətlərə və ölkəmizdə keçirilən mötəbər idman yarışlarına dair videoçarx nümayiş olunub.

Gənclər və İdman naziri Azad Rəhimov tədbirdə çıxış edərək 2019-cu ilin Azərbaycan idmanı üçün uğurlu olduğunu bildirib. Nazir vurğulayıb ki, Azərbaycan idmançıları dünya və Avropa çempionatlarında, kubok yarışlarında və beynəlxalq turnirlərdə 775 medal qazanıblar. Medallardan 327-si Olimpiya idman növlərinin payına düşür. İl ərzində ölkəmizdə bir sıra mühüm yarışlar keçirilib. Bakıda yüksək səviyyədə təşkil olunan XV Avropa Gənclər Olimpiya Festivalı möhtəşəmliyi ilə yadda qalıb. Bu yarışda 23 medal qazanan yığma komandamız ilk dəfə dördüncü yeri tutub. İdmançılarımız II Avropa Oyunlarında 28 medal qazanıblar. İtaliyanın Neapol şəhərində keçirilən universiadada və bir sıra yarışlarda da çoxlu medallar qazanılıb.

A.Rəhimov, həmçinin diqqətə çatdırıb ki, cari ildə ölkəmizdə 233 respublika əhəmiyyətli yarış təşkil edilib. Təkcə Bakıda 60-dan çox beynəlxalq turnir keçirilib. Regionlarda idman tədbirlərinin keçirilməsi istiqamətində fəallıq artır. İdmançılarımız il ərzində 243 beynəlxalq yarışda iştirak ediblər.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında Azərbaycanda idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb və idmançılarımızın cari ildəki çıxışlarını yüksək qiymətləndirib. Bu uğurların Azərbaycan dövlətinin idmana qayğısının təzahürü olduğunu vurğulayan Ç.Hüseynzadə deyib ki, gələn il idmançılarımızı ciddi sınaq gözləyir. Əsas hədəf Tokio Olimpiadasında uğurla çıxış etməkdir.

Sonra müxtəlif nominasiyalar üzrə 2019-cu ilin ən yaxşıları mükafatlandırılıb. "İlin ən yaxşı idmançısı" nominasiyasında Hacı Əliyev (sərbəst güləş), Rostislav Pevtsov (triatlon), Nazim Babayev (atletika), Teymur Rəcəbov (şahmat), Mariya Stadnik (qadın güləşi), Milad Beigi Hərceqani (taekvondo), Rüstəm Orucov (cüdo), Zöhrə Ağamirova (bədii gimnastika), Elçin Əsədov (velosiped), Ramal Aslanov (kikboksinq), Aynur Məmmədova (parataekvondo) mükafatlandırılıblar. Ziyad Xəlfəyev (atletika), Rəşad Əhmədov (taekvondo), Əkbər Muradov (güllə atıcılığı) "Ən yaxşı məşqçi", Emin Qurbanəliyev (boks), Fariz Hüseynov (cüdo), Asif Şirəliyev (güləş) isə "Ən yaxşı hakim" adlarına layiq görülüblər. İdman yarışlarının yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycan Gimnastika Federasiyası mükafatlandırılıb. Azərbaycan Cüdo Federasiyası isə ilin ən yaxşı federasiyası mükafatına layiq görülüb. Şahmat üzrə qadınlardan ibarət yığmamız isə "İlin ən yaxşı komandası" seçilib.

Tədbirdə, həmçinin ilin ən yaxşı idman qurğuları, idman təşkilatları, ən fəal idman veteranı, idman həkimi, idman jurnalisti, media layihəsi, idman agentliyi, idman verilişlərinin təşkilatçısı nominasiyalarının qalibləri də təltif olunublar.

## 28 dekabr Beynəlxalq kino günüdür

# Ekran adlı möcüzə...

28 dekabr 1895-ci il... Parisin Kaputsino bulvarında, "Qrand-kafe" adlı kiçik bir məkanda Lui və Oqüst Lümyer qardaşları ixtira etdikləri aparatla çəkdikləri qısametrajlı filmləri nümayiş etdirdilər.

O günədək Tomas Alva Edisonun, Vilyam Diksonun etdikləri ixtiralar - fonoqraf, fotoqraf və kinetoskop sayəsində bu yolda müəyyən addımlar atılmışdı. Lümyer qardaşları sinematoqrafı bunların cəmindən yaratmışdılar.

Beləliklə, Lui və Oqüst Lümyer qardaşlarının sayəsində dekabrın 28-i yalnız Fransanın deyil, bütün ölkələrin və xalqların tarixinə əlamətdar gün kimi yazıldı. Lümyer qardaşlarının çəkdikləri kiçik süjetlər böyük kino sənətinin yaranmasının başlanğıcı oldu. Ancaq bu misilsiz sənəti meydana çıxaranlar özləri başqa düşüncələrdə idilər. Lümyer qardaşları kinonun həyat səhnələrinin nümayişindən başqa bir şey olmadığı və olmayacağı qənaətindəydilər. Hesab edirdilər ki, çox keçmədən bu maraq bitəcək. Amma kino bütün bəşəriyyətin diqqətini çəkdi.

## "Həyatın kölgəsi"

...Kino meydana çıxan kimi dil açıb danışmadı. Mövzularını, ideyalarını oyunçuların hərəkətləri, mimikaları ilə tamaşaçılara anlatdı. Kino sənəti "danışmağı" öyrənənədək uzun bir yol qət etməli oldu. Ancaq belə də tamaşaçılarda böyük maraq doğura, heyrətləndirə bilirdi. Lümyer qardaşlarının çəkdikləri, təsvirləri hərəkət edən fotoları xatırladan ilk səssiz kadrlar belə diqqətə şayan oldu. Təcrübə Lümyer qardaşlarında əminlik yaratdı ki, tamaşaçılar xronikal deyil, məzmunlu kadrlara üstünlük verirlər. Onlar da bunu nəzərə almalı oldular. Lümyerlərin çəkdikləri filmlərə ictimai baxış restoran-kafelərdə, parklarda, yarmarkalarda keçirilirdi. O illərin kinosüjetlərinə tamaşa edən görkəmli rus yazıçısı Maksim Qorki rəngsiz kinonu "həyatın kölgəsi" adlandırırdı.

Hələ ki mövzu və məzmun zənginliyindən uzaq idi. Üstəlik, Lümyer qardaşlarının filmləri burjua cəmiyyətinin maraqlarından çox da kənara çıxmırdı. Və belə süjetlər getdikcə tamaşaçıları yormağa başladı. Qardaşlar qərara gəldilər ki, real faktlara əsaslanan, məzmunlu filmlər meydana çıxarsınlar. 1897-ci ildə bir neçə kinooperator hazırlayaraq müxtəlif ölkələrə süjet çəkməyə yolladılar. Beləcə, operator sənəti də yarandı. Bu sənətin ilk nümayəndələri müxtəlif ölkələrə gedir, həyatın gerçək səhnələrini lentə alır və kinoteatrlarda nümayiş etdirirdilər. Tamaşaçıların bir müddət də belə, uzaq diyarlardan xəbər verən kadrlarla diqqətini cəlb etmək mümkün oldu. Bu, rejissorsuz, aktyorsuz çəkilən, ekranda cərəyan edən hadisələrin mahiyyətini açmayan səhnələrlə uzun müddət maraq doğurmaq mümkün olmadı. Ancaq kinematoqrafçılar da bədii yaradıcılıq axtarışında idilər.

Kommersiya məqsədilə ixtira edilən kino yavaş-yavaş irəliləməkdə, incəsənətə xidmət etməkdə idi. Teatr rejissoru, dekorator, aktyor, qəzet karikaturaçısı, əyləncəli attraksionlarda texniki konstruktor işləyən Melyes Lümyer qardaşlarından aparat alaraq ilk dəfə kamera ilə kinematoqrafik tryukları çəkdi. O, müxtəlif kadrlar lentə aldı və montaj kinosu üslubunu kəşf etdi. Melyes davamlı olaraq bu üslubda sirk səhnələrini, teatr tamaşalarını lentə aldı. "Qırmızı papaq", "Göy saqqal", "Janna Dark", "Faust" tamaşalarının ekran variantı tamaşaçıları heyran qoyur, kinoya isə bədiilik gətirirdi. Amma yüksələn tamaşaçı zövqünə və tələbatına cavab vermək üçün yeniliklər etmək lazım idi.

Tamaşaçıların yavaş-yavaş zənginləşən zövqünə uyğun bədii film yaratmaq məqsədilə ədəbiyyat və teatr xadimləri 1908-ci ildə "Film d Ar" cəmiyyətini qurdular. Birinci dərəcəli aktyorların iştirakı ilə məşhur romanların süjetləri əsasında filmlər çəkməyə başladılar.

1930-cu illərdə Fransada artıq işinin peşəkarı olan xeyli sayda kinematoqrafçı var idi. Buradakı "Pate" və "Qomon" kino şirkətləri dünyada baş verən sensasiyalı xəbərlər əsasında xronikal filmlər çəkir, bütün ölkələrə öz kinooperatorlarını göndərirdilər. Çar Rusiyasında on il fəaliyyət göstərən fransız firmalarının kinematoqrafçıları imperiyanın ərazisində müxtəlif mövzuda filmlər lentə aldılar. Bunlardan biri də Bakıda neft hasilatından bəhs edirdi.

## İlk Azərbaycan filmləri

XIX əsrin sonlarında Parisdən uzaqlarda, nefti ilə məşhurlaşan Bakıda iqtisadi və mədəni sahələrdə canlanma müşahidə olunurdu. Fransada ixtira olunan sinematoqraf Bakıya da gəldi. 1898-ci il yanvarın 8-dən burada xarici filmlər göstərilməyə başlandı. İyunun 21-də Vasili-Vyatskinin teatr-sirkində Bakı həyatından bəhs edən "Şəhər bağında xalq gəzintisi", "Qatarın dəmiryol stansiyasına daxil olması", "Qafqaz və Merkuri" Cəmiyyətinə məxsus paroxodun limandan yola düşməsi" və "Bazar küçəsi sübh çağı" kinosüjetləri nümayiş olundu. 1898-ci il avqustun 2-də fotoqraf, rejissor, ssenarist, operator, redaktor, naşir, Bakı fotoqrafiya dərnəyinin yaradıcısı, Paris milli akademiyasının fotoqraf üzvü Aleksandr Mixayloviç Mişonun çəkdiyi "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Qafqaz rəqsi" xronikal-sənədli və "İlişdin" bədii kinosüjetlərinin daxil edildiyi ayrıca proqram nümayiş olundu. Həmin il Mişon "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" kadrlarını Fransada təşkil olunmuş dünya sərgisində nümayiş etdirmək üçün apardı. Lümyer qardaşlarının marağına səbəb olan bu unikal kadrlar Fransa kino arxivində qorunub saxlanıldı.

2001-ci ildə Azərbaycan Dövlət Film Fondunun təşəbbüsü ilə Fransanın kinoarxivindəki həmin kinosüjetlər Azərbaycana gətirildi.

Kinonun meydana çıxması ilə teatrın sonunun gələcəyini düşünənlər yanıldılar. Nə qədər diqqətləri cəlb etsə də, maraq doğursa da, kino teatrın yerini tutmadı. Ancaq öz yerini və populyarlığını da heç vaxt itirmədi. Çünki bəşər övladları həmişəlik ekran adlı möcüzənin sehrinə düşmüşdülər...

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***







# Beynəlxalq aləm

## İŞİD Kərkükdə hücuma keçdi



İraqın Kərkük və Səlahəddin əyalətlərində İŞİD terrorçu təşkilatının törətdiyi hücumlar nəticəsində 9 dinc sakin həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Kərkük Polis Departamentinin mətbuat katibi Əfrasiyab Kamilin dediyinə görə, şəhərin cənub ətraflarında İŞİD terrorçularının oğurladığı 3 nəfərin meyiti tapılmışdır. Onlar regionda kənd təsərrüfatı ilə məşğul olan mülki vətəndaşlardır. Səlahəddin əyalətinin yerli məclisinin təhlükəsizlik komitəsinin başçısı Mehdi Təki bildirmişdir ki, əyalətin Aləm rayonunda saxta nəzarət məntəqəsi quran İŞİD ünsürləri üç avtomobilə silahlı hücum etmişdir. Nəticədə 6 dinc sakin həlak olmuşdur.

Xatırladaq ki, İŞİD 2014-cü ilin iyununda İraqın Mosul, Səlahəddin və Ənbar əyalətlərini tamamilə, habelə Diyala və Kərkük əyalətlərini qismən ələ keçirmişdi. Sonradan bu regionlar terrorçulardan təmizlənmişdir.

2017-ci il dekabrın 9-da İraqın ovaxtkı Baş Naziri Heydər İbadi İŞİD üzərində qələbə qazanıldığını elan etmişdir. Buna baxmayaraq, terrorçu təşkilat hələ də adıçəkilən əyalətlərin kənd rayonlarına hücumu davam etdirir.

## Almatıda sərnişin təyyarəsi qəzaya uğradı



Qazaxıstanın Almatı şəhəri yaxınlığındakı Kızıl Tu məntəqəsi rayonunda "Fokker-100" sərnişin təyyarəsi qəzaya uğramışdır. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, qəza nəticəsində 16 nəfər həlak olmuş, 66 nəfər xəsarət almışdır.

Təyyarədə 95 sərnişinin, o cümlədən 8 uşaq və heyətin 5 üzvünün olduğu bildirilir. Hadisə yerində min nəfərə yaxın adam işləyir. "Fokker-100" Almatıdan paytaxt Nur-Sultana uçmalı idi. Lakin təyyarə havaya qalxa bilməmiş və beton hasarı deşərək ikimərtəbəli tikiliyə çırpılmışdır.

"Bek Air" aviasiya şirkətinin fəaliyyəti faciənin təfərrüatları araşdırılanadək dayandırılmışdır.

Bundan əlavə, Qazaxıstan Sənaye və İnfrastruktur İnkişafı Nazirliyi "Fokker-100" təyyarələrindən istifadəni qadağan etmişdir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev həlak olanların yaxınlarına başsağlığı vermiş, təqsirkarların ciddi cəzalandırılacağını bildirmişdir.

Faciə ilə əlaqədar ölkədə matəm elan olunmuşdur.

## MAR-da silahlı toqquşmalarda 35 nəfər öldürülüb



Mərkəzi Afrika Respublikasının paytaxtı Banqa şəhərində qiyamçılarla yerli ticarətçilər arasında silahlı toqquşmalar nəticəsində 35 nəfər həlak olmuş, 50 nəfərdən çox adam yaralanmışdır. Bu barədə TRT telekanalı xəbər verir.

Yerli KİV-in xəbərinə görə, toqquşmalar artıq bir neçə gündür davam edir. Silahlı dəstələr 50-dək ev, ofis və mağazaya od vurmuşdur. Münaqişələrə səbəb ticarətçilərin qanunsuz olaraq pul yığan və məhəllələrə nəzarət edən silahlı birləşmələrə qarşı müqavimət göstərməsidir.

Hökumət ölənlərin və yaralıların sayının artacağından ehtiyatlanır.

## İraq Prezidenti istefaya hazırlaşır



İraq Prezidenti Bərhəm Saleh partiyaların yeni Baş Nazirin namizədliyi ilə bağlı razılaşmaya gələ bilməməsi üzündən istefaya getməyə hazırlaşır. Ölkə lideri bu barədə parlamenti xəbərdar etmişdir.

"Anadolu" agentliyinin xəbərinə görə, Saleh bu vəzifəyə parlament blokunun namizədi Əsəd İdaninin təyin olunmasına qarşı çıxmışdır. Prezident bildirmişdir ki, konstitusiya onun Baş Nazir kürsüsünə namizədləri rədd etməsini qadağan edir və o, ölkədə siyasi böhranı dərinləşdirmək istəmir.

Xatırladaq ki, oktyabr ayından bəri İraqda hazırkı hökumətə etimadsızlıq şüarları altında kütləvi nümayişlər səngimir. Etiraz aksiyalarının əsas ocaqları paytaxt Bağdad və İdaninin qubernator vəzifəsi tutduğu Bəsrə əyalətidir. Əvvəlcə nümayişçilər korrupsiya, işsizlik və sosial problemlərdən narazılıq edirdilər. Sonradan etirazçılar tələblərini genişləndirərək yeni konstitusiyanın və yeni seçki qanununun qəbul olunmasını tələb etməyə başladılar.

# Qarabağ atlarına həsr olunmuş klip






**Binə Atçılıq Mərkəzində Azərbaycan Respublikası Atçılıq Federasiyası tərəfindən 2019-cu ilin yekunlarına dair tədbirdə Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestrinin solisti, baş leytenant Elnarə Xəlilovanın "Qarabağ atları" adlı yeni mahnı və klipinin təqdimatı olub.**

Klipdə dünyaca məşhur Qarabağ atlarının şücaətindən bəhs edilir. "Naxçıvan yallısı" musiqisinə əsasən hazırlanan mahnının sözləri Ramin Xəlilovun, aranjemanı Samir Şirinovundur.

Çəkilişlərdə DSX-nin süvarilər dəstəsi və əməkdar artist Nailə Məmmədzadənin rəhbərlik etdiyi rəqs ansamblı iştirak edib. Klip Azərbaycan Atçılıq Federasiyasının dəstəyi ilə "Sərhədçi" studiyası tərəfindən ekranlaşdırılıb. Klipin çəkilişləri Binə Atçılıq Mərkəzində aparılıb. Ekran işində Qarabağ atlarının dünyanın ən böyük arenalarında dünyanı fəth edən çıxışlarından olan videomateriallardan da istifadə edilib. Böyük maraqla izlənən "Qarabağ atları" mahnı və klipi vətənpərvərlik mövzusunda olan ən uğurlu layihələrdən biri kimi tədbir iştirakçılarında yüksək təəssürat hissi yaradıb.

***"Azərbaycan"***

# Bakı Yeni ili xoş ovqatla gözləyir

Paytaxt şəhərimiz artıq neçə gündür Yeni il əhvali-ruhiyyəsinə köklənib. Hər tərəfdə bu bayramın rəmzi olan yolkalar bəzədilib. Biri digərindən gözəl, əzəmətli... Bakının cəlbedici görkəminin füsunkarlığı daha da artıb.

Şəhərdə hər gün qələbəlikdir. Bayram alış-verişi edən kim, gəzintiyə çıxan kim... Ən çox sevinən isə uşaqlardır. Şaxta baba, Qar qız, balacaların digər nağıl qəhrəmanları indidən onların görüşünə gəlib.

Axşam çilçıraqların gözoxşayan al-əlvan işıqları daha bir bənzərsiz mənzərə yaradır.

Bakı Yeni ili xoş ovqatla gözləyir, xoş arzularla qarşılayır.

***Foto Ağaəli MƏMMƏDOVUNDUR, "Azərbaycan"***









## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Azərpoçt" MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə *tender elan edir*

Tender 4 lotda keçirilir.

| | |
|---|---|
| LOT 1 | Katriclərin alınması |
| LOT 2 | Katriclərin dolumu və printerlərin təmiri |
| LOT 3 | Elektrik malların alınması |
| LOT 4 | Polietilen məhsulların alınması |

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplsunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:

**LOT 1 200 manat**
**LOT 2 250 manat**
**LOT 3 200 manat**
**LOT 4 300 manat**

məbləğində pul vəsaitini aşağıdakı Bank hesabına köçürməlidir:

**"Azərpoçt" MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: "Azərpoçt" MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**

**İştirak haqqı hər lot üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqannından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının anoloji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir)%-ni təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istina olmaqla) 23 yanvar 2020-ci il saat 17:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 31 yanvar 2020-ci il saat 17:00-dək dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri 03 fevral 2020-ci il saat 12:00-da açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderdə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Oktay İsmayılov - Tender Komissiyasının üzvü, (tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti *açıq tenderə dəvət edir*

**Tender 3 LOT üzrə keçirilir:**

**LOT 1 -** "BakıTelefon Rabitəsi" MMC-nin xidməti ərazisində EATS-lərdə enerji dayanıqlığını təmin etmək üçün dizel generatorların satın alınması.

**LOT 2 -** İstismar işləri üçün tələb olunan materialların satın alınması.

**LOT 3 -** Stansiya akkumulyatorları və UPS-lərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 - 800 (səkkiz yüz) manat (ƏDV daxil)**
**LOT 2 - 500 (beş yüz) manat (ƏDV daxil)**
**LOT 3 - 400 (dörd yüz) manat (ƏDV daxil)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **23 yanvar 2020-ci il saat 17:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında vergi və sosial müvafiq orqanlarından arayış.*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
- *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
- *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **30 yanvar 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **31 yanvar 2020-cu il saat 11:00-dan-12:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.*

***Tender komissiyası***

# Gömrük Komitəsinin rəhbərliyi Xaçmaz, Qusar və Şabranda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər.

Dekabrın 27-də Dövlət Gömrük Komitəsinin (DGK) rəhbərliyi Xaçmaz, Quba, Qusar və Şabran rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, DGK-nın sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Xaçmaz şəhərində Xaçmaz və Quba rayonlarından olan vətəndaşlarla görüşüb.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə və digər gömrük məsələləri ilə bağlı olub.

Həmin gün Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Qusar şəhərində, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Şabran şəhərində Qusar və Şabran rayonlarından olan vətəndaşları qəbul edib. Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

# FHN bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaq

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi, bayram şənliklərinin təşkil olunduğu və insanların daha çox toplaşdıqları məkanlarda, həyat təminatı və digər mühüm əhəmiyyətli obyektlərdə baş verə biləcək fövqəladə hadisələrə çevik reaksiya verilməsi, onların mümkün nəticələrinin operativ aradan qaldırılması məqsədilə Fövqəladə Hallar Nazirliyinin (FHN) aidiyyəti qəza-xilasetmə qurumları və regional mərkəzləri dekabrın 31-dən yanvarın 7-dək gücləndirilmiş iş rejimində çalışacaq.

FHN-dən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı Fövqəladə Hallar naziri general-polkovnik Kəmaləddin Heydərov tərəfindən müvafiq əmr imzalanıb.

# İrandan Azərbaycana 38 kiloqrama yaxın narkotik vasitənin keçirilməsinin qarşısı alınıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti dövlət sərhədinin etibarlı mühafizəsinin təmin olunması və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində əməliyyat-qoşun tədbirləri davam etdirir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, dekabrın 20-də Xidmətin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Biləsuvar rayonunun Ağalı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına doğru hərəkət edən iki nəfər naməlum şəxsin hərəkəti sərhəd naryadı tərəfindən müşahidə edilib.

Sərhəd naryadının "Dayan!" əmrinə tabe olmayan sərhəd pozucularına qarşı silahdan havaya xəbərdarlıq məqsədilə atəş açılıb, lakin sərhəd pozucuları əllərindəki çantanı əraziyə ataraq havanın qaranlıq və ərazinin kolluq olmasından istifadə edərək geriyə qaçıblar. Həmin ərazi dərhal qapadılaraq axtarış tədbirləri keçirilib, nəticədə iki çantada içərisində 13 kiloqram narkotik vasitə (1 kiloqram 355 qram marixuana, 6 kiloqram heroin, 4 kiloqram 265 qram metamfetamin, 1 kiloqram 340 qram tiryək və 990 ədəd "Preqabalin - 150", 300 ədəd "Tramadol FM-40" markalı həb) aşkar olunaraq götürülüb.

Narkotik vasitələrin sifarişçisinin müəyyənləşdirilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi istiqamətində Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Biləsuvar rayonunun Zəhmətabad kənd sakinlərindən 4 nəfər şübhəli şəxs qismində saxlanılıb.

Dekabrın 23-də DSX-nin Sərhəd Qoşunlarının "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Züngüləş kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində də İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində qaçaqmalçılar tərəfindən dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Nəticədə hadisə yerində 24 kiloqram 765 qram narkotik vasitə (4 kiloqram 65 qram heroin, 20 kiloqram 700 qram tiryək) aşkarlanaraq götürülüb.

Həmin faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Beyləqan Rayon Məhkəməsinin hakimi

**NƏSRULLAH İBADULLAH OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyalarının İttifaqının üzvləri Beyləqan Rayon Məhkəməsinin hakimi

**NƏSRULLAH ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8895
Sifariş 4338
Qiyməti 40 qəpik